RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN



№ 216 (10236) 24 noyabr 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

Azərbaycan Vyetnamın regionda mühüm strateji tərəfdaşıdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 21-də Vyetnam Sosialist Respublikasının paytaxtı Hanoyda rəsmi qarşılanma mərasimi olub.

Hanoyda Azərbaycan Prezidenti İlham Əliyev və Vyetnam Prezidenti To Lam "Azərbaycan Respublikası Prezidentinin və Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi, Vyetnam Sosialist Respublikası Prezidentinin Birgə Bəyanatı"nı qəbul ediblər.

Sonra Hanoyda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasının Prezidenti To Lam ilə geniş tərkibdə görüşü olub.

Həmin gün Vyetnam Sosialist Respublikasının Prezidenti To Lamın və xanımı No Fon Linin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə rəsmi nahar verilib.

Daha sonra Hanoyda Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Vyetnamın birinci xanımı No Fon Li ilə Hanoydakı İrs Evində görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasına rəsmi səfəri noyabrın 21-də başa çatıb.

2-5

Prezident İlham Əliyev Prezident Donald Trampa təşəkkür edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev TRIPP layihəsinin başlanması münasibətilə ona ünvanladığı xoş sözlərə görə ABŞ Prezidenti Donald Trampa təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyevin "X" hesabında paylaşım edilib.

Paylaşımda deyilir: "Hörmətli Prezident Donald Tramp,

"Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinin başlanması münasibətilə mənə ünvanladığınız xoş sözlərə görə səmimi minnətdarlığımı bildirmək istəyirəm".

Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında Antonio Tayaninin qəbulu ilə bağlı videoçarx paylaşılıb



Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında İtaliya Nazirlər Şurası Sədrinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayaninin qəbulu ilə bağlı videoçarx paylaşılıb.

https://www.facebook.com/reel/1779123116486798

Prezident İlham Əliyevin sosial media hesablarında azərbaycançılıq ənənələri ilə bağlı videoçarx paylaşılıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial media hesablarında azərbaycançılıq ənənələri ilə bağlı videoçarx paylaşılıb.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Azərbaycançılıq məfkurəsi bizim bütün uğurlarımızın təməlində dayanan fəlsəfədir".

https://www.facebook.com/reel/1033973503064227

"Yeni Azərbaycan Partiyası: *Heydər Əliyev dühası və siyasi varislik"*

Ulu Öndər Heydər Əliyev siyasi varisliyi təmin etməklə dövlətçilik tariximizdə ən böyük xidmətlərindən birini göstərmişdir: "Cənab İlham Əliyevin 2003-cü ildə ölkə Prezidenti, 2005-ci ildə isə Yeni Azərbaycan Partiyasının Sədri seçilməsi istər partiyamızın həyatında, istərsə də bütövlükdə ölkəmizin inkişafında keyfiyyətcə yeni mərhələyə start vermişdir. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində xalq-iqtidar birliyi daha da möhkəmlənmiş, Azərbaycan regionda lider dövlətə çevrilərək dünyada etibarlı tərəfdaş kimi tanınmışdır. Və nəhayət, ölkəmiz öz ərazi bütövlüyünü və mütləq suverenliyini təmin etməklə Zəfər zirvəsinə yüksəlmiş, regionumuz üçün yeni perspektivlər yaranmışdır. Bu gün Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpaquruculuq işləri, Böyük qayıdış prosesi uğurla davam etdirilir. İşğaldan azad edilmiş ərazilərdə şəhər və kəndlərin yenidən qurulması, soydaşlarımızın doğma yurdlarına qayıdışı Azərbaycanın iqtisadi gücünü, siyasi iradəsini və gələcəyə inamını aydın şəkildə nümayiş etdirir. Eyni zamanda ölkəmizin təşəbbüsü ilə başlanan sülh quruculuğu prosesi beynəlxalq hüquq normalarına, eləcə də dövlətlərin ərazi bütövlüyünün qorunması və sərhədlərinin toxunulmazlığı prinsiplərinə əsaslanır ki, bu da yalnız Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına deyil, bütövlükdə qarşılıqlı hörmət və faydalı əməkdaşlıq şəraitində Cənubi Qafqazın sabit, təhlükəsiz və firavan gələcəyinə xidmət edir".

9

Müstəqil dövlətçiliyimizin təməl məfkurəsi azərbaycançılıqdır



Azərbaycançılıq məfkurəsinin müstəqil dövlət quruculuğunun ideoloji təməli kimi formalaşdırılması Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərindəndir. Müstəqilliyimizin ilk illərində ölkənin üzləşdiyi siyasi böhran, daxili qarşıdurmalar, separatçılıq meyilləri və dövlətçiliyin ciddi təhlükələrlə üzləşməsi milli birliyin möhkəm ideoloji əsaslara söykənməsini zəruri edirdi. Belə mürəkkəb şəraitdə Ulu Öndər Heydər Əliyev Azərbaycan cəmiyyətini vahid amal ətrafında birləşdirən, dövlət müstəqilliyinin möhkəmləndirilməsinə xidmət edən azərbaycançılıq ideyasını dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirdi, milli kimliklə dövlətçilik düşüncəsini uzlaşdıraraq xalqımızın birliyinin ideoloji əsaslarını yaratdı. Ulu Öndərin 2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının I Qurultayında səsləndirdiyi "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır" fikri bu məfkurənin mahiyyəti idi.

Bu gün həmin ideoloji xətt Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni tarixi şəraitdə ardıcıl davam edir. Dövlətimizin başçısı Ulu Öndər Heydər Əliyevin siyasi irsini yaşatmaqla yanaşı, azərbaycançılıq məfkurəsini müasir Azərbaycanın inkişaf strategiyasının mühüm dayaqlarından birinə çevirib. Prezidentin bu məsələyə münasibəti 8 Noyabr - Zəfər Günü münasibətilə xalqa təbrikində səsləndirdiyi fikirlərdə xüsusilə aydın ifadə olunub: "Azərbaycançılıq bütün vətəndaşlarımızı birləşdirən fəlsəfədir. Azərbaycançılıq bizi irəliyə aparan məfkurədir". Prezidentin vurğuladığı kimi, ölkəmizdə bütün etnik qrupların və dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bizi birləşdirən isə vətəndaşlıq, həmrəylik və azərbaycançılıq məfkurəsidir. Dövlətimizin başçısının bu yanaşması göstərir ki, milli birlik tarixi yaddaşımızın deyil, həm də müasir dövlət quruculuğumuzun əsas şərtidir.

12

◆ Prezident İlham Əliyevin Vyetnama rəsmi səfəri

Azərbaycan Vyetnamın regionda mühüm strateji tərəfdaşıdır

Hanoyda rəsmi qarşılanma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 21-də Vyetnam Sosialist Respublikasının paytaxtı Hanoyda rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Vyetnamın və Azərbaycanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Vyetnam Sosialist Respublikasının Prezidenti To Lam və xanımı No Fon Li Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşıladılar.

Azərbaycanın və Vyetnamın Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Vyetnam Sosialist Respublikasının rəsmi şəxsləri Prezident İlham Əliyevə, Azərbaycan Respublikasının nümayəndə heyətinin üzvləri isə Prezident To Lama təqdim edildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.

Sonra rəsmi foto çəkdirildi.

















Azərbaycan Prezidenti İlham Əliyevin Vyetnam Prezidenti ilə geniş tərkibdə görüşü olub

Noyabrın 21-də Hanoyda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasının Prezidenti To Lam ilə geniş tərkibdə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Vyetnam Prezidenti To LAM** dedi:

- Zati-aliləri İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti.

Zati-aliləri, Vyetnama rəsmi səfərə xoş gəlmisiniz. Mənə məlumat verildi ki, bu, Sizin bizim ölkəyə ikinci səfərinizdir. Bu da Sizin Vyetnama və onun xalqına bəslədiyiniz səmimi münasibətin göstəricisidir. Mən tam əminəm ki, səfəriniz ikitərəfli münasibətlərimizə yeni təkan verəcək, onları daha da dərinləşdirəcək, məzmunlu və səmərəli edəcək.

Ötən ilin mayında Azərbaycana dövlət səfərimiz zamanı Sizin, birinci xanımın, Birinci vitse-prezidentin, ailənizin və Azərbaycan xalqının mənim, Vyetnamın birinci xanımının və Vyetnamın yüksəksəviyyəli nümayəndə heyətinin səmimi şəkildə qəbulundan və qarşılanmasından çox məmnun oldum və bunu yüksək qiymətləndirirəm.

Biz Azərbaycandakı vəziyyəti hər zaman yaxından izləmişik. Mükəmməl rəhbərliyinizlə Azərbaycanın əldə etdiyi mühüm nailiyyətlər münasibətilə Sizi təbrik etmək istərdim. Son illərdə Azərbaycanın ümumi daxili məhsulu artmaqda davam edir. Əhalinin həyat səviyyəsi daim yaxşılaşır və Azərbaycanın beynəlxalq aləmdəki mövqeyi davamlı olaraq güclənib. Biz Azərbaycanı regionda daimi olaraq mühüm strateji tərəfdaş kimi qəbul etmişik.

Uzunmüddətli ənənəvi dostluğumuz hər iki ölkədə nəsillər boyu liderlər və xalqlar tərəfindən qorunub saxlanılıb və inkişaf etdirilib. Vyetnam keçmişdə milli azadlıq və müstəqillik uğrunda apardığı mübarizədə, həmçinin hazırkı milli inkişaf səylərində Azərbaycanın göstərdiyi dəstəyi hər zaman xatırlayır və yüksək qiymətləndirir.

2025-ci ilin mayında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi ikitərəfli əlaqələrimizdə yeni səhifə açan tarixi mərhələdir.

Hər iki ölkə qarşısında bütün səviyyələrdə və bütün sahələrdə duran mühüm vəzifə əməkdaşlığımızın məzmununu şaxələndirərək, onu konkret proqramlara, layihələrə və nailiyyətlərə çevirərək xalqlarımıza əhəmiyyətli faydalar qazandırmaqdır.

Bu il AQEM Zirvə görüşünün uğurla keçirilməsi münasibətilə Sizi bir daha təbrik edirəm. Ümidvaram ki, bugünkü ikitərəfli danışıqlarımız zamanı gələcəkdə razılaşmaların həyata keçirilməsini davam etdirmək, bütün istiqamətlər üzrə əməkdaşlığı daha da inkişaf etdirmək vasitələri və yolları barədə açıq müzakirələr aparacağıq.

İndi isə cənab Prezident, çıxış üçün sözü Sizə vermək istəyirəm.

Ardı 3-cü səh.

◆ Prezident İlham Əliyevin Vyetnama rəsmi səfəri

Azərbaycan Vyetnamın regionda mühüm strateji tərəfdaşıdır

Azərbaycan Prezidenti İlham Əliyevin Vyetnam Prezidenti ilə geniş tərkibdə görüşü olub

Əvvəli 2-ci səh.

❖ ❖ ❖

Azərbaycan Prezidenti İlham ƏLİYEV çıxış edərək dedi:

- Cənab Prezident, əziz dostlar. İlk növbədə, ölkənizə rəsmi səfərə gəlmək üçün məni dəvət etdiyinizə, mənə və nümayəndə heyətimə göstərilən qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Dost Vyetnamı yenidən ziyarət etməyə və ölkənizin sürətli inkişafına şahid olmağa çox şadam. 2014-cü ildə Vyetnama səfər etmişdim və o vaxtdan bəri Sizin rəhbərliyinizlə ölkənizdə müxtəlif istiqamətlərdə möhtəşəm tərəqqi əldə olunmuşdur. Vyetnam indi çox önəmli beynəlxalq aktordur və təkcə regionunuzda deyil, qlobal miqyasda önəmli rol oynayır.

Sizin sürətli sosial və iqtisadi inkişafınız bütün dünyaya məlumdur. Ölkənizdəki çox yaxşı investisiya mühiti dünyanın müxtəlif yerlərindən olan bir çox şirkətlər üçün çox cəlbedicidir. Sizin də doğru qeyd etdiyiniz kimi, cənab Prezident, münasibətlərimiz strateji əhəmiyyət daşıyır. Ötən il Sizin Azərbaycanda dövlət səfəriniz zamanı biz bu münasibətləri rəsmən strateji səviyyəyə yüksəltdik, lakin bu münasibətlər hətta bundan da əvvəl strateji xarakter daşıyırdı.

Xalqlarımız arasında əlaqələrin tarixi kökləri var və Sizin milli dəyərləriniz uğrunda müstəqillik mübarizəniz Azərbaycan xalqı tərəfindən həmişə dəstəklənmişdir.

Vyetnamın Prezidenti, böyük rəhbər Ho Şi Minin 1959-cu ildə Azərbaycana tarixi səfəri, həmçinin əlamətdar hadisə olmuşdur və bu səfərlə bağlı xatirələr hələ də bizim qəlbimizdədir. Həmin səfər zamanı Prezident Ho Şi Min Azərbaycanın bəzi sənaye sahələrini, xüsusilə neft sənayesi ilə əlaqəli olan sahələri ziyarət edib. Bundan sonra bir çox azərbaycanlı mütəxəssis neft sənayesinin inkişafına dəstək olmaq üçün Vyetnama göndərilmişdir.



Əməkdaşlığımız bir çox sahələri əhatə edir və biz beynəlxalq aləmdə güclü qarşılıqlı əlaqəyə malik olduğumuz üçün çox şadıq. AQEM Zirvə görüşündə yüksəksəviyyəli iştirakınız üçün Sizə minnətdarıq.

❖ ❖ ❖

Söhbət zamanı ölkələrimiz arasında yüksəksəviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əlaqələrimizin inkişafında roluna toxunuldu, yeni əməkdaşlıq mexanizmlərinin müəyyənləşdirilməsi baxımından bu səfərlərin rolu vurğulandı. Ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, AQEM və digər təsisatlar çərçivəsində əməkdaşlığından, həmçinin Azərbaycanla ASEAN arasında əlaqələrin inkişaf etdirilməsi məsələlərindən bəhs olundu.

Vyetnamın Xəzər regionu və Cənubi Qafqaz ölkələri ilə əməkdaşlığının qurulmasında Azərbaycanın rolunun və dəstəyinin önəmi qeyd edildi.

Görüşdə enerji sahəsində, o cümlədən neft-qaz və enerji təhlükəsizliyi, birgə həyata keçirilən enerji, iqtisadiyyat, investisiyalar, turizm, təhlükəsizlik, müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq, parlamentlərarası münasibətlər, nəqliyyat-logistika, aviasiya və mədəniyyət əlaqələri ilə bağlı məsələlər müzakirə olundu. Azərbaycanın birgə həyata keçirilən enerji, o cümlədən külək və günəş enerjisi sahələrində böyük potensialının olduğu bildirildi. Həmçinin infrastruktur layihələri, o cümlədən "Şərq-Qərb" və "Şimal-Cənub" marşrutları üzrə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, Trans-Xəzər marşrutunun əhəmiyyəti vurğulandı.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Vyetnam Milli Neft və Qaz Şirkəti (PetroVietnam) arasında əlaqələrin dərinləşdirilməsi istiqamətində fikir mübadiləsi aparıldı.

Görüşdə hər iki ölkənin mina problemindən əziyyət çəkdiyi vurğulandı, bu xüsusda minatəmizləmə sahəsində də tərəfdaşlığın əhəmiyyəti qeyd edildi.

Prezident İlham Əliyev 2020-ci ildə Vətən müharibəsi dövründə BMT-nin Təhlükəsizlik Şurasında Azərbaycanla bağlı nəzərdə tutulan məhdudiyyətlərə qarşı Vyetnamın göstərdiyi dəstəyi yüksək qiymətləndirdi və bunun heç vaxt unudulmayacağını dedi.

Azərbaycan və Vyetnam xalqlarının müstəqillik və azadlıq uğrunda mübarizədə cəsarət, qəhrəmanlıq nümayiş etdirdikləri vurğulandı, bunun iki xalqı birləşdirən amil olduğu qeyd edildi.

Dövlətimizin başçısının səfərinin nəticələrinin ölkələrimiz arasında tərəfdaşlığın gələcəyi üçün mühüm rol oynayacağına əminlik ifadə olundu.

Söhbət əsnasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

Prezidentlər İlham Əliyev və To Lam Birgə Bəyanat qəbul ediblər, Azərbaycan-Vyetnam sənədləri mübadilə olunub

Noyabrın 21-də Hanoyda Azərbaycan Prezidenti İlham Əliyev və Vyetnam Prezidenti To Lam "Azərbaycan Respublikası Prezidentinin və Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi, Vyetnam Sosialist Respublikası Prezidentinin Birgə Bəyanatı"nı qəbul ediblər.









AZƏRTAC xəbər verir ki, sonra Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Vyetnam Prezidenti To Lamın iştirakı ilə mübadiləsi mərasimi olub.

"Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının İctimai Təhlükəsizlik Nazirliyi arasında yanğın və xilasetmə xidmətləri sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Vyetnamın ictimai təhlükəsizlik naziri Lıonq Tam Kuanq mübadilə etdilər.

"Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə Vyetnam Sosialist Respublikası Prezidentinin Ofisi arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev və Vyetnam Sosialist Respublikası Prezidenti Ofisinin rəhbərinin müavini Nguyen Hoanq Anh mübadilə etdilər.

"Azərbaycan Respublikasında günəş-elektrik stansiyası layihəsinin və külək-elektrik stansiyası layihəsinin qiymətləndirilməsinə, inkişafına və həyata keçirilməsinə dair Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "ROX Group" arasında İcra Müqaviləsi"ni Azərbaycanın energetika naziri Pərviz Şahbazov və "ROX Group"un təsisçisi və sədri Tran Anh Tuan mübadilə etdilər.

Hanoyda Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə rəsmi nahar verilib







Noyabrın 21-də Hanoyda Vyetnam Sosialist Respublikasının Prezidenti To Lamın və xanımı No Fon Linin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə rəsmi nahar verilib.

AZƏRTAC xəbər verir ki, prezidentlər tədbirdə çıxış ediblər.

Əvvəlcə Vyetnam Prezidenti çıxış etdi.

Ardı 4-cü səh.

◆ Prezident İlham Əliyevin Vyetnama rəsmi səfəri

Azərbaycan Vyetnamın regionda mühüm strateji tərəfdaşıdır

Hanoyda Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə rəsmi nahar verilib

Əvvəli 3-cü səh.

Prezident To Lamın çıxışı

- Zati-aliləri Prezident İlham Əliyev və birinci xanım!

Hörmətli qonaqlar!

Bir daha Sizə, cənab Prezident, birinci xanıma və Azərbaycan Respublikasının yüksəksəviyyəli nümayəndə heyətinə Vyetnama rəsmi səfəriniz münasibətilə ən səmimi salamlarımı çatdırmaq istəyirəm. Siz "Odlar Yurdu"ndan minilliklər boyu mədəniyyət tarixi olan paytaxt şəhər Hanoya özünüzlə səmimi sevginizi gətirmisiniz. Vyetnamı və Azərbaycanı minlərlə kilometr ayırır. Hər iki ölkənin özünəməxsus coğrafi və mədəni xüsusiyyətləri var. Ölkələrdən biri Şərq dənizinin, digəri isə Xəzər dənizinin sahilində yerləşir. Azərbaycan həm Avropanın, həm də Asiyanın bənzərsiz mahiyyətini və mədəni irsini daşıyan inci hesab olunur. Ölkəniz ecazkar Qafqaz dağlarını, geniş Xəzər dənizini, yüz illərlə tarixi olan qala və sarayların müasir memarlıq tikililəri ilə birlikdə harmoniya içində mövcud olduğu qədim, lakin müasir paytaxt şəhəri Bakını yada salır. Bundan da heyrətamizi xalqlarımızı birləşdirən oxşar mənəvi, duyğusal və mədəni dəyərlərdir. Bunlara ana vətənimizə sevgi, milli qürur və məğlubedilməz iradə daxildir. Hər iki xalq sarsılmaz olmaqla yanaşı, mehriban, qonaqpərvər və sadiqdir. Ölkənin qonaqlarını ürəkdən və səmimiyyətlə salamlayan Azərbaycanın zəngin mədəni xalçaları şəxsən məni çox təsirləndirmişdir. Xüsusilə Sizin, birinci xanımın və Azərbaycan xalqının bizə göstərdiyi çox səmimi qəbulu nəzərə alaraq, ötən yay Azərbaycana səfərimdən məndə və Vyetnam nümayəndə heyətinin üzvlərində unudulmaz xatirələr qalıb.

Hörmətli qonaqlar, ölkənizin ənənəvi dostu olaraq Vyetnam Azərbaycanın sosial-iqtisadi inkişafın sürətləndirilməsində və beynəlxalq aləmdə nüfuzunun artırılmasında nümayiş etdirdiyi cəsarət və yaradıcılıq sayəsində qazandığı böyük nailiyyətləri qeyd etməkdən həmişə fərəhlənib. Tamamilə əminəm ki, Sizin mükəmməl rəhbərliyinizlə Azərbaycan hətta bundan da böyük inkişafa nail olacaq, regionda və dünyada sülh, sabitlik amallarına dəyərli töhfəsini verəcək. Azərbaycan xalqının Vyetnama milli azadlıq mübarizəsində, yenidən birləşməsində və formalaşmasında verdiyi böyük və qiymətli dəstəyi heç vaxt unutmamalıyıq. Bir çox vyetnamlı üçün Azərbaycan indi onların ikinci evinə çevrilib. Minlərlə vyetnamlı tələbə Azərbaycandakı auditoriyalarda yetişib, orada əldə olunan biliklərı ata yurdunda tətbiq edib, müəllimlərinə və dostlarına səmimi hisslər keçirib. Bu bağlılıq məşhur bəstəkar Qara Qarayevin bəstələdiyi "Vyetnam süitası" əsərində və müharibələrin tüğyan etdiyi bir dövrdə işinə sevgisinin onu Vyetnama aparan, xalqımızın ilk film məktəbinin və inqilabi kinoda yer alan aktyorların qızıl nəslinin təməlini qoyan istedadlı rejissor Əjdər İbrahimovun işində öz əksini tapıb.







Cənab Prezident, möhtərəm qonaqlar. Bizim uzunmüddətli ənənəvi dostluq münasibətlərimiz var. 1959-cu ildə Prezident Ho Şi Minin Azərbaycana, 1983-cü ildə isə Ümummilli Lider Heydər Əliyevin Vyetnama səfərləri xalqlarımız arasındakı əlaqələrdə mühüm mərhələlər olub. Xüsusilə qeyd etmək lazımdır ki, Vyetnam ilə Azərbaycan arasında neft-qaz sahəsində əməkdaşlıq iki ölkənin beynəlxalq həmrəyliyinin və dəstəyinin nümunəvi göstəricisidir. Azərbaycan çətin dövrlərdə neft-qaz sektorunun təməlinin qoyulmasında Vyetnama dəstək göstərib. Sonradan bu sahə inkişaf edərək strateji sütuna çevrilib, Vyetnamın sənayeləşməsi, modernləşməsi və beynəlxalq inteqrasiyası proseslərinə mühüm töhfə verib.

Nəsillər boyu liderlərimizin və xalqlarımızın yaratdıqları səmimi əlaqələr, göstərdikləri əzmkar səylər sayəsində 2025-ci ilin mayında strateji tərəfdaşlığın qurulması ilə ikitərəfli əməkdaşlıq tariximiz yeni mərhələyə qədəm qoydu. Bizim borcumuz iki ölkə arasında mövcud olan etimadı və sevgini daha da möhkəmləndirmək, ikitərəfli münasibətlərimizdəki hər bir inkişafın xalqlarımıza əhəmiyyətli fayda gətirməsini təmin etməkdir.

Əziz dostlar, bu səhər Prezident Əliyevlə mən açıq və mühüm ikitərəfli danışıqlar, Vyetnam-Azərbaycan strateji tərəfdaşlığının gələcəkdə daha da möhkəmləndirilməsi imkanları və yolları ilə bağlı fikir mübadiləsi apardıq və razılığa gəldik. Mən qəti şəkildə inanıram ki, qarşılıqlı əzmkarlığımız və səylərimiz sayəsində iki ölkə arasındakı coğrafi məsafə yeni əməkdaşlıq layihələri və nailiyyətlər, həmçinin gənclərimiz arasında mövcud olan və əcdadlarımızdan bizə miras qalan dəyərli dostluq bağları ilə aradan qaldırılacaq.

Tələtümlü dünyada Vyetnam regionda və beynəlxalq aləmdə sülhə, sabitliyə, əməkdaşlığa və inkişafa töhfə vermək, bununla da hər iki xalqın öz gələcəyini inamla qurması üçün zəmin yaratmaq məqsədilə Azərbaycanla birlikdə çalışmaq istəyir.

Cənab Prezident, ölkələrimiz arasında nəsillər boyu formalaşmış səmimi münasibətləri nəzərə alaraq Sizin Vyetnama səfəriniz şübhəsiz ki, Vyetnam-Azərbaycan əlaqələrinin növbəti inkişaf mərhələsinə yeni təkan verəcək.

❖ ❖ ❖

Sonra Azərbaycan Prezidenti çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

- Hörmətli cənab Prezident, hörmətli birinci xanım!

Xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə, məni Vyetnama rəsmi səfərə dəvət etdiyinizə, eləcə də səfər zamanı mənə və nümayəndə heyətinə göstərdiyiniz yüksək qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm. Gözəl ölkənizə yenidən səfər etməyə şadam.

Gələn il biz Azərbaycanla Vyetnam arasında diplomatik əlaqələrin qurulmasının 35-ci ildönümünü qeyd edəcəyik. Lakin xalqlarımız arasında mövcud olan dostluq əlaqələrinin tarixi daha qədimdir. Azərbaycan-Vyetnam dostluq və əməkdaşlıq əlaqələrinin, xoş ənənələrinin əsası ötən əsrdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və Vyetnam xalqının böyük oğlu Prezident Ho Şi Min tərəfindən qoyulmuşdur. Bu tarixi irsin bu gün də qorunaraq yaşadılması və davam etdirilməsi böyük məmnunluq doğurur.

Vyetnam bizim üçün dost ölkə və strateji tərəfdaşdır. Keçən il hörmətli Prezident cənab To Lamın ölkəmizə dövlət səfəri zamanı qəbul edilən "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat" ikitərəfli əlaqələrimizi keyfiyyətcə yeni pilləyə qaldırdı.

Vyetnama səfərimin nəticələrindən çox məmnunam. Biz səmərəli görüşlər keçirərək ikitərəfli əlaqələrimizin geniş spektrinə və əməkdaşlığımızın perspektivlərinə dair faydalı fikir mübadiləsi apardıq, vacib sənədlər imzalandı. Azərbaycanla Vyetnam arasında yüksəksəviyyəli siyasi dialoq və qarşılıqlı anlaşma siyasi, iqtisadi-ticari, enerji, müdafiə, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün əlverişli şərait yaradır. İnanıram ki, birgə səylərimizlə strateji tərəfdaşlığımızın daha da güclənməsinə nail olacağıq.

Azərbaycanla Vyetnam beynəlxalq strukturlar çərçivəsində də fəal əməkdaşlıq edirlər. BMT, Qoşulmama Hərəkatı, AQEM çərçivəsində qarşılıqlı etimada və dəstəyə əsaslanan konstruktiv əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim. Vyetnamın hər zaman, xüsusilə də 2020-ci ilin Vətən müharibəsi dövründə verdiyi dəstəyinə və ədalətli mövqeyinə görə minnətdarıq.

Ölkələrimizin mədəni və humanitar əlaqələrinin də zəngin tarixi mövcuddur. Hələ 1955-ci ildə görkəmli Azərbaycan bəstəkarı Qara Qarayev "Vyetnam süitası"nı bəstələmiş, Vyetnam Prezidenti Ho Şi Minin dəvəti ilə azərbaycanlı kinorejissor, ssenarist və yazıçı Əjdər İbrahimov bir müddət Vyetnamda çalışaraq burada ilk milli kino məktəbinin yaradılmasında iştirak etmişdir. Eyni zamanda sovet dövründə 5 minə yaxın vyetnamlı tələbə Azərbaycanda təhsil alaraq, daha sonra vətənlərinin rifahına töhfə verən peşəkar mütəxəssislərə çevrilmişdir.

❖ ❖ ❖

Sonda prezidentlər Azərbaycan-Vyetnam əlaqələrinin daha da inkişaf etdirilməsinin önəmini vurğuladılar.

Azərbaycanın və Vyetnamın birinci xanımları Hanoyda İrs Evində olublar

Noyabrın 21-də Hanoyda Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Vyetnamın birinci xanımı No Fon Li ilə Hanoydakı İrs Evində görüşü olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya, qızları Leyla Əliyevaya və Arzu Əliyevaya Hanoyun Köhnə Məhəlləsindəki (Old Quarter) XIX əsrdə tikilmiş, orijinal yaşayış memarlığını və tacir həyat tərzini əks etdirən İrs Evində Vyetnam irsinə aid əl işləri haqqında məlumat verildi.

Azərbaycanın birinci xanımı və qızları Vyetnam çay təqdimetmə mərasiminə baxdılar.

Sonra tarixi XI əsrə gedib çıxan və UNESCO-nun Qeyri-maddi Mədəni İrs siyahısına daxil edilmiş ənənəvi ifa sənəti (Ca Tru) nümayiş etdirildi. Bu, qadın ifaçının poetik ifası ilə üçsimli musiqi alətinin və barabanın müşayiətini özündə birləşdirir.

Daha sonra Vyetnamın rəmzi milli geyimi (Ao Dai) nümayiş olundu. Ənənəvi ipək parçalardan hazırlanmış, naxış və işləmələrlə bəzədilmiş milli geyimlər Vyetnamın müxtəlif dövrlərini əhatə edir.

Sonda Azərbaycanın birinci xanımına Vyetnam kalliqrafiya sənəti nümunəsi təqdim olundu.













◆ Prezident İlham Əliyevin Vyetnama rəsmi səfəri

Azərbaycan Vyetnamın regionda mühüm strateji tərəfdaşıdır

Hanoy Ticarət və Turizm Kollecində Bakı guşəsi və Azərbaycan kulinariya zonası açılıb

Noyabrın 21-də Hanoy Ticarət və Turizm Kollecində Bakı guşəsi və Azərbaycan kulinariya zonası açılıb. Layihə kollecin azərbaycanlı tərəfdaşları ilə davamlı və məqsədyönlü əməkdaşlıq çərçivəsində ərsəyə gəlib.



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva açılışda iştirak edib.

Bakı guşəsində Şirvanşahlar sarayının təsvirləri, Qız qalasının maketi, İçərişəhərin, Heydər Əliyev Mərkəzinin, "Alov Qüllələri"nin, Bakı buxtasının təsvirləri yer alıb. Kulinariya zonası isə Azərbaycan mətbəxinin təbliğinə xidmət edəcək. Burada kollecin tələbələri üçün Azərbaycan mətbəxinə dair təlimlər də təşkil olunacaq.











Tədbirdə çıxış edən kollecin rektoru Trin Tri Tu Ha bildirib ki, xalqlarımız arasında dostluğun təməli Vyetnam Prezidenti Ho Şi Minin Bakıya, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin isə Vyetnama səfərləri ilə qoyulub. Müstəqillik dövründə iki ölkə arasında əlaqələr bütün sahələrdə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Qeyd olunub ki, Hanoy Ticarət və Turizm Kolleci öz növbəsində xalqlararası dostluğa töhfə vermək üçün müxtəlif layihələr həyata keçirir.

Rektor ötən ilin aprelində Leyla Əliyevanın kollecin kollektivi və vaxtilə Azərbaycanda təhsil alan vyetnamlılar ilə görüşünü, Heydər Əliyev Fondunun bu təhsil ocağına dəstəyini məmnunluqla xatırladıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Azərbaycan mədəniyyətinə göstərilən diqqətə görə kollecin rəhbərliyinə minnətdarlığını bildirib. O, təhsil ocağında Bakı guşəsinin və Azərbaycan kulinariya zonasının açılmasının kollecin tələbələri və Hanoy sakinlərinin Azərbaycanı daha yaxından tanımasına töhfələr verəcəyinə əminliyini ifadə edib. Leyla Əliyeva belə bir tədbirin Azərbaycan Prezidentinin Vyetnama rəsmi səfəri günlərində keçirildiyinin xüsusi rəmzi məna daşıdığını deyib. Heydər Əliyev Fondunun təhsil və sosialyönümlü layihələrinin Vyetnamı da əhatə etdiyi diqqətə çatdırılıb.

Tədbirdə incəsənət ustaları Azərbaycan-Vyetnam dostluğuna həsr olunan mahnılar, Vyetnam dilində "Arşın mal alan" musiqili komediyasından parçalar və yeni bəstələnmiş "Azərbaycan-Vyetnam" mahnısını ifa ediblər.

Dostluğa əsaslanan Azərbaycan- İtaliya əlaqələri uğurla inkişaf edir

Prezident İlham Əliyev İtaliya Nazirlər Şurası Sədrinin müavinini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də İtaliya Respublikasının Nazirlər Şurası Sədrinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayanini qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında birgə bəyannaməyə toxunaraq, Azərbaycanla İtaliyanın yaxşı tərəfdaşlıq qurduqlarını, dostluğa əsaslanan əlaqələrimizin uğurla inkişaf etdiyini dedi.

Prezident İlham Əliyev bu il İtaliya Respublikası Nazirlər Şurasının Sədri Ciorcia Meloninin ölkəmizə uğurlu səfərini xatırladaraq, səfər çərçivəsində onunla siyasi sahədə qarşılıqlı fəaliyyət, iqtisadiyyat, ticarət və ikitərəfli gündəlikdə duran digər məsələlərlə bağlı yaxşı müzakirələrin aparıldığını bildirdi.

Dövlətimizin başçısı İtaliya Prezidenti Sercio Mattarellanın ölkəmizə, özünün isə İtaliyaya səfərlərinə toxunaraq vurğuladı ki, bütün bunlar əlaqələrimizin inkişafına mühüm töhfə verir.

Yüksək səviyyədə olan əlaqələrimizin iqtisadi fəaliyyətimizə də müsbət təsir göstərdiyini deyən Azərbaycan Prezidenti bu sahədə əməkdaşlığımızın genişlənməsindən məmnunluğunu ifadə etdi, irimiqyaslı sərmayələrin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev qeyd etdi ki, İtaliya enerji sahəsində Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Dövlətimizin başçısı ölkəmizin İtaliyanın enerji bazarına daxil olduğunu, orada neft emalı müəssisələri və yanacaqdoldurma məntəqələri əldə etdiyini dedi.

Prezident İlham Əliyev Azərbaycanda müxtəlif sahələrdə uğurla fəaliyyət göstərən italyan şirkətlərinin sayının artmasını da məmnunluqla qeyd etdi.

Azərbaycan Prezidenti əlaqələrimizin, həmçinin təhsil sahəsini də əhatə etdiyini dedi, bu xüsusda ötən il İtaliya dövlətinin başçısının iştirakı ilə Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışını xatırladı.

Prezident İlham Əliyev Antonio Tayaninin səfərinin uğurlu olacağına və strateji münasibətlərimizi daha da gücləndirəcəyinə ümidvarlığını ifadə etdi.

İtaliya Nazirlər Şurası Sədrinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Azərbaycanda və İtaliyada fəaliyyət göstərən hər iki ölkədən olan şirkətlərin sayının artırılmasında maraqlı olduqlarını bildirdi.

Antonio Tayani Azərbaycanın İtaliya üçün regional sabitlik baxımından çox əhəmiyyətli ölkə olduğunu dedi, İtaliyanın Azərbaycan-Avropa İttifaqı və Azərbaycan-NATO münasibətlərinin inkişafına töhfə verməyə hazır olduğunu qeyd etdi.

Qonaq bir müddət əvvəl İranda baş vermiş hadisələr zamanı İtaliyanın bu ölkədəki səfirliyinin Bakıda fəaliyyət göstərməsi üçün yaradılmış şəraitə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı biznes sahəsində əməkdaşlığın potensialına toxunuldu, bu ilin oktyabrında Romada imzalanmış kritik xammal sahəsində strateji əməkdaşlığa dair Birgə Bəyannamənin önəmi qeyd edildi.

İqtisadi-ticari, enerji, müdafiə, kənd təsərrüfatı, sənaye, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə Azərbaycanın nəqliyyat bağlantıları baxımından strateji rolunun artdığı vurğulandı, bölgədə gedən proseslərə, o cümlədən Azərbaycan-Ermənistan normallaşma prosesinə və TRIPP layihəsinə toxunuldu.

2026-cı il Azərbaycan-ABŞ əlaqələri üçün tarixi əhəmiyyət kəsb edir

Prezident İlham Əliyev ABŞ-nin daxili təhlükəsizlik nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də ABŞ-nin daxili təhlükəsizlik naziri Markveyn Mullini qəbul edib.



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu ilin yanvarında Markveyn Mullinin ABŞ Senatının Silahlı Qüvvələr Komitəsinin üzvü, Oklahomadan respublikaçı senator kimi ölkəmizə səfərini və onunla görüşünü məmnunluqla xatırladı, yeni vəzifəsi ilə bağlı qonağı təbrik etdi.

Dövlətimizin başçısı 2026-cı ilin Azərbaycan-ABŞ əlaqələri üçün tarixi əhəmiyyət kəsb etdiyini dedi. Prezident İlham Əliyev bu xüsusda ABŞ-nin vitse-prezidenti Cey. Di. Vensin ölkəmizə səfəri və bu çərçivədə "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasının münasibətlərimizin genişlənməsinə mühüm töhfə verdiyini qeyd etdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin ən yüksək səviyyəyə qalxmasında və regionda sülhün təmin edilməsində Prezident Donald Trampın səylərini yüksək qiymətləndirdi, ölkəmizin də ABŞ ilə əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu dedi.

2025-ci ilin avqustunda keçirilən Vaşinqton Sammitini xatırladan Prezident İlham Əliyev artıq regionda yeni vəziyyətin yarandığını, bir ildən çox müddətdir ki, sülh şəraitində yaşadığımızı bildirdi.

ABŞ-nin daxili təhlükəsizlik naziri Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə bağlı əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı və bu xüsusda Prezident Donald Trampın rolunu qeyd etdi.

Markveyn Mullin TRIPP layihəsinin əhəmiyyətinə toxunaraq, bu dəhlizin tam şəkildə işə düşməsinin Azərbaycanla Ermənistan, eyni zamanda regionlar arasında bağlantıların və iqtisadi-ticari əlaqələrin inkişafına töhfə verəcəyini vurğuladı.

Söhbət zamanı Azərbaycan-ABŞ əlaqələrinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı, müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin əməkdaşlıq imkanlarını müzakirə etmək üçün yaxşı fürsət yaratdığı qeyd olundu.

Səfər başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasına rəsmi səfəri noyabrın 21-də başa çatıb.



AZƏRTAC xəbər verir ki, Hanoyun Noi Bai Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Vyetnam Sosialist Respublikasının Elm və Texnologiyalar Akademiyasının prezidenti Tran Honq Thai və digər rəsmi şəxslər yola saldılar.

"Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 dekabr tarixli 572 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 dekabr tarixli 572 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 16 oktyabr tarixli 469 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 10, maddə 848 (Cild I) ilə təsdiq edilmiş "Müsadirə edilmiş əmlakın bir hissəsinin hüquq mühafizə və digər orqanların maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilməsi Qaydaları"nın 2.1.2-ci, 3.1.2-ci və 3.2.2-ci yarımbəndlərində "Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı" sözləri "Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 962 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1058 (Cild I); 2024, № 11, maddə 1198, № 12 (II kitab), maddə 1359; 2025, № 8, maddə 751) ilə təsdiq edilmiş "Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu haqqında Əsasnamə"nin 3.1-ci bəndində "Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı" sözləri "Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1597 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1644 (Cild I); 2025, № 8, maddə 761) ilə təsdiq edilmiş "Sosial sığorta ehtiyatından istifadə Qaydası"nın 3.4-cü bəndində "Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı" sözləri "Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 29 iyul tarixli 2258 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 983 (Cild I); 2024, №7, maddə 815) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinin ödənişli parklanmasından daxil olan vəsaitdən istifadə Qaydası"nın 1.2-ci bəndində "Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı" sözləri "Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 noyabr 2026-cı il

"Banklar haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 15-ci və 26-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130 (Cild I); 2024, № 2, maddə 138; 2025, № 1, maddə 1, № 4 (I kitab), maddə 318, № 5, maddə 432; 2026, № 2, maddə 111, № 6, maddə 488) 41.2.18-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 41.2.19-cu maddə əlavə edilsin:

"41.2.19. "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sekyuritizasiya zamanı - sekyuritizasiya şirkətinə.".

Maddə 2. "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 813 (Cild I); 2025, № 4 (I kitab), maddə 318, № 5, maddə 432, № 7, maddə 613; 2026, № 7 (I kitab), maddələr 619, 620) aşağıdakı dəyişikliklər edilsin:

2.1.1.0.31-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.0.32 - 1.0.35-ci maddələr əlavə edilsin:

"1.0.32. **sekyuritizasiya**-bu Qanunun 74-5.1-ci maddəsində göstərilən aktivlərin sekyuritizasiya şirkəti tərəfindən aktivlərin satıcısından geri almaq tələbi olmadan (bu Qanunun 74-9.5-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla) satın alınması və həmin aktivlər əsasında sekyuritizasiya istiqrazlarının emissiya edilməsi prosesi;

1.0.33. **sekyuritizasiya planı**-hər bir sekyuritizasiya prosesi ilə bağlı məlumatları əhatə edən və bu Qanunun 74-10-cu maddəsinə uyğun olaraq tərtib və təsdiq edilmiş plan;

1.0.34. **sekyuritizasiya istiqrazı**-sekyuritizasiya şirkəti tərəfindən buraxılan və istiqraz üzrə ödənişləri sekyuritizasiya planına uyğun olaraq aktivlərdən daxil olan pul vəsaitlərinin hesabına ödənilən istiqraz;

1.0.35. **aktivlərin satıcısı**-sekyuritizasiya planına uyğun olaraq sekyuritizasiyanın predmeti olan aktivləri sekyuritizasiya şirkətinə satan hüquqi şəxs.";

2.2.61.14-cü maddənin ikinci cümləsinə "şəxslərin" sözündən sonra ", habelə aktivlərin satıcısının" sözləri əlavə edilsin;

2.3. aşağıdakı məzmunda 8-2-ci fəsil əlavə edilsin:

"8-2-ci fəsil
Sekyuritizasiya

Maddə 74-5. **Sekyuritizasiyanın predmeti**

74-5.1. Sekyuritizasiyanın predmeti qismində kredit, maliyyə icarəsi və ya faktorinq müqavilələri, həmçinin fond birjasında listinqdə olmayan korporativ istiqrazlar üzrə yaranan pul tələbləri çıxış edir. Mərkəzi Bank sekyuritizasiyanın predmeti qismində çıxış edə bilən digər pul tələblərini müəyyən etmək hüququna malikdir.

74-5.2. Normativ hüquqi aktlarla müəyyən edilən hallarda sahibkarlıq subyektlərinə verilmiş güzəştli kreditlər, investisiya qiymətli kağızları (fond birjasında listinqdə olmayan korporativ istiqrazlar istisna olmaqla), iflas prosesində olan şəxslərə verilmiş borclar, dövri ödənişlər nəzərdə tutulmayan debitor borclar, həmçinin üçüncü şəxslər qarşısında yüklü olan aktivlər sekyuritizasiyanın predmeti ola bilməz.

74-5.3. Sekyuritizasiyanın predmeti olan aktivlər bu Qanunun 74-8-ci maddəsində nəzərdə tutulan reyestrə daxil edildiyi andan sekyuritizasiya istiqrazı mülkiyyətçilərinin xeyrinə qanun üzrə girov qoyulmuş hesab olunur. Sekyuritizasiyanın predmeti olan aktivlər digər şəxslərin xeyrinə yüklü edilə, həmin aktivlər üzərinə sekyuritizasiya istiqrazı mülkiyyətçilərindən başqa, digər kreditorların tələblərinin ödənilməsi üçün həbs qoyula və həmin aktivlər üzrə tələb yönəldilə bilməz.

74-5.4. Sekyuritizasiya predmetinin bu Qanunun tələblərinə uyğunluğu sekyuritizasiya planının təsdiqi zamanı bu Qanunun 61.14-cü maddəsi ilə müəyyən edilmiş tələblərə cavab verən kənar auditor tərəfindən, sekyuritizasiya planının qüvvədə olduğu müddətdə isə xidmət agenti tərəfindən yoxlanılır.

74-5.5. Bu Qanunun 8-2-ci fəslinin tələbləri Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilən ipoteka istiqrazlarının emissiyasına şamil edilmir.

74-5.6. Sekyuritizasiya istiqrazları bu Qanunun 74-12.1-civə 74-12.2-ci maddələri nəzərə alınmaqla, yalnız institusional investorlar tərəfindən əldə edilə bilər.

74-5.7. Sekyuritizasiya predmetinə dair digər tələblər Mərkəzi Bank tərəfindən müəyyən edilir.

Maddə 74-6. **Sekyuritizasiya şirkəti**

74-6.1.Sekyuritizasiya şirkəti fəaliyyətinin müstəsna predmeti bu Qanuna uyğun olaraq, sekyuritizasiya fəaliyyətinin həyata keçirilməsi olan kommersiya hüquqi şəxsdir. Azərbaycan Respublikasında sekyuritizasiya fəaliyyətini həyata keçirmək hüququna yalnız bu Qanunun 74-10-cu maddəsinə əsasən sekyuritizasiya planı təsdiq olunmuş hüquqi şəxslər malikdirlər.

74-6.2. Sekyuritizasiya şirkətinin adında "sekyuritizasiya şirkəti" sözləri olmalıdır.

74-6.3. Siyahısı bu Qanunun 62.3-cü maddəsinə uyğun olaraq müəyyən edilən ofşor zonalarda qeydiyyata alınmış şəxslər və ya təsisçiləri, mühüm iştirak payının sahibləri və benefisiar mülkiyyətçiləri, belə zonalarda qeydiyyata alınmış şəxslər sekyuritizasiya şirkətinin paylarına birbaşa və ya dolayı yolla sahib ola bilməzlər. Sekyuritizasiya şirkətinə edilən ödənişlər həmin şirkətin bank hesabı vasitəsilə həyata keçirilir.

74-6.4. Sekyuritizasiya şirkətinin emissiya etdiyi sekyuritizasiya istiqrazlarını geri almaq hüququ yoxdur.

Maddə 74-7. **Xidmət agenti**

74-7.1. Xidmət agenti sekyuritizasiya şirkəti ilə bağlanmış müqaviləyə əsasən bu Qanunun 74-7.3-cü maddəsində nəzərdə tutulan vəzifələri həyata keçirir. Xidmət agenti qismində aktivlərin satıcısı, habelə kredit, maliyyə icarəsi və ya faktorinq təşkilatı ola bilər. Xidmət agenti sekyuritizasiya şirkətinə aidiyyəti şəxs ola bilməz.

74-7.2. Xidmət agenti sekyuritizasiya planında müəyyənləşdirilir.

74-7.3. Xidmət agenti aşağıdakı vəzifələri həyata keçirir:

74-7.3.1. sekyuritizasiya predmetinin bu Qanunun tələblərinə uyğunluğunun yoxlanılması;

74-7.3.2. pul tələbləri üzrə əsas məbləğlərin və digər ödənişlərin borclulardan tələb edilməsi, pul tələblərinin təminat hesabına ödənilməsi üçün tədbirlərin görülməsi və sekyuritizasiya şirkətinin hesabına ödənilən vəsaitlərin uçotunun aparılması;

74-7.3.3. aktivlərdən daxil olan pul vəsaitlərinin sekyuritizasiya planına uyğun bölüşdürülməsi və sekyuritizasiya istiqrazı mülkiyyətçilərinə ödənişlərin həyata keçirilməsi;

74-7.3.4.bu Qanunun 74-8-ci maddəsinə əsasən aparılan sekyuritizasiya istiqrazları üzrə sekyuritizasiya predmeti olan aktivlərin reyestrinə nəzarətin həyata keçirilməsi, aktivlərin reyestrdən çıxarılması və ya başqa aktivlə əvəz edilməsinə dair müraciətlərə baxılması.

74-7.4. Xidmət agenti sekyuritizasiya predmetində aşkar etdiyi, lakin aktivlərin satıcısı tərəfindən bu Qanunun 74-9.5-ci maddəsində nəzərdə tutulmuş qaydada aradan qaldırılmamış pozuntular barədə bildirişi pozuntuların aradan qaldırılması üçün müəyyən edilmiş müddətin bitməsindən 5 (beş) iş günündən gec olmayaraq Mərkəzi Banka təqdim etməli və mediada açıqlamalıdır. Mərkəzi Bank bildirişi aldığı gündən 3 (üç) iş günü müddətində onu öz internet informasiya ehtiyatında yerləşdirir.

74-7.5. Xidmət agenti bu Qanunla xidmət agentinə dair müəyyən edilmiş tələblərə cavab vermədikdə, vəzifələrinin icrası zamanı pozuntulara yol verdikdə, ona verilmiş lisenziya (olduqda) ləğv edildikdə, müflis elan edildikdə və ya ləğv edildikdə sekyuritizasiya şirkəti yeni xidmət agentinin müəyyən edilməsi ilə bağlı sekyuritizasiya planına müvafiq dəyişikliklər edərək 10 (on) iş günü müddətində razılaşdırılması üçün Mərkəzi Banka təqdim edir.

74-7.6. Bu Qanunun 74-7.5-ci maddəsində qeyd edilmiş dəyişiklik üzrə müraciətə Mərkəzi Bank tərəfindən 10 (on) iş günü müddətində baxılır və bu Qanunun 74-10.6-cı maddəsində müəyyən edilən hallar aşkarlanmadıqda sekyuritizasiya planına dəyişiklik təsdiq edilir və ya 74-10.6-cı maddəsində müəyyən edilən hallarda dəyişiklikdən imtina edilir.

74-7.7. Xidmət agentinin fəaliyyətinə dair əlavə tələblər Mərkəzi Bank tərəfindən müəyyən olunur.

Maddə 74-8. **Sekyuritizasiyanın predmeti olan aktivlərin reyestri**

74-8.1. Sekyuritizasiya şirkəti sekyuritizasiya istiqrazlarının buraxılışı haqqında qərar qəbul etdikdə həmin istiqrazlar üzrə sekyuritizasiya predmeti olan aktivlərin kağız və ya elektron formada reyestrini xidmət agentinin nəzarəti altında yaratmalı və aparmalıdır. Aktivlərin reyestrinə daxil edilməli məlumatların dairəsi Mərkəzi Bank tərəfindən müəyyən olunur.

74-8.2. Sekyuritizasiya predmeti olan aktivlərin reyestri sekyuritizasiya istiqrazlarının buraxılışının dövlət qeydiyyatına alınması barədə müraciətlə birlikdə, reyestrdə edilmiş dəyişikliklər isə müvafiq dəyişiklik edildikdən sonra 5 (beş) iş günü müddətində Mərkəzi Banka təqdim edilməlidir.

74-8.3. Sekyuritizasiya predmeti olan aktivlər yalnız xidmət agentinin razılığı ilə reyestrdən çıxarıla və ya başqa aktivlə əvəz edilə bilər. Xidmət agenti sekyuritizasiya şirkətinin bu barədə müraciətinə 5 (beş) iş günü müddətində baxmalı və nəticəsini yazılı formada bildirməlidir.

Maddə 74-9. **Aktivlərin sekyuritizasiya şirkətinə satışı**

74-9.1. Sekyuritizasiyanın predmeti olan aktivlərin sekyuritizasiya şirkətinə satışı aktivlərin satıcısı ilə sekyuritizasiya şirkəti arasında tələbin güzəşti qaydasında bağlanmış alqı-satqı müqaviləsi ilə həyata keçirilir. Aktivlərin sekyuritizasiya şirkətinə satılması prosesinə dair tələblər Mərkəzi Bank tərəfindən müəyyən edilir.

74-9.2. Aktivlərin satıcısı sekyuritizasiya şirkəti ilə alqı-satqı müqaviləsi imzaladığı zaman başa çatmış son maliyyə ili üzrə audit yoxlamasından keçmiş (mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla) maliyyə hesabatına malik olmalıdır.

74-9.3. Sekyuritizasiya şirkəti tərəfindən alınmış aktivlərin dəyəri sekyuritizasiya istiqrazlarının yerləşdirilməsi nəticəsində əldə edilmiş vəsaitlər hesabına ödənilir.

74-9.4. Sekyuritizasiya şirkəti tərəfindən sekyuritizasiya istiqrazlarının yerləşdirilməsi başa çatdıqdan 30 (otuz) gün müddətində bu Qanunun 74-9.1-ci maddəsində qeyd edilən alqı-satqı müqaviləsində nəzərdə tutulmuş satış məbləği aktivlərin satıcısına ödənilir. Sekyuritizasiya istiqrazlarının yerləşdirilməsi baş tutmadıqda alqı-satqı müqaviləsinə xitam verilir və aktivlər üzrə mülkiyyət hüququ aktivlərin satıcısına keçir.

74-9.5. Bu Qanunun 74-5-ci maddəsi ilə müəyyən edilmiş tələbin pozulması faktı aşkar edildikdə pozuntunun aşkarlandığı tarixdən 10 (on) təqvim günü müddətində aktivlərin satıcısı bu Qanunun 74-5-ci maddəsinin tələblərinə uyğun olmayan aktivləri müvafiq tələblərə uyğun aktivlərlə əvəz etməli, bu mümkün olmadıqda isə geri almalıdır.

74-9.6. Sekyuritizasiya şirkəti ilə aktivlərin satıcısı arasında alqı-satqı müqaviləsi bu Qanunun 74-10-cu maddəsinə uyğun olaraq sekyuritizasiya planının təsdiq edildiyi andan qüvvəyə minir və həmin müqavilə ilə ötürülən aktivlər üzrə mülkiyyət hüququ sekyuritizasiya şirkətinə alqı-satqı müqaviləsinin qüvvəyə mindiyi andan keçir.

74-9.7. Alqı-satqı müqaviləsi qüvvəyə mindikdən sonra 5 (beş) iş günü müddətində aktivlərin satıcısı tərəfindən borclulara bu barədə yazılı məlumat təqdim edilir.

74-9.8. Xidmət agenti qismində aktivlərin satıcısı çıxış etdikdə aktivlərin satışı barədə borclulara yazılı məlumatın təqdim edilməsi tələb olunmur.

74-9.9. Sekyuritizasiya şirkəti və xidmət agenti öz fəaliyyətində dövlət, kommersiya, vergi, bank sirri, habelə qanunla qorunan digər məlumatların məxfilik rejiminə riayət edir.

Maddə 74-10. **Sekyuritizasiya planı və onun təsdiq edilməsi**

74-10.1. Sekyuritizasiya şirkəti "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alındıqdan sonra sekyuritizasiya planını tərtib edir. Hər bir sekyuritizasiya prosesi Mərkəzi Bank tərəfindən təsdiq edilmiş sekyuritizasiya planı ilə müşayiət olunur. Sekyuritizasiya planına dair tələblər və onun təsdiq edilməsinə dair sənəd və məlumatların dairəsi Mərkəzi Bank tərəfindən müəyyən olunur.

74-10.2. Baza emissiya prospektinin tərtib edildiyi hallar istisna olmaqla, sekyuritizasiya şirkəti tərəfindən emissiya edilən sekyuritizasiya istiqrazlarının tədavül müddəti başa çatmadan həmin şirkət tərəfindən digər sekyuritizasiya istiqrazlarının emissiyasına yol verilmir.

74-10.3. Təsdiq edilmiş sekyuritizasiya planı çərçivəsində sekyuritizasiya istiqrazlarının tədavül müddəti başa çatdıqdan sonra sekyuritizasiya şirkəti bu Qanunun 74-10-cu maddəsinə uyğun olaraq sekyuritizasiya planının təsdiq edilməsi yolu ilə yeni sekyuritizasiya prosesinə başlaya bilər.

74-10.4. Sekyuritizasiya planının təsdiq edilməsi üçün nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar müraciət edəndən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən tərəfindən təmin edilir.

74-10.5. Mərkəzi Bank sekyuritizasiya planının təsdiq edilməsi üçün müraciətə onun təqdim edildiyi tarixdən 20 (iyirmi) iş günü müddətində baxır. Təqdim edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, bu barədə müraciət edənlərə 10 (on) iş günü müddətində bildiriş göndərilir və bu çatışmazlıqların aradan qaldırılması təklif edilir. Bu təklif 10 (on) iş günü müddətində yerinə yetirilməlidir. Təklifin təqdim edilməsi bu maddədə nəzərdə tutulan 20 (iyirmi) iş günü müddətinin axımını dayandırır. Sənədlərin təqdim edilməsindən sonra müddətin axımı bərpa olunur.

74-10.6. Sekyuritizasiya planının təsdiq edilməsi üçün tələb olunan sənədlər tam həcmdə təqdim edilmədikdə və ya onlarda bu Qanunun tələbləri ilə uyğunsuzluqlar aşkar olunduqda, habelə sənədlərdəki çatışmazlıqlar bu Qanunun 74-10.5-cimaddəsinə uyğun qaydada aradan qaldırılmadıqda Mərkəzi Bank sekyuritizasiya planının təsdiq edilməsindən imtina edir.

74-10.7. Mərkəzi Bank sekyuritizasiya planının təsdiq edilməsi üçün müraciətə baxılmasının nəticəsi barədə əsaslandırılmış qərar qəbul edir və həmin qərarı müraciət edənə 2 (iki) iş günü müddətində göndərir. Sekyuritizasiya planının təsdiq edilməsindən imtina edilməsi ilə bağlı Mərkəzi Bankın qərarından normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada məhkəməyə şikayət edilə bilər.

74-10.8. Sekyuritizasiya planının Mərkəzi Bank tərəfindən təsdiq edildiyi tarixdən etibarən 60 (altmış) iş günü müddətində sekyuritizasiya istiqrazlarının buraxılışının dövlət qeydiyyatına alınması barədə müraciət Mərkəzi Banka təqdim olunmalıdır.Sekyuritizasiya istiqrazlarının buraxılışının dövlət qeydiyyatına alınması barədə müraciət bu müddətdə təqdim edilmədikdə sekyuritizasiya planı qüvvədən düşmüş hesab edilir.

74-10.9. Sekyuritizasiya planında qeyd edilən məlumatların dürüstlüyünə şübhə olduqda Mərkəzi Bank sekyuritizasiya şirkətindən əlavə məlumat və sənədlər tələb etmək hüququna malikdir.

Maddə 74-11. **Sekyuritizasiya istiqrazlarının buraxılması**

74-11.1.Sekyuritizasiya istiqrazları bu Qanunun 2-ci fəslinə uyğun olaraq bir buraxılışla və ya baza emissiya prospekti əsasında bir neçə buraxılışla emissiya edilə bilər.

74-11.2.Sekyuritizasiya istiqrazlarının baza emissiya prospekti əsasında bir neçə buraxılışla emissiyası nəzərdə tutulduqda sekyuritizasiya şirkəti baza emissiya prospektində hər buraxılış üzrə sekyuritizasiya istiqrazlarının faiz və əsas məbləğinin ödənilməsi, həmçinin sekyuritizasiya şirkətinin ləğv edilməsi zamanı üstünlük hüquqlarını müəyyən edir.

Maddə 74-12. **Risklərin idarə edilməsi üzrə tələblər**

74-12.1. Aktivlərin satıcısı sekyuritizasiya şirkətinə satdığı aktivlər əsasında sekyuritizasiya istiqrazlarının azı 5 faizini əldə etməli və həmin istiqrazları tədavül müddətinin sonuna qədər saxlamalıdır.

74-12.2. Sekyuritizasiya istiqrazlarının baza emissiya prospekti əsasında bir neçə buraxılışla yerləşdirilməsi nəzərdə tutulduqda aktivlərin satıcısı daha aşağı kredit reytinqinə malik sekyuritizasiya istiqrazlarının, kredit reytinqi olmadıqda isə kredit riski daha yüksək olan sekyuritizasiya istiqrazlarının azı 5 faizini əldə etməli və həmin istiqrazları tədavül müddətinin sonuna qədər saxlamalıdır.

74-12.3. Sekyuritizasiya istiqrazları birdən çox aktiv satıcısına məxsus aktivlər hesabına emissiya edildikdə bu Qanunun 74-12.1-ci və 74-12.2-ci maddələrinin tələbi hər bir aktiv satıcısı tərəfindən sekyuritizasiya şirkətinə ötürülən aktivlərin məbləğinə mütənasib olaraq tətbiq edilir.

74-12.4. Bu Qanunun 74-12.1-ci və 74-12.2-ci maddələrində nəzərdə tutulan həcmdə sekyuritizasiya istiqrazlarının tədavül müddətinin sonuna qədər özgəninkiləşdirilməsi və ya həmin istiqrazlara hər hansı digər formada sərəncam verilməsi qadağan edilir.

74-12.5. Risklərin idarə edilməsinə dair əlavə tələblər Mərkəzi Bankın normativ xarakterli aktları ilə müəyyən edilir.

74-12.6. Sekyuritizasiya istiqrazına tam və qeydşərtsiz dövlət zəmanəti verildikdə və ya Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlar tərəfindən təminat verildikdə risklərin idarə edilməsi üzrə tələblər tətbiq edilmir.

Maddə 74-13. **Hesabat və məlumatların təqdim edilməsinə dair tələblər**

74-13.1. Sekyuritizasiya şirkəti aktivlər üzrə pul tələblərinin qalığı və sekyuritizasiya istiqrazları üzrə ödənişlər barədə rüblük əsasda Mərkəzi Bank tərəfindən müəyyən edilmiş formada və qaydada Mərkəzi Banka və sekyuritizasiya istiqrazının mülkiyyətçilərinə məlumat təqdim edir.";

2.4.83-cü maddə üzrə:

2.4.1. aşağıdakı məzmunda 83.1.4-1-ci maddə əlavə edilsin:

"83.1.4-1.sekyuritizasiya planını təsdiq etmək, sekyuritizasiya şirkətlərinin və xidmət agentinin sekyuritizasiya ilə bağlı fəaliyyətinə nəzarət etmək;";

2.4.2. 83.3-cü maddəyə "şəxslər" sözündən sonra ", sekyuritizasiya şirkəti, xidmət agenti" sözləri, birinci halda "şəxslərin" sözündən sonra ", sekyuritizasiya şirkətinin, xidmət agentinin" sözləri əlavə edilsin;

2.5.86-cı maddə üzrə:

2.5.1. 86.1-ci maddəyə "depozitarın" sözündən sonra ", sekyuritizasiya şirkətinin, xidmət agentinin" sözləri əlavə edilsin;

2.5.2.86.2-ci maddəyə "depozitardan" sözündən sonra ", sekyuritizasiya şirkətindən, xidmət agentindən" sözləri əlavə edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 noyabr 2026-cı il

"Ətraf mühitin mühafizəsi haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 472 (Cild I); 2024, № 3, maddə 250, № 4, maddə 365, № 11, maddə 1181, № 12 (II kitab), maddə 1331; 2025, № 4 (I kitab), maddə 316, № 12 (I kitab), maddə 1129) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 18-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 18. Ətraf mühitin istehsalat monitorinqi

1. Ətraf mühitin istehsalat monitorinqi təsərrüfat fəaliyyətinin təsiri nəticəsində ətraf mühitin vəziyyətində baş verən dəyişikliklərin müşahidəsi və tədqiqatı sistemidir. Təbiətdən istifadəçilər ("Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ətraf mühitə təsirin qiymətləndirilməsi tələb olunan fəaliyyət növləri ilə məşğul olan hüquqi şəxslər) ətraf mühitin istehsalat monitorinqini aparmalıdırlar.

2. "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ətraf mühitin istehsalat monitorinqində istifadə edilən ölçmə vasitələrinin tipi təsdiq edilməli və onlar yoxlamadan keçməlidir.

3. Ətraf mühitin istehsalat monitorinqinin nəticələri barədə illik hesabat müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi formaya uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) növbəti il fevralın 1-dən gec olmayaraq təqdim edilir.";

1.2. 70-ci maddənin ikinci hissəsində, 71-ci maddənin 2.10-cu bəndində, 72-ci maddənin adında və mətnində "müəssisə (istehsalat)" sözləri "istehsalat" sözü ilə əvəz edilsin.

Maddə 2. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1397 (Cild I); Azərbaycan Respublikasının 2026-cı il 13 oktyabr tarixli 489-VIIQD nömrəli Qanunu) 12.1.4-cü maddəsində "və ƏMTQ-nin nəticələri ilə tanış etmək" sözləri ", ƏMTQ-nin nəticələri ilə tanış etmək və ƏMTQ sənədinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet informasiya ehtiyatında yerləşdirilməsi üçün həmin orqana (quruma) təqdim etmək" sözləri ilə əvəz edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 noyabr 2026-cı il

"Ətraf mühitin mühafizəsi haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 noyabr tarixli 510-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Ətraf mühitin mühafizəsi haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 noyabr tarixli 510-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin 3-cü hissəsində hər iki halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 18-ci maddəsinin 3-cü hissəsində hər iki halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, balıq və digər su bioresurslarına münasibətdə isə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

1.3. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 12.1.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 12.1.4-cü maddəsində birinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Ətraf mühitin mühafizəsi haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə"Azərbaycan Respublikasının 2026-cı il 3 noyabr tarixli 510-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 173 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 483 (Cild I); 2026, № 8, maddə 815) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "abzasında," sözündən sonra "18-ci maddəsinin 3-cü hissəsində (hər iki halda)," sözləri əlavə edilsin;

3.2. 2.4-1-ci bənddən "18-ci maddəsinin 3-cü hissəsində," sözləri çıxarılsın;

3.3. aşağıdakı məzmunda 2.5-1-ci bənd əlavə edilsin:

"2.5-1. həmin Qanunun 18-ci maddəsinin 3-cü hissəsində hər iki halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, balıq və digər su bioresurslarına münasibətdə isə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;".

4. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1175-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 iyul tarixli 193 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1479 (Cild I) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1-ci bəndə "8.7-ci," sözlərindən sonra "12.1.4-cü," sözləri əlavə edilsin;

4.2. 3.3-cü bəndə "8.7-ci," sözlərindən sonra "12.1.4-cü (birinci halda)," sözləri əlavə edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 noyabr 2026-cı il

"Banklar haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 noyabr tarixli 509-VIIQD nömrəli Qanununun tətbiqi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Banklar haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 noyabr tarixli 509-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

1.1. aşağıdakı normativ xarakterli aktları altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

1.1.1. "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 74-5.7-ci maddəsinə uyğun olaraq, sekyuritizasiya predmetinə dair digər tələbləri;

1.1.2. həmin Qanunun 74-7.7-ci maddəsinə uyğun olaraq, xidmət agentinin fəaliyyətinə dair əlavə tələbləri;

1.1.3. həmin Qanunun 74-8.1-ci maddəsinə uyğun olaraq, sekyuritizasiyanın predmeti olan aktivlərin reyestrinə daxil edilməli məlumatların dairəsini;

1.1.4. həmin Qanunun 74-9.1-ci maddəsinə uyğun olaraq, sekyuritizasiyanın predmeti olan aktivlərin sekyuritizasiya şirkətinə satılması prosesinə dair tələbləri;

1.1.5. həmin Qanunun 74-10.1-ci maddəsinə uyğun olaraq, sekyuritizasiya planına dair tələbləri və onun təsdiq edilməsinə dair sənəd və məlumatların dairəsini;

1.1.6. həmin Qanunun 74-12.5-ci maddəsinə uyğun olaraq, risklərin idarə edilməsinə dair əlavə tələbləri;

1.1.7. həmin Qanunun 74-13.1-ci maddəsinə uyğun olaraq, sekyuritizasiya şirkəti tərəfindən Azərbaycan Respublikasının Mərkəzi Bankına və sekyuritizasiya istiqrazının mülkiyyətçilərinə məlumatın təqdim edilməsi qaydası və formasını;

1.2. "Banklar haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 noyabr tarixli 509-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Banklar haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 noyabr tarixli 509-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 noyabr 2026-cı il

"Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 18-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14 (Cild I); 2024, № 1, maddə 19, № 2, maddə 137, № 7, maddə 755, № 12 (II kitab), maddələr 1328, 1350; 2025, № 1, maddələr 4, 7, № 4 (I kitab), maddə 324, № 6, maddələr 524, 525, 527, № 12 (I kitab), maddə 1124; 2026, № 1, maddə 12, № 4, maddələr 295, 298, № 6, maddə 489) ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 42-ci maddəyə aşağıdakı məzmunda beşinci hissə əlavə edilsin:

"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) sifarişi əsasında ali təhsil müəssisələrinin magistratura (rezidentura) səviyyəsini müvəffəqiyyətlə bitirmiş, habelə doktoranturada (adyunkturada) təhsilini başa vuraraq müvafiq elmi dərəcə almış zabitlərin hərbi rütbədə olma müddəti ali təhsilin göstərilən səviyyələrinin hər biri üzrə bir dəfə olmaqla bir il azaldılır.";

1.2. 45-ci maddənin üçüncü hissəsi aşağıdakı redaksiyada verilsin:

"Leytenant hərbi rütbəsində olma müddəti təhsil müddəti 5 il olan hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrini bitirmiş hərbi qulluqçular üçün - 2 il (aviasiyanın uçuş heyətində və sualtı gəmilərdə xidmət edən hərbi qulluqçular üçün - 1 il), müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi digər hallarda - 1 il müəyyən edilir.".

Maddə 2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56 (Cild I); 2024, № 2, maddə 137, № 4, maddə 363, № 12 (II kitab), maddələr 1328, 1350; 2025, № 1, maddə 4, № 4 (I kitab), maddələr 305, 311, № 6, maddələr 525, 527, № 12 (I kitab), maddə 1124; 2026, № 1, maddə 12, № 4, maddə 298, № 6, maddə 489) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 31.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"31.5. Leytenant hərbi rütbəsində olma müddəti təhsil müddəti 5 il olan hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrini bitirmiş hərbi qulluqçular üçün - 2 il (aviasiyanın uçuş heyətində və sualtı gəmilərdə xidmət edən hərbi qulluqçular üçün - 1 il), müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi digər hallarda - 1 il müəyyən edilir.";

2.2. aşağıdakı məzmunda 32.3-cü maddə əlavə edilsin:

"32.3. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) sifarişi əsasında ali təhsil müəssisələrinin magistratura (rezidentura) səviyyəsini müvəffəqiyyətlə bitirmiş, habelə doktoranturada (adyunkturada) təhsilini başa vuraraq müvafiq elmi dərəcə almış zabitlərin hərbi rütbədə olma müddəti ali təhsilin göstərilən səviyyələrinin hər biri üzrə bir dəfə olmaqla bir il azaldılır.".

Maddə 3. Keçid müddəa

Bu Qanunun 1.1-ci və 2.2-ci maddələri bu Qanun qüvvəyə mindiyi tarixədək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) sifarişi əsasında ali təhsil müəssisələrinin magistratura (rezidentura) səviyyəsini müvəffəqiyyətlə bitirmiş, habelə doktoranturada (adyunkturada) təhsilini başa vuraraq müvafiq elmi dərəcə almış zabitlərə də şamil olunur.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 noyabr 2026-cı il

"Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 noyabr tarixli 511-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 noyabr tarixli 511-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 45-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 31.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.3. həmin Qanunun 31.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 45-ci maddəsinin üçüncü hissəsinə və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 31.5-ci maddəsinə uyğun olaraq, leytenant hərbi rütbəsində olma müddəti ilə bağlı digər halları iki ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 noyabr tarixli 511-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 176 (Cild I); 2024, № 1, maddə 34, № 2, maddə 153, № 12 (II kitab), maddələr 1366, 1383; 2025, № 1, maddə 35, № 6, maddə 549, № 12 (I kitab), maddə 1153; 2026, № 2, maddə 123, № 4, maddə 310) 2-ci hissəsinin dördüncü abzasına ikinci halda "cümləsində" sözündən sonra ", 45-ci maddəsinin üçüncü hissəsində" sözləri əlavə edilsin.

4. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82 (Cild I); 2024, № 4, maddələr 375, 397, № 5 (I kitab), maddə 529, № 12 (II kitab), maddələr 1366, 1383; 2025, № 1, maddə 35, № 4 (I kitab), maddələr 325, 338, № 6, maddə 549, № 8, maddə 773, № 12 (I kitab), maddə 1153; 2026, № 2, maddə 123, № 6, maddələr 513, 514, 518) 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5.1-ci bəndə "31.1-ci," sözlərindən sonra "31.5-ci," sözləri əlavə edilsin;

4.2. 5.2-1-ci bəndə "15.3-cü" sözlərindən sonra "maddəsinin ikinci cümləsində, 31.5-ci maddəsində" sözləri əlavə edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 noyabr 2026-cı il

Azərbaycan Respublikası vətəndaşlarının 2027-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2009-cu ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1997-2008-ci illərdə doğulmuş, yaşı 30-dək olan Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2027-ci il yanvarın1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2027-ci il yanvarın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 noyabr 2026-cı il

"Azərbaycan Respublikası Hökuməti ilə Çex Respublikası Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il sentyabrın 30-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Çex Respublikası Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çex Respublikası Hökumətinə bildiriş göndərsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 noyabr 2026-cı il

A.Y.Əsgərovun"Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Asif Yunis oğlu Əsgərov "Şöhrət" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 noyabr 2026-cı il

Livan Respublikasının Prezidenti zati-aliləri General Jozef Auna

Hörmətli cənab Prezident!

Livan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, məsul fəaliyyətinizdə uğurlar, Livan xalqına əmin-amanlıq və rifah arzulayıram.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 noyabr 2026-cı il

Gürcüstanın Prezidenti zati-aliləri cənab Mixeil Kavelaşviliyə

Hörmətli cənab Prezident!

Tbilisi şəhərində yaşayış binasında baş vermiş partlayış nəticəsində insanların həlak olması və xəsarət alması xəbəri bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Gürcüstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 noyabr 2026-cı il

"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı, 18-ci və 19-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 586 (Cild I); 2024, № 5 (I kitab), maddə 502, № 12 (II kitab), maddə 1337; 2025, № 7, maddələr 606, 617, № 8, maddə 743; 2026, № 3, maddə 210, № 7(I kitab), maddə 625) aşağıdakı dəyişikliklər edilsin:

1. 21.17-ci və 21.18-ci maddələrdə "xidmətdə" sözü "və tibb xidmətlərində" sözləri ilə əvəz edilsin.

2. 24-cü maddə üzrə:

2.1. 24.2-ci maddə üzrə:

2.1.1. birinci cümlədə "və mülki işçilərə" sözləri ", mülki işçilərə və hərbi qulluqçulara" sözləri ilə əvəz edilsin;

2.1.2. üçüncü cümləyə "Qanunun" sözündən sonra "35.9-cu, 35.10-cu və" sözləri əlavə edilsin.

2.2. aşağıdakı məzmunda 24.4-cü və 24.5-ci maddələr əlavə edilsin:

"24.4. Tibb xidmətinin hərbi qulluqçuları penitensiar xidmətin müəssisələrinin tibb xidmətlərində, penitensiar müəssisələrin tibb-sanitar hissələrində, habelə penitensiar müəssisələrin mühafizəsi və penitensiar müəssisələrdə saxlanılan şəxslərin müşayiəti üçün təşkil edilmiş penitensiar xidmətin xüsusi bölmələrində fəaliyyət göstərən tibb-sanitar hissələrində xidmət keçirlər.

24.5. Tibb xidmətinin hərbi qulluqçularının xidmət keçmə qaydaları "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının qanunları, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi" və digər normativ hüquqi aktlarla tənzimlənir.".

3. 25-1.1.3-cü maddədə "idarələrində" sözü "idarəsində" sözü ilə əvəz edilsin.

4. 26.1-ci maddənin birinci cümləsinə "xidmətlərində" sözündən sonra ", məhkəmə ekspertizası idarəsində" sözləri əlavə edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2026-cı il

"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 30 oktyabr tarixli 503-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 iyun tarixli 752 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında"Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 30 oktyabr tarixli 503-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 iyun tarixli 752 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019,№ 6, maddə 1043 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) siyahısı"nda dəyişiklik təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 30 oktyabr tarixli 503-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 noyabr 2026-cı il

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 23 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 iyun tarixli 752 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) siyahısı"nda dəyişiklik

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 iyun tarixli 752 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) siyahısı"nın 2.2-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.3-cü və 2.4-cü bəndlər əlavə edilsin:

"2.3. Penitensiar xidmətin müalicə müəssisələrinin tibb xidmətləri;

2.4. Penitensiar müəssisələrin tibb-sanitar hissələri.".

"Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 387 **Bakı şəhəri, 20 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 555 (Cild I); 2024, № 2, maddə 236, № 5 (II kitab), maddə 575, № 7, maddə 910; 2025, № 4 (II kitab), maddə 424, № 7, maddə 697; 2026, № 1, maddə 78; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 5 oktyabr tarixli 324 nömrəli və 15 oktyabr tarixli 342 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı"nın "Arxeoloji abidələr" bölməsinin 22-ci və 23-cü bəndləri aşağıdakı redaksiyada verilsin:

22.	Azıx mağara düşərgəsi	paleolit dövrü	Xocavənd rayonu, Azıx kəndi
23.	Tağlar mağara düşərgəsi	paleolit dövrü	Xocavənd rayonu, Böyük Tağlar kəndi

2. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı" üzrə:

2.1. "Bağ-park, monumental və xatirə abidələri" bölməsinə aşağıdakı məzmunda 483-1-ci bənd əlavə edilsin:

483-1.	Quba Soyqırımı Muzeyi və simvolik məzarlıq	2012-2013-cü illər	Quba şəhəri, Nəriman Nərimanov küçəsi, 1A

2.2. "Arxeoloji abidələr" bölməsi üzrə:

2.2.1. "Astara rayonu" hissəsinə aşağıdakı məzmunda 830-1-ci bənd əlavə edilsin:

830-1.	Əlişa qala kompleksi	e.ə. IV- e. XVI əsrlər	Alaşa kəndi

2.2.2. "Quba rayonu" hissəsinə aşağıdakı məzmunda 1399-1-ci bənd əlavə edilsin:

1399-1.	Xatirə abidəsi – kütləvi məzarlıq	1918-ci il	Quba şəhəri, Nəriman Nərimanov küçəsi, 1A

3. Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı" üzrə:

3.1. "Memarlıq abidələri" bölməsi üzrə:

3.1.1. "Gəncə şəhəri" hissəsinə aşağıdakı məzmunda 3990-1-3990-3-cü bəndlər əlavə edilsin:

3990-1.	Yaşayış evi	XIX əsr	Hacıkənd qəsəbəsi
3990-2.	Yaşayış evi	XIX əsr	Heydər Əliyev prospekti, 353
3990-3.	Yaşayış evi	XIX əsr	İsrafil Məmmədov küçəsi, 50

3.1.2. "Sumqayıt şəhəri" hissəsinə aşağıdakı məzmunda 3993-1-ci və 3993-2-ci bəndlər əlavə edilsin:

3993-1.	Hacı Məcid hamamı	XVI əsr	Corat qəsəbəsi, Cəfər Cabbarlı küçəsi
3993-2.	Hacı Əmrulla hamamı	XVII əsr	Corat qəsəbəsi, Xanməmməd Məhərrəmoğlu küçəsi, 44A

3.1.3. "Qazax rayonu" hissəsinin 4533-cü bəndi ləğv edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 sentyabr tarixli 374 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının strukturu"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 388 **Bakı şəhəri, 20 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Milli Elmlər Akademiyasının təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 sentyabr tarixli 374 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1107 (Cild I); 2024, № 1, maddə 97; 2025, № 6, maddə 597) ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının strukturu"nun 6-cı hissəsi aşağıdakı redaksiyada verilsin:

"6. Gəncə bölməsinin tabeliyində olan elmi müəssisələr:

6.1. Humanitar Tədqiqatlar və Diyarşünaslıq İnstitutu;

6.2. Nizami Gəncəvi Mərkəzi.".

2. Azərbaycan Milli Elmlər Akademiyası bu Qərardan irəli gələn məsələləri həll etsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

"Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 389 **Bakı şəhəri, 20 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 631 nömrəli Fərmanının 5.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 126 (Cild I); 2024, № 1, maddə 122, № 5 (II kitab), maddə 583, № 9, maddə 1050; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 28 oktyabr tarixli 362 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü hissə üzrə:

1.1.1. 4.11-ci bənddə "icbari tibbi sığortanın tətbiqini təmin edən quruma" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyinə (bundan sonra - Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi)" sözləri ilə əvəz edilsin;

1.1.2. 4.12-ci bənddə "icbari tibbi sığortanın tətbiqini təmin edən qurumun" sözləri "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyinin" sözləri ilə əvəz edilsin;

1.1.3. 4.14-cü bənddə "icbari tibbi sığortanın tətbiqini təmin edən quruma" sözləri "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyinə" sözləri ilə əvəz edilsin;

1.2. 5-ci hissə üzrə:

1.2.1. adında "icbari tibbi sığortanın tətbiqini təmin edən qurumun" sözləri "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyinin" sözləri ilə əvəz edilsin;

1.2.2. 5.1-ci bənddə "icbari tibbi sığortanın tətbiqini təmin edən qurum" sözləri "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi" sözləri ilə əvəz edilsin;

1.2.3. 5.3-cü bəndin ikinci cümləsində (hər iki halda) "icbari tibbi sığortanın tətbiqini təmin edən qurum" sözləri "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi" sözləri ilə və "orqanda (qurumda)" sözləri "qurumda" sözü ilə əvəz edilsin;

1.2.4. 5.4-cü bəndin ikinci cümləsində "icbari tibbi sığortanın tətbiqini təmin edən qurum" sözləri "Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 12 iyul tarixli 93 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 584 (Cild I); 2024, № 4, maddə 473) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsinə dair Tədbirlər planı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci hissə üzrə:

2.1.1. 1.1-ci bəndin birinci və ikinci abzaslarının "Tədbirlərin məzmunu" sütunundan "müvafiq olaraq" və "və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə" sözləri çıxarılsın;

2.1.2. 1.2-ci bəndin "İcraçılar" sütunundan ", İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri çıxarılsın;

2.1.3. 1.3-cü bəndin "a", "e" və "f" abzaslarının "İcraçılar" sütunundan ", İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri çıxarılsın;

2.1.4. 1.4-cü bəndin "Tədbirlərin məzmunu" sütunundan "müvafiq olaraq" və "və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə" sözləri çıxarılsın;

2.1.5. 1.5-ci bəndin "İcraçılar" sütunundan ", İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri çıxarılsın;

2.2. 3.2-ci bəndin, 4.1-ci bəndin "a" abzasının, 4.5-ci və 4.6-cı bəndlərin "İcraçılar" sütunlarından ", İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 782 (Cild I); 2024, № 3, maddə 296; 2025, № 4 (II kitab), maddə 426, № 6, maddə 589, № 11, maddə 1096) ilə təsdiq edilmiş "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nın 5.11-ci bəndində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 62 (Cild I); 2024, № 4, maddə 473, № 5 (II kitab), maddə 583; 2025, № 8, maddə 804) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası"nın 3.2.4-cü yarımbəndində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci abzasda "Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən sığorta fondu (rayon və şəhərlər də daxil olmaqla)" sözləri "Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu, Dövlət Məşğulluq Agentliyi və Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi" sözləri ilə, "öz" sözü "dövlət sosial müdafiə fondu, işsizlikdən sığorta fondu və icbari tibbi sığorta fondunun" sözləri ilə əvəz edilsin;

4.2. 3-cü abzas ləğv edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 68 (Cild I); 2024, № 7, maddə 925; 2025, № 10, maddə 967; 2026, № 5 (II kitab), maddə 484) ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.2-ci bənddə "Tibbi-Sosial Ekspertiza və Reabilitasiya" sözləri "Tibbi Sığorta və Ekspertiza" sözləri ilə əvəz edilsin;

5.2. 2.6-cı bənddən ", eləcə də şəxsin sosial müdafiə tədbirlərinə və reabilitasiya vasitələrinə ehtiyacının olmasına dair tibbi göstəriş" sözləri çıxarılsın;

5.3. həmin Qaydaya əlavə - "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Tibbi-sosial ekspert komissiyasının Qərarı" üzrə:

5.3.1. adında "Tibbi-Sosial Ekspertiza və Reabilitasiya" sözləri "Tibbi Sığorta və Ekspertiza" sözləri ilə əvəz edilsin;

5.3.2. 4.7-ci bənd ləğv edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 12 mart tarixli 78 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 3, maddə 280) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının kişi cinsli vətəndaşlarının ilkin hərbi qeydiyyata alınması Qaydası"nın 3.5-ci bəndindən ", İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin" sözləri çıxarılsın.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Alyona Əliyeva DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzini ziyarət edib



















Noyabrın 23-də Alyona Əliyeva Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev mərkəzin fəaliyyəti barədə məlumat verib.

Bildirilib ki, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində əlilliyi olan şəxslər və digər həssas əhali qruplarının yaradıcı potensialının inkişafına, onların reabilitasiyasına və cəmiyyətə inteqrasiyasına dəstək işləri aparılır.

Beş il əvvəl açılışı olan mərkəzdə, habelə sonralar yaradılan İsmayıllı və Bərdədəki filiallarda ötən dövrdə 1160-dan çox şəxs təlimlərə və sosial-psixoloji xidmətlərə cəlb edilib. Hazırda 380-dək benefisiar bacarıqlarını inkişaf etdirir.

Alyona Əliyeva mərkəzin benefisiarlarının əl işlərindən ibarət sərgi ilə tanış olub. O, müəssisədə fəaliyyət göstərən səsyazma, floristika, bədii oyma, xalçaçılıq, keramika, təsviri incəsənət, kapoeyra studiyalarında olub, həssas qruplara aid şəxslərlə görüşüb, onların yaradıcılıq prosesini izləyib.

Qonağa DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin həyata keçirdiyi tədbirlər və sosial təşəbbüslər, mərkəzin benefisiarlarının yaradıcılıq nümunələrinin daha geniş təbliği, geniş auditoriyaya təqdim edilməsi məqsədi daşıyan dostart.az portalının fəaliyyəti barədə də məlumat verilib.

Alyona Əliyeva mərkəzin təlimçilərinin və benefisiarlarının iştirakı ilə təqdim edilən xüsusi inklüziv konsert proqramını izləyib.

Azərbaycan və İtaliya arasında siyasi dialoq yüksək səviyyədədir: XİN-də görüş



Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və İtaliyanın Nazirlər Şurası Sədrinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayani geniş tərkibdə görüş keçiriblər.

AZƏRTAC xəbər verir ki, görüş zamanı nazirlər Azərbaycan-İtaliya münasibətlərinin geniş gündəliyini, strateji tərəfdaşlığın hazırkı vəziyyətini və perspektivlərini, eləcə də əsas regional və beynəlxalq inkişafları müzakirə ediblər.

Nazirlər 2014 və 2020-ci illərdə imzalanmış Strateji Tərəfdaşlıq sənədlərinə əsaslanan iki ölkə arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu vurğulayıblar.

İqtisadi və ticarət əlaqələrinin genişləndirilməsinə xüsusi diqqət yetirilib. 2025-ci ildə ikitərəfli ticarət dövriyyəsinin 12 milyard ABŞ dollarına çatması ilə İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşı olaraq qalır. Nazirlər ticarət, investisiya, enerji, sənaye, kənd təsərrüfatı, nəqliyyat və yüksək texnologiyalar sahələrində əməkdaşlığın daha da genişləndirilməsi imkanlarını müzakirə ediblər. Həmçinin Bakıda keçirilən Azərbaycan-İtaliya Biznes-Forumunun nəticələrini müsbət qiymətləndiriblər.

Nazirlər Azərbaycanın İtaliya üçün etibarlı enerji təchizatçısı kimi rolunu, "Cənub qaz dəhlizi"nin və Trans-Adriatik Boru Kəmərinin (TAP) strateji əhəmiyyətini, eləcə də SOCAR-ın İtaliyanın enerji bazarında genişlənən mövcudluğunu vurğulayıblar.

Nazir Ceyhun Bayramov İtaliya şirkətləri üçün Orta dəhlizin inkişafı, nəqliyyat və logistika infrastrukturunun qurulması, eləcə də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yenidənqurma və inkişaf layihələri çərçivəsində mövcud olan imkanları diqqətə çatdırıb. Kritik xammal sahəsində əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyi də vurğulanıb.

Nazirlər regiondakı proseslər, o cümlədən Azərbaycan və Ermənistan arasında normallaşma prosesi və Cənubi Qafqazda sülh gündəliyinin irəli aparılması istiqamətində səylər barədə fikir mübadiləsi aparıblar. Nazir Ceyhun Bayramov qarşı tərəfi işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri, keçmiş məcburi köçkünlərin geri qayıdışı, eləcə də minaların yaratdığı çətinliklər barədə məlumatlandırıb.

Nazirlər təhsil, mədəniyyət, elm və turizm sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyini bir daha qeyd edərək, xalqlararası əlaqələrin möhkəmləndirilməsində İtaliya-Azərbaycan Universitetinin rolunu vurğulayıblar.

Nazirlər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumu keçiriləcək

Noyabrın 25-də Milli Məclisdə İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumu keçiriləcək.

Milli Məclisin Mətbuat və ictimai-yətlə əlaqələr şöbəsindən verilən məlumata görə, forumda "Azərbaycan-Özbəkistan əbədi dostluq və müttəfiqlik münasibətlərinin parlament ölçüsü: əməkdaşlıq istiqamətləri və gələcək perspektivlər" mövzusunda fikir mübadiləsi aparılacaq.

Tədbir zamanı Azərbaycan Respublikasının Milli Məclisi ilə Özbəkistan Respublikası Ali Məclisinin Senatı arasında parlamentlərarası əməkdaşlığın inkişafına dair 2027-2028-ci illər üçün praktiki tədbirlər planının ("Yol xəritəsi") imzalanması nəzərdə tutulur. Forum çərçivəsində Azərbaycan Respublikası Milli Məclisinin və Özbəkistan Respublikası Ali Məclisinin parlamentlərarası əməkdaşlıq komissiyasının birinci iclası da keçiriləcək.

"Azərbaycan"

Müasir İncəsənət Muzeyində rəssam Nigar Ağabəylinin "İki dünya arasında" adlı fərdi sərgisi açılıb

Sərginin açılışında Alyona Əliyeva iştirak edib





Noyabrın 22-də Müasir İncəsənət Muzeyində rəssam Nigar Ağabəylinin "İki dünya arasında" adlı fərdi sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, sərginin açılışında Alyona Əliyeva iştirak edib və rəssamın əsərləri ilə tanış olub.

"İki dünya arasında" sərgisi insan təcrübəsini, daxili transformasiyanı və fərqli təzahür hallarını bir-birindən ayıran görünməz sərhədlərin bədii araşdırmasıdır. Sərgi həyatın iki mərhələsini və dünyanı qavramağın iki fərqli formasını əks etdirir. Birinci mərhələ məsumluq, yüngüllük, spontanlıq və illüziyalar dünyasıdır. Bu, həyatın sərhədsiz göründüyü, duyğuların saf və sərbəst olduğu, reallığın isə çox zaman təxəyyül prizmasından qavrandığı dövrdür.

İkinci dünya isə maariflənmə ilə başlayır. O, yaşanmış təcrübələr, düşüncə və insanın özünü, eləcə də başqalarını daha dərindən anlamaq istəyi ilə formalaşır. Bu mərhələdə insan varlığın mürəkkəbliyini, daxili ziddiyyətləri, zahiri görünüşlə həqiqət arasındakı məsafəni dərk edir.

Nigar Ağabəyli ekspressiv obrazlar, qadın portretləri, simvolik personajlar və emosional kompozisiyalar vasitəsilə bu iki dünya arasındakı incə sərhədi araşdırır. Maskalar, baxışlar, jestlər və ziddiyyətli emosional vəziyyətlər insanın üzərinə götürdüyü rolların, qurduğu kimliklərin və bəzən gizlətdiyi daxili mənliyinin vizual metaforalarına çevrilir. Rəssam bu iki dünyanı bir-birinə qarşı qoymaq əvəzinə, onları vahid ömür yolunun bir-biri ilə əlaqəli mərhələləri kimi təqdim edir.

İki dünya arasında - böyümək, oyanmaq, illüziyaları itirmək və özünün yeni qatlarını kəşf etmək haqqında düşüncədir. Bu, bir zamanlar olduğumuz insanla çevrildiyimiz insan arasındakı məkandır.

Rəssam Nigar Ağabəyli müasir təsviri sənət sahəsində çalışan, yaradıcılığında insan emosiyalarını, kimlik axtarışını və daxili təcrübələrin mürəkkəbliyini araşdıran rəssamdır. Ekspressiv obraz dili və simvolik təsvirlər vasitəsilə görünənlə gizli, real ilə xəyali arasında bədii dialoq yaradır.

Sərgi noyabrın 24-dən 26-dək Müasir İncəsənət Muzeyində təqdim olunacaq.

"Yeni Azərbaycan Partiyası: *Heydər Əliyev dühası və siyasi varislik"*



Noyabrın 21-də Gəncə şəhərində Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 34-cü ildönümünə həsr olunmuş "Yeni Azərbaycan Partiyası: Heydər Əliyev dühası və siyasi varislik" mövzusunda tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, bu gün biz müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Liderimiz Heydər Əliyevin yaradıcısı olduğu və Prezident İlham Əliyevin rəhbərliyi ilə Cənubi Qafqazın ən böyük siyasi qüvvəsinə çevrilərək ölkəmizin inkişafında müstəsna rol oynayan Yeni Azərbaycan Partiyasının yaradılmasının 34-cü ildönümü münasibətilə qədim Azərbaycan yurdu, tarixi irsimizi və zəngin dövlətçilik ənənələrimizi yaşadan mühüm mədəniyyət mərkəzlərindən biri Gəncə şəhərində bir araya gəlmişik: "Hazırda dünyada müstəqil, nüfuzlu, qüdrətli və qalib ölkə kimi tanınan müasir Azərbaycanın möhtəşəm uğurlarında siyasi sistemin aparıcı qüvvəsi olan Yeni Azərbaycan Partiyasının mühüm rolu və xüsusi payı vardır. Partiyamızın keçdiyi 34 illik şərəfli yol Azərbaycanın müstəqillik tarixinin, dövlət quruculuğunun və milli inkişaf strategiyasının ayrılmaz tərkib hissəsidir. Danılmaz həqiqətdir ki, XX əsrin 90-cı illərinin əvvəlində müstəqilliyini yenicə bərpa etmiş ölkəmizin gələcək taleyini müəyyən edən əlamətdar hadisələrdən biri Yeni Azərbaycan Partiyasının yaradılması olmuşdur. Bu, sadəcə olaraq, bir partiyanın təsis olunması deyil, çoxəsrlik dövlətçilik və müasir müstəqillik tariximizdə yeni mərhələnin başlanğıcı və taleyüklü dönüş nöqtəsidir. Yeni Azərbaycan Partiyasının yarandığı şərait olduqca mürəkkəb dövrə təsadüf edirdi. Həmin dönəmdə istər SSRİ miqyasında, istərsə də respublika səviyyəsində dağıdıcı proseslər baş verirdi. Sovet İttifaqının çöküşü fonunda Azərbaycan olduqca çətin vəziyyətlə qarşılaşmışdı. Respublikada faktiki olaraq ictimai-siyasi böhran mövcud idi, iqtisadi tənəzzül, siyasi xaos və vətəndaş qarşıdurması ilə yanaşı, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və ölkəmizin bölgədə təcrid vəziyyətinə düşməsi ciddi təhdidlər, o cümlədən müstəqilliyin itirilməsi təhlükəsi yaratmışdı. Belə bir şəraitdə Azərbaycanın tələtümlərdən xilas edilməsi üçün milli birliyin təmin edilməsi zərurətə çevrilmişdi. Bunun üçün isə təcrübəli, vətənpərvər və milli maraqları hər şeydən üstün tutan güclü siyasi liderə ehtiyac var idi. Bu tarixi missiyanı həyata keçirməyə qadir şəxsiyyət isə, görkəmli dövlət xadimi Heydər Əliyev idi. Xalq yalnız onun liderliyi ilə Azərbaycanın müstəqilliyinin qorunub saxlanıla və gələcəyinin qurula biləcəyinə inanırdı. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının Heydər Əliyevə müraciət edərək müstəqil Azərbaycan uğrunda Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etməsi də məhz bu inamdan qaynaqlanırdı. Ulu Öndərin həmin müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının yaradılmasına və partiyaya rəhbərlik etməyə razılıq verməsi isə taleyi sual altında olan Azərbaycanın gələcəyi naminə müstəsna əhəmiyyətə malik qərar olmuşdur. 1992-ci il noyabrın 21-də yaradılan Yeni Azərbaycan Partiyasının cəmiyyət tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması isə Heydər Əliyevin üstün liderlik və fenomenal idarəçilik keyfiyyətləri ilə şərtlənmişdir. Qısa müddət ərzində respublikanın bütün bölgələrində yerli təşkilatların yaradılması istiqamətində mühüm addımlar atılmış, müəyyən olunmuş vəzifələri yerinə yetirmək və qarşıda duran hədəflərə çatmaq üçün sistemli fəaliyyət həyata keçirilmişdir".





YAP Sədrinin müavini deyib ki, yeni dəyərlər yaradaraq siyasi mədəniyyət nümunəsi ortaya qoyan Yeni Azərbaycan Partiyasına göstərilən yüksək etimad onun ümumxalq partiyasına çevrilməsini şərtləndirmişdir: "YAP bütün seçkilərdə inamlı qələbələr qazanaraq siyasi həyatda avanqard qüvvə - lider partiya olduğunu sübuta yetirmiş, hər bir mübarizədən daha da güclü çıxaraq siyasi sistemdə aparıcı mövqeyini daha da möhkəmləndirmişdir. Yeni Azərbaycan Partiyası 1993-2003-cü illərdə Heydər Əliyevin rəhbərliyi və xalqın dəstəyi ilə sabitliyin, iqtisadi inkişafın təmin olunması, ictimai-siyasi institutların möhkəm-ləndirilməsi, respublikanın bey-nəlxalq mövqeyinin güclən-dirilməsi və digər istiqamətlərdə ardıcıl işlər görməklə mühüm nailiyyətlərə imza atmışdır".



Tahir Budaqov bildirib ki, Ulu Öndər Heydər Əliyev siyasi varisliyi təmin etməklə dövlətçilik tariximizdə ən böyük xidmətlərindən birini göstərmişdir: "Cənab İlham Əliyevin 2003-cü ildə ölkə Prezidenti, 2005-ci ildə isə Yeni Azərbaycan Partiyasının Sədri seçilməsi istər partiyamızın həyatında, istərsə də bütövlükdə ölkəmizin inkişafında keyfiyyətcə yeni mərhələyə start vermişdir. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində xalq-iqtidar birliyi daha da möhkəmlənmiş, Azərbaycan regionda lider dövlətə çevrilərək dünyada etibarlı tərəfdaş kimi tanınmışdır. Və nəhayət, ölkəmiz öz ərazi bütövlüyünü və mütləq suverenliyini təmin etməklə Zəfər zirvəsinə yüksəlmiş, regionumuz üçün yeni perspektivlər yaranmışdır. Bu gün Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri, Böyük qayıdış prosesi uğurla davam etdirilir. İşğaldan azad edilmiş ərazilərdə şəhər və kəndlərin yenidən qurulması, soydaşlarımızın doğma yurdlarına qayıdışı Azərbaycanın iqtisadi gücünü, siyasi iradəsini və gələcəyə inamını aydın şəkildə nümayiş etdirir. Eyni zamanda ölkəmizin təşəbbüsü ilə başlanan sülh quruculuğu prosesi beynəlxalq hüquq normalarına, eləcə də dövlətlərin ərazi bütövlüyünün qorunması və sərhədlərinin toxunulmazlığı prinsiplərinə əsaslanır ki, bu da yalnız Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına deyil, bütövlükdə qarşılıqlı hörmət və faydalı əməkdaşlıq şəraitində Cənubi Qafqazın sabit, təhlükəsiz və firavan gələcəyinə xidmət edir".

YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb ki, müasir beynəlxalq münasibətlər sistemində sürətli transformasiya prosesi müşahidə olunur: "Qlobal informasiya məkanında baş verən dəyişikliklər fonunda rəqəmsal texnologiyaların, o cümlədən süni intellektin həyatımıza təsiri genişlənir, sosial şəbəkələrin ictimai rəyin formalaşmasında rolu getdikcə artır. Bütün bu reallıqlar müstəqil siyasət həyata keçirən dövlətlərin, o cümlədən Azərbaycanın qarşısında yeni vəzifələr müəyyən edir. YAP-ın VIII Qurultayında partiyamızın fəaliyyətinə yüksək qiymət verməklə qarşımızda duran başlıca vəzifələri və gələcəyə yönəlik strateji hədəfləri də dəqiq müəyyən edən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev dövlət siyasətinin mühüm prioritetlərindən biri olan ideoloji işin yeni reallıqlara və müasir çağırışlara uyğun təkmilləşdirilməsi zəruriliyini xüsusi vurğulamışdır. Bu kontekstdə Heydər Əliyev ideyalarının və azərbaycançılıq məfkurəsinin təbliği, Prezident İlham Əliyevin siyasətinin mahiyyəti və nəticələrinin geniş ictimaiyyətə çatdırılması, tarixi yaddaşın, milli-mənəvi dəyərlərimizin yaşadılması və gənc nəslin vətənpərvərlik ruhunda formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün müasir kommunikasiya vasitələrinin və rəqəmsal texnologiyaların imkanlarından geniş istifadə etməklə cəmiyyətin müntəzəm və obyektiv məlumatlandırılması, Azərbaycan həqiqətlərinin beynəlxalq miqyasda təbliğinin gücləndirilməsi, informasiya manipulyasiyalarına və dezinformasiya kampaniyalarına qarşı sistemli mübarizənin davam etdirilməsi xüsusi diqqət mərkəzində olmalıdır".

"Hazırda sıralarında 800 minə yaxın vətəndaşımızı birləşdirən Yeni Azərbaycan Partiyasının əksər üzvləri Heydər Əliyev ideyalarına sadiqlik nümayiş etdirərək Azərbaycanın daha da güclənməsi naminə məqsədyönlü fəaliyyət göstərirlər. 1993-cü il iyulun 23-də yaradılan YAP Gəncə şəhər təşkilatının sıralarında hazırda 40 mindən artıq üzv birləşmişdir ki, onlardan 26 mindən çoxu qadınlar, 8 mindən çoxu isə gənclərdir. Bu böyük potensial şəhər təşkilatının qarşısında duran bütün vəzifələrin mütəşəkkil qaydada və yüksək səviyyədə yerinə yetirilməsinə imkan verir. YAP Gəncə şəhər təşkilatı bundan sonra da fəaliyyətini müasir dövrün tələbləri və çağırışları əsasında davam etdirərək dövlətçilik ənənələrinin və milli-mənəvi dəyərlərin qorunması, ideoloji işin gücləndirilməsi, ictimaiyyətlə əlaqələrin inkişaf etdirilməsi, partiya sıralarının genişləndirilməsi və digər istiqamətlərdə öz üzərinə düşən öhdəlikləri yerinə yetirməli, ölkəmizdə sabitlik və həmrəyliyin qorunmasına, xalq-iqtidar birliyinin daha da möhkəmlənməsinə öz töhfəsini verməlidir. Partiyamızın yaradılmasının 34-cü ildönümü münasibətilə hər birinizi ürəkdən təbrik edir, möhkəm cansağlığı və dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycanın daha parlaq gələcəyi naminə şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram. Yaşasın Ulu Öndərimizin xalqımıza əmanət etdiyi müasir müstəqil Azərbaycan dövləti və Heydər Əliyev dühasının siyasi mirası olan Yeni Azərbaycan Partiyası! Vətənimizi, xalqımızı Zəfər zirvəsinə yüksəldən Müzəffər Liderimiz cənab İlham Əliyevə eşq olsun!", - deyə Tahir Budaqov əlavə edib.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxışında qeyd edib ki, Yeni Azərbaycan Partiyası ölkəmizin mürəkkəb siyasi və iqtisadi vəziyyətlə üzləşdiyi bir dövrdə yaradılıb: "1992-ci il noyabrın 21-də Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə təsis edilən partiya qısa müddətdə xalqın dəstəyini qazanıb. Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VIII Qurultayında qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyasının yaradılması və Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması xalqın tələbi idi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə sabitlik təmin olundu, dövlətçiliyimiz möhkəmləndi. Bununla Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun rəhbərliyi ilə Azərbaycan böyük nailiyyətlər əldə edib".

Niyazi Bayramov vurğulayıb ki, 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfər və ərazi bütövlüyünün, dövlət suverenliyinin tam bərpası tariximizin ən mühüm hadisələrindəndir: "Hazırda işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri aparılır, Böyük qayıdış proqramı həyata keçirilir. Prezident İlham Əliyev partiyanın VIII Qurultayında ideoloji işin müasir tələblərə uyğun qurulmasının vacibliyini vurğulayıb. Bu gün əsas vəzifələrimizdən biri gənclərlə işi gücləndirmək və dövlət siyasətini ictimaiyyətə düzgün çatdırmaqdır. YAP Gəncə şəhər təşkilatı da partiya üzvləri ilə işi, maarifləndirici tədbirlərin təşkilini diqqətdə saxlayır. Əminəm ki, təşkilat bundan sonra da şəhərimizin ictimai həyatında fəal iştirak edəcək və qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə öz töhfəsini verəcəkdir".

Çıxış edən Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qeyd edib ki, Azərbaycanın taleyinin həll olunduğu, müstəqil dövlətçiliyimizin ciddi sınaqlarla üzləşdiyi mürəkkəb bir dövrdə - 1992-ci ildə ölkənin qabaqcıl ziyalılarının və nüfuzlu nümayəndələrinin təşəbbüsü ilə Ulu Öndər Heydər Əliyevin dühasının işığında yaradılan Yeni Azərbaycan Partiyası xalqın ümid və inam ünvanı olmuşdur: "Bu partiyanın yaranması, əslində, Azərbaycanın gələcək inkişaf yolunun müəyyən edilməsi, dövlətçilik ideyalarının siyasi müstəvidə səfərbər olunması missiyası idi. Bu taleyüklü missiyanın arxasında isə Azərbaycan tarixinin ən qüdrətli dövlət xadimi olan Ulu Öndər Heydər Əliyev fenomeni dayanırdı. Heydər Əliyev fenomeni böyük siyasi təcrübə və idarəçilik bacarığı ilə yanaşı, xalqına sonsuz sevginin, dövlətçilik təfəkküründən, siyasi uzaqgörənliyin və ən çətin məqamlarda tarixi məsuliyyəti öz üzərinə götürmək cəsarətinin təcəssümü idi. Məhz Ulu Öndər Heydər Əliyevin siyasi dühası Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdi, dövlətçiliyimizin əsaslarını möhkəmləndirdi, ölkəmizin müasir inkişaf strategiyasını müəyyənləşdirdi. Bu gün qürurla deyə bilərik ki, Yeni Azərbaycan Partiyasının keçdiyi yol müstəqil Azərbaycan dövlətinin formalaşması və güclənməsi tarixi ilə ayrılmaz şəkildə bağlıdır".

YAP İdarə Heyətinin üzvü vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni tarixi mərhələdə uğurla davam etdirilir: "Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız milli birliyin möhkəmlənməsi, siyasi dialoqun davamlı olması, müstəqil Azərbaycanı daha da qüdrətləndirmək, ölkəmizin beynəlxalq imicini daha da artırmaq, sosial rifahı yüksəltmək kimi vəzifələri layiqincə yerinə yetirmişdir. Partiyamızın inkişafında, ictimai-siyasi nüfuzunun artırılmasında, partiyadaxili münasibətlərdə səmimiyyətin və davranış mədəniyyətinin yüksəlməsində YAP Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın fəaliyyəti və təşəbbüsləri böyük rol oynamışdır".

Tədbirdə daha sonra Gəncə Tibb Kollecinin direktoru, Əməkdar həkim Mehman Rzayevin, "1 saylı" Ərazi Partiya Təşkilatı sədrinin müavini Gülnar Fazilqızının çıxışları dinlənilib.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra konsert proqramı təqdim olunub.

"Azərbaycan"

Azərbaycan-Vyetnam əlaqələri yeni mərhələyə yüksəlib



Coğrafi məsafənin uzaqlığına baxmayaraq, ortaq tarixi yaddaş, qarşılıqlı hörmət və səmimi rəğbət üzərində qurulan dövlətlərarası münasibətlər zamanın sınağından uğurla çıxaraq sarsılmaz tərəfdaşlıq nümunəsinə çevrilir. Ötən əsrin ortalarından etibarən formalaşmağa başlayan Azərbaycan-Vyetnam dostluğu da məhz belə nadir və nümunəvi əməkdaşlıq modellərindən biridir. Xalqlarımızın bir-birinə olan mənəvi yaxınlığı, sarsılmaz siyasi iradə və beynəlxalq münasibətlərdəki ortaq yanaşmalar bu əlaqələri ardıcıl şəkildə inkişaf etdirərək bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Prezident İlham Əliyevin Vyetnama rəsmi səfəri ərəfəsində Vyetnam Xəbər Agentliyinə verdiyi müsahibə də məhz bu səfərin siyasi-diplomatik əhəmiyyətini ifadə etməklə yanaşı, ikitərəfli münasibətlərin tarixi irsini, müasir inkişaf dinamikasını, strateji tərəfdaşlığın prioritetlərini və gələcək perspektivlərini əhatə edən mühüm mesajlarla zəngindir.

Milli Məclisin deputatı Kamran BAYRAMOV "Azərbaycan" qəzetinə açıqlamasında dedi ki, iki ölkə arasındakı dostluğun tarixi təməlləri mühüm siyasi səfərlərlə qoyulub: "1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Minin Bakıya səfəri xalqlar arasında dostluq bağlarının formalaşmasına əhəmiyyətli töhfə verib. Ümummilli Lider Heydər Əliyevin 1983-cü ildə Vyetnama səfəri və onun təşəbbüsü ilə səfər proqramının genişləndirilməsi isə bu münasibətlərin inkişafında xüsusi yer tutur. Həmin səfər çərçivəsində əldə olunan razılaşmalar Vyetnamın iqtisadi inkişafına dəstək verməklə yanaşı, uzunmüddətli əməkdaşlığın istiqamətlərini müəyyənləşdirib və Azərbaycanın hələ sovet dövründən etibarən beynəlxalq münasibətlər sistemində fəal rol oynadığını təsdiqləyib. Müasir mərhələdə ikitərəfli əlaqələrin inkişafı Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli və praqmatik xarici siyasətin mühüm istiqamətlərindən biridir. 2014-cü ildə Prezident İlham Əliyevin Vyetnama ilk dövlət səfəri və 2015-ci ildə Vyetnam Prezidentinin Azərbaycana səfəri siyasi əsasları möhkəmləndirib. 2025-ci ilin mayında Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfəri zamanı imzalanan strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə isə əməkdaşlığı keyfiyyətcə yeni səviyyəyə yüksəldərək qarşılıqlı münasibətlərə daha geniş siyasi, iqtisadi və institusional məzmun qazandırıb. Energetika, investisiya, müdafiə, kibertəhlükəsizlik, sənaye və digər sahələri əhatə edən danışıqlar tərəflərin əməkdaşlığa kompleks yanaşdığını göstərir. Hökumətlərarası komissiyalar, parlamentlərarası dostluq qrupları, eləcə də Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında təcrübə mübadiləsi və siyasi məsləhətləşmələr tərəfdaşlığın institusional dayaqlarını gücləndirir. Eyni zamanda BMT, Qoşulmama Hərəkatı və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) kimi beynəlxalq platformalarda sıx əməkdaşlıq qlobal məsələlərə dair ortaq dialoqun mühüm tərkib hissəsidir".

Deputat bildirdi ki, iqtisadi-ticari və energetika sahələrində əməkdaşlıq münasibətlərin əsas hərəkətverici qüvvəsidir. 2025-ci ilin yekunlarına görə, iki ölkə arasında ticarət dövriyyəsinin 150 milyon ABŞ dollarını ötməsi müsbət dinamikanın göstəricisi olsa da, mövcud sənaye, istehsal və ixrac potensialı bu rəqəmin daha da artırılmasına imkan verir. Tarixi və strateji əhəmiyyət daşıyan energetika sektorunda SOCAR ilə "PetroVietnam" arasında 2025-ci ildə imzalanmış Anlaşma Memorandumu yataqların kəşfiyyatı və işlənilməsi, texniki xidmətlər və mütəxəssis hazırlığı kimi istiqamətlərdə konkret layihələrin reallaşdırılmasına şərait yaradır. Bununla yanaşı, Azərbaycanın əlverişli investisiya mühiti və qeyri-neft sektorunun inkişafı Vyetnam biznes dairələrinin tikinti, infrastruktur və bərpaolunan enerji sahələrinə marağını artırıb. 2026-cı ilin sentyabrında Bakıda keçirilən İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində "ROX Group" ilə imzalanmış sənədlər bu marağın praktiki müstəviyə keçməsinin bariz nümunəsidir.

K.Bayramov vurğuladı ki, Azərbaycanın Cənubi Qafqazda əsas logistika və energetika mərkəzi kimi mövqeyi, inkişaf etmiş nəqliyyat infrastrukturu tranzit daşımalarını ikitərəfli əməkdaşlığın perspektivli istiqamətinə çevirib: "2026-cı ilin yanvar-sentyabr aylarında tranzit daşımalarının həcminin ötən ilin eyni dövrü ilə müqayisədə təxminən altı dəfə artaraq 8 min tondan çox olması bu sahədəki yüksək dinamikanı təsdiqləyir. Orta dəhliz və "Şimal-Cənub" nəqliyyat dəhlizi vasitəsilə Vyet-namdan Avropaya və əks istiqamətdə yükdaşımaların Azərbaycan üzərindən həyata keçirilməsi həm regional bağlantıları gücləndirir, həm də Cənub-Şərqi Asiyanın dinamik iqtisadiyyatı ilə Cənubi Qafqaz arasında qarşılıqlı tamamlayıcı iqtisadi dəyər yaradır".

Deputat bildirdi ki, Azərbaycan-Vyetnam əlaqələrinin mühüm sütunlarından biri də xalqlar arasındakı dərin mənəvi yaxınlıq və humanitar əməkdaşlıqdır. Sovet dövründə təxminən 5 min Vyetnam vətəndaşının Azərbaycanda təhsil alması ilə formalaşan ənənə bu gün universitetlərarası əməkdaşlıq, akademik mübadilə və təhsil qrantları ilə davam etdirilir. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Ho Şi Minin Memorial otağının açılması bu tarixi ehtiramın simvolik ifadəsidir. Heydər Əliyev Fondunun Vyetnamda həyata keçirdiyi təşəbbüslər Ha Giang əyalətində ibtidai məktəbin tikintisi, Hanoy Ticarət və Turizm Kollecinə maliyyə yardımı və fondun vitse-prezidenti Leyla Əliyevanın 2025-ci ildə Vyetnama səfəri humanitar bağları daha da möhkəmləndirib. Mədəniyyət sahəsində isə kökləri Qara Qarayevin 1955-ci ildə yaratdığı "Vyetnam süitası"na və Əjdər İbrahimovun 1959-1962-ci illərdə Vyetnamın milli kino sənətinin inkişafına verdiyi töhfələrə söykənən əlaqələr müasir dövrdə Bakı və Qəbələdə keçirilən Vyetnam Günləri və vyetnamlı şair Mai Van Phanın "Gün doğarkən" şeirlər toplusunun Azərbaycan dilində nəşri ilə zənginləşir. Xalqlar arasında həmrəylik çətin sınaq dövrlərində də özünü göstərib.

K.Bayramov əlavə etdi ki, bütün bu amillər, eləcə də qarşıdakı yüksəksəviyyəli səfərin siyasi-diplomatik əhəmiyyəti tarixi dostluq ənənələrinin müasir strateji tərəfdaşlıq gündəliyi ilə uzlaşdırılmasına, yeni iqtisadi imkanların müəyyənləşdirilməsinə və birgə layihələrin təşviqinə geniş yol açır: "Mövcud inkişaf dinamikası və siyasi dialoqun yüksək səviyyəsi Azərbaycan-Vyetnam əlaqələrinin gələcəkdə daha böyük nəticələr əldə edilməyinə, hər iki xalqın rifahına və beynəlxalq münasibətlərdə konstruktiv əməkdaşlığa töhfə verəcəyinə möhkəm zəmin yaradır.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

COP31-də 36 məsələ ilə bağlı qərarlar qəbul edilib

Türkiyənin Antalya şəhərində keçirilən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 31-ci Tərəflər Konfransında (COP31) qalıq yanacaqlarla bağlı ümumi razılıq əldə olunmasa da, iqlim dəyişmələri ilə mübarizənin və aşağı karbonlu iqtisadiyyata keçidin üç əsas istiqaməti (İqlim maliyyəsi, uyğunlaşma və ədalətli keçid) üzrə 36 birgə qərar qəbul edilib.



AZƏRTAC xəbər verir ki, Paris Sazişinin "Uyğunlaşma üzrə Qlobal Məqsəd"inin icrasında ölkələrin əldə etdiyi irəliləyişləri ölçmək üçün formalaşdırılan "Belem Uyğunlaşma Göstəriciləri" üçün "Yol xəritəsi" qəbul olunub. Bu məqsədlə İşçi Qrupunun yaradılması və "Belem Uyğunlaşma Göstəriciləri"nin ölkələr tərəfindən sınaqdan keçirilməsi üçün cədvəl müəyyən edilib.

Həmçinin ən az inkişaf etmiş ölkələr tərəfindən Milli Uyğunlaşma Planlarının həyata keçirilməsini asanlaşdıracaq tətbiq platforması yaradılıb.

Bununla yanaşı, iqlim maliyyəsi sahəsində Paris Sazişinin 9-cu maddəsinə əsasən qəbul olunan ikiillik Fəaliyyət Proqramının 2027-2028-ci illər üzrə maliyyələşməsi ilə bağlı icra qaydaları barədə razılıq əldə edilib. Beləliklə, inkişaf etmiş dövlətlərin inkişaf etməkdə olan ölkələrə iqlim maliyyəsini təmin etmək öhdəliklərinin yerinə yetirilməsi üçün konkret çərçivə formalaşıb.

İqlim dəyişmələrinin təsirlərinə ən həssas ölkələrə maliyyə dəstəyi göstərmək üçün yaradılan İtki və Zərər Fondu mexanizmi ilə bağlı irəliləyişlər təsdiq olunub. 119 inkişaf etməkdə olan ölkədən ümumilikdə 2,8 milyard dollar məbləğində 176 maliyyələşdirmə sorğusu alınıb.

COP31-in ən vacib nailiyyətlərindən biri ədalətli keçid sahəsində olub. Ədalətli keçid mexanizminin institusional çərçivəsini aydınlaşdırmaq və onu tədricən tətbiq etmək qərara alınıb. Ədalətli Keçid üzrə İş Proqramının müddəti üç il uzadılıb və Ədalətli keçid mexanizminin 2027-ci ildə fəaliyyətə başlaması üçün cədvəl müəyyən edilib.

Azərbaycanın xarici siyasətinin uğurları



Azərbaycan-Vyetnam: *uzaq coğrafiya strateji tərəfdaşlıq üçün sədd deyil*

Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birgə Vyetnam Sosialist Respublikasına rəsmi səfəri iki ölkə arasında münasibətlərin inkişafında yeni mərhələnin başlanğıcı oldu. Səfər mahiyyət etibarilə 2025-ci ilin mayında Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi və ölkə Prezidenti To Lamın Azərbaycana dövlət səfəri zamanı əldə edilmiş razılaşmaların davamı, strateji tərəfdaşlıq münasibətlərinin praktiki məzmunla zənginləşdirilməsi baxımından mühüm siyasi hadisəyə çevrildi.

Bu səfərin əhəmiyyətini müəyyənləşdirən əsas amillərdən biri Azərbaycan və Vyetnam arasında münasibətlərin uzunmüddətli tarixi ənənələrə söykənməsidir. Digər mühüm məqam isə beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər fonunda hər iki ölkənin qarşılıqlı əməkdaşlıq üçün yeni imkanlar axtarışıdır. Asiya regionunun qlobal iqtisadiyyatda artan çəkisi, enerji təhlükəsizliyi məsələlərinin aktuallaşması, beynəlxalq nəqliyyat-logistika marşrutlarının əhəmiyyətinin yüksəlməsi Azərbaycan-Vyetnam münasibətlərinə daha geniş strateji kontekstdə yanaşmağı zəruri edir.

Tarixi dostluğun siyasi kapitalı

Azərbaycanla Vyetnam arasında münasibətlərin özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, bu əlaqələrin təməli müasir diplomatik münasibətlərin qurulmasından xeyli əvvəl - xalqların milli azadlıq və inkişaf uğrunda mübarizəsi dövründə formalaşıb. 1959-cu ilin iyulunda Vyetnamın görkəmli dövlət xadimi, ölkənin qurucusu Ho Şi Minin Azərbaycana səfəri ikitərəfli münasibətlərin tarixində xüsusi yer tutur. Həmin səfər xalqlar arasında qarşılıqlı rəğbət və dostluq ənənələrinin formalaşmasına mühüm töhfə verib. Sonrakı dövrlərdə də Azərbaycan xalqının Vyetnamın milli azadlıq və birləşmə uğrunda mübarizəsinə göstərdiyi mənəvi və siyasi dəstək bu münasibətlərin əsas dayaqlarından olub.

Prezident İlham Əliyevin Hanoyda "İnqilab şəhidləri" abidəsini və Ho Şi Minin məqbərəsini ziyarət etməsi məhz həmin tarixi yaddaşa ehtiramın ifadəsi kimi diqqəti cəlb edir. Diplomatik protokolun mühüm elementləri olan bu ziyarətlər eyni zamanda iki ölkə arasında münasibətlərin ideya və mənəvi əsaslarını sərgiləyir.

Azərbaycan-Vyetnam münasibətlərinin tarixi qarşılıqlı dəstək üzərində qurulub. Prezident İlham Əliyevin Baş nazir Le Minh Hunqla görüşündə xatırlatdığı kimi, Azərbaycan xalqı Vyetnamın müstəqillik və azadlıq uğrunda mübarizəsini qətiyyətlə dəstəkləyib. Eyni həmrəylik 2020-ci ildə Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda müharibə zamanı Vyetnam tərəfindən də nümayiş etdirilib. Bu dəstək, o cümlədən BMT Təhlükəsizlik Şurası çərçivəsində göstərilən mövqe ölkəmiz üçün çox əhəmiyyətlidir. Bu tarixi paralellik iki ölkənin münasibətlərində mühüm siyasi və mənəvi kapital formalaşdırıb. Beynəlxalq münasibətlərdə dövlətlərarası əməkdaşlığın davamlılığı üçün qarşılıqlı etimad xüsusi əhəmiyyət daşıyır. Azərbaycan və Vyetnamın münasibətləri də məhz belə etimad mühitinə əsaslanır.

Hələ illər öncə Ulu Öndər Heydər Əliyevin Vyetnama, Ho Şi Minin isə Azərbaycana səfərləri bu əlaqələrin inkişafında mühüm mərhələlər kimi tarixə düşüb. Prezident İlham Əliyevin 2014-cü ildə Vyetnama səfəri də yüksəksəviyyəli siyasi dialoqun davamlılığını göstərən mühüm hadisədir. Noyabr səfəri həmin ənənənin yeni geosiyasi və iqtisadi reallıqlar şəraitində davam etdirilməsi kimi dəyərləndirilə bilər.

Strateji tərəfdaşlıq

Azərbaycan-Vyetnam münasibətlərinin hazırkı inkişaf mərhələsini səciyyələndirən əsas hadisə 2025-ci ilin mayında Vyetnam Kommunist Partiyasının Baş katibi To Lamın Azərbaycana dövlət səfəri zamanı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsidir. Səfər çərçivəsində qəbul edilmiş "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat" ikitərəfli əməkdaşlığın gələcək istiqamətlərini müəyyənləşdirən mühüm siyasi sənəd kimi çıxış edir.

Strateji tərəfdaşlıq statusu dövlətlər arasında münasibətlərin daha sistemli və uzunmüddətli əsaslarla inkişaf etdirilməsi üçün siyasi çərçivə yaradır. Bu statusun real əhəmiyyəti isə əldə olunan razılaşmaların iqtisadi layihələrə, investisiya təşəbbüslərinə, ticarət əlaqələrinə, institusional əməkdaşlığa çevrilməsi ilə ölçülür.

2025-ci ilin iyulunda Hanoyda iqtisadi-ticari, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyasının üçüncü görüşünün, eləcə də Birgə Biznes Şurasının ilk toplantısının keçirilməsi bu prosesin institusional əsaslarının möhkəmləndiyini göstərir. Belə mexanizmlər siyasi səviyyədə əldə olunmuş razılaşmaların biznes dairələri və dövlət qurumları arasında konkret fəaliyyət istiqamətlərinə çevrilməsinə imkan verir.

Prezident İlham Əliyevin Vyetnam rəhbərliyi ilə görüşlərində enerji məsələlərinə xüsusi yer ayrılması təsadüfi deyil. Müasir beynəlxalq münasibətlər sistemində enerji resurslarına çıxış, təchizat marşrutlarının etibarlılığı və enerji təhlükəsizliyi dövlətlərin iqtisadi dayanıqlığı ilə yanaşı, milli təhlükəsizliyinin də mühüm komponentinə çevrilib. Azərbaycan bu sahədə böyük təcrübəyə, formalaşmış enerji infrastrukturuna və beynəlxalq bazarlarda etibarlı təchizatçı kimi üstün mövqeyə malikdir. Ölkəmizin enerji resurslarının müxtəlif qitələrdə yerləşən dövlətlərə çatdırılması, ixrac marşrutlarının şaxələndirilməsi və enerji tərəfdaşlıqlarının genişləndirilməsi Azərbaycanın beynəlxalq iqtisadi sistemdə rolunu gücləndirir.

Vyetnamla əməkdaşlıq bu baxımdan yeni imkanlar yaradır. Baş nazir Le Minh Hunqla görüşdə Azərbaycanın neft məhsullarının Vyetnama, eləcə də Vyetnam ərazisindən regionun digər ölkələrinə ixracı, birgə istehsal sahələrinin yaradılması məsələləri müzakirə olundu. Bu istiqamət qarşılıqlı iqtisadi maraqlar baxımından diqqətəlayiqdir. Azərbaycan üçün Cənub-Şərqi Asiya bazarlarında mövcudluğun genişləndirilməsi, enerji məhsullarının ixrac coğrafiyasının şaxələndirilməsi və yeni tərəfdaşlıqların qurulması əhəmiyyətlidir. Vyetnam üçün isə enerji resurslarının təchizat mənbələrinin və əməkdaşlıq istiqamətlərinin genişləndirilməsi iqtisadi inkişafın davamlılığı baxımından əlavə imkanlar yaradır. Burada mühüm məqamlardan biri əməkdaşlığın yalnız xammal və hazır məhsul ticarəti ilə məhdudlaşmamasıdır. Birgə istehsal, emal, texnologiya mübadiləsi və uzunmüddətli kommersiya layihələri tərəfdaşlığın daha dayanıqlı iqtisadi modelə çevrilməsinə şərait yarada bilər.

Orta dəhliz və Azərbaycan-Vyetnam arasında logistika əməkdaşlığı

Prezident İlham Əliyevin səfəri çərçivəsində müzakirə olunan mühüm istiqamətlərdən biri də nəqliyyat-logistika əməkdaşlığı oldu. Xüsusilə Orta dəhlizin Vyetnam şirkətlərinin region bazarlarına çıxışı üçün yaratdığı imkanlar diqqət mərkəzində dayandı.

Bu da təsadüfi deyil. Qlobal iqtisadiyyatda təchizat zəncirlərinin etibarlılığı və alternativ nəqliyyat marşrutlarının mövcudluğu getdikcə daha böyük əhəmiyyət qazanır. Geosiyasi gərginliklər, beynəlxalq ticarət marşrutları ətrafında yaranan risklər və logistika xərclərinin dəyişməsi şirkətləri daha çevik və təhlükəsiz daşınma imkanları axtarmağa sövq edir. Belə şəraitdə Orta dəhliz Azərbaycanın geoiqtisadi üstünlüklərindən biri kimi çıxış edir. Şərqlə Qərb arasında yerləşən ölkəmiz bu marşrut vasitəsilə Asiya və Avropa bazarları arasında iqtisadi əlaqələrin inkişafına töhfə verir.

Vyetnam kimi ixrac yönümlü iqtisadiyyata malik ölkə üçün yeni logistika istiqamətlərinin yaradılması xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın coğrafi mövqeyi, nəqliyyat infrastrukturu və region ölkələri ilə formalaşmış əlaqələri Vyetnam şirkətlərinin daha geniş bazarlara çıxışında əlavə imkanlar açacaq. Çünki Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Orta dəhliz həm vaxt, həm də təhlükəsizlik baxımından beynəlxalq daşımalar üçün mühüm tranzit marşrutudur. Bu imkanın Vyetnam biznes dairələrinə təqdim edilməsi Azərbaycanın tranzit ölkə statusunu daha geniş beynəlxalq iqtisadi əməkdaşlıq platformasına çevirmək strategiyasına uyğundur.

Məsələyə daha geniş yanaşdıqda, Azərbaycan-Vyetnam logistika əməkdaşlığının potensialı iki ölkə arasında birbaşa ticarət dövriyyəsinin artımından da irəli gedir. Vyetnam şirkətlərinin Azərbaycanı regional əməliyyat və logistika mərkəzi kimi nəzərdən keçirməsi ölkəmizə investisiya axınının artmasına, yeni biznes əlaqələrinin formalaşmasına və regional iqtisadi inteqrasiyanın genişlənməsinə şərait yaradacaq. Bu baxımdan Orta dəhliz Azərbaycan üçün sadəcə tranzit marşrutu, Vyetnam üçün isə alternativ daşınma istiqaməti olmaqdan daha geniş məna daşıyır. O, iki ölkənin iqtisadi maraqlarını birləşdirən strateji əməkdaşlıq platforması rolunu oynayacaq.

Səfər zamanı müzakirə olunan məsələlər göstərir ki, Azərbaycan-Vyetnam əməkdaşlığının perspektivləri enerji və nəqliyyatla məhdudlaşmır. Tikinti, daşınmaz əmlak, turizm, müdafiə sənayesi, bərpaolunan enerji və ticarət sahələrində də qarşılıqlı maraqlar mövcuddur.

Baş nazir Le Minh Hunq hər iki ölkənin külək və günəş enerjisi, daşınmaz əmlak, turizm və ticarət sahələrində fəaliyyət göstərən şirkətlərinin artıq işə başladığını qeyd etdi. Bu, əməkdaşlığın dövlətlərarası dialoq çərçivəsindən çıxaraq biznes müstəvisində də inkişaf etməyə başladığını göstərir. Azərbaycanın iqtisadi inkişaf strategiyasında qeyri-neft sektorunun genişləndirilməsi, xarici investisiyaların cəlbi və yeni texnologiyaların tətbiqi mühüm yer tutur. Vyetnamla iqtisadi əlaqələrin inkişafı bu məqsədlər baxımından da əhəmiyyətlidir.

Diplomatik və parlamentlərarası münasibətlərin yeni ölçüsü

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Vyetnamla əməkdaşlıq, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə çərçivəsində qarşılıqlı fəaliyyət, eləcə də BMT platformasında əlaqələndirilmiş mövqelər bu münasibətlərin çoxtərəfli diplomatiya müstəvisində də uğurla inkişaf etdiyini göstərir.

2026-cı ilin oktyabrında Vyetnamın vitse-prezidenti Vo Thi An Suanın AQEM-in Bakıda keçirilən Zirvə görüşündə iştirakı da bu baxımdan əhəmiyyətli hadisə idi. Parlamentlərarası əməkdaşlıq da münasibətlərin institusional əsaslarını gücləndirir. Milli Məclisin Sədri Sahibə Qafarova ilə Vyetnam Milli Assambleyasının Sədri Çan Tan Man arasında keçirilmiş görüşlər, beynəlxalq forumlarda qarşılıqlı dəstək və parlament platformalarında əməkdaşlıq bu istiqamətdə mühüm təcrübə formalaşdırıb.

Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının parlamentlərarası platformasının yaradılması da bu kontekstdə xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında işgüzar münasibətlərin qurulması siyasi dialoqun müxtəlif institusional səviyyələrdə davamlılığını nümayiş etdirir.

Diplomatik münasibətlərin genişlənməsi baxımından Vyetnamın Azərbaycanda səfirlik açmaq niyyəti də xüsusi qeyd olunmalıdır. Azərbaycanın Vyetnamda səfirliyi uzun müddətdir ki, fəaliyyət göstərir. Azərbaycanda da Vyetnamın səfirliyinin açılması siyasi dialoqun intensivləşməsi, iqtisadi əlaqələrin koordinasiyası, biznes dairələri arasında təmasların genişləndirilməsi və humanitar əməkdaşlığın inkişafı üçün institusional imkanları artıracaq.

Müasir beynəlxalq münasibətlər sistemi çoxqütblülüyə doğru dəyişdikcə dövlətlərin xarici siyasətində regional tərəfdaşlıqların və iqtisadi əlaqələrin şaxələndirilməsi daha böyük əhəmiyyət qazanır. Azərbaycan bu reallıqdan çıxış edərək müxtəlif regionlarda qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq əlaqələrini inkişaf etdirir.

Vyetnam isə dinamik iqtisadi inkişafı, sənaye və ixrac potensialı, Cənub-Şərqi Asiyadakı mövqeyi ilə Azərbaycanın diqqət yetirdiyi mühüm tərəfdaşlardandır. İki ölkənin coğrafi baxımdan bir-birindən uzaqda yerləş-məsi iqtisadi əməkdaşlıq üçün maneə yaratmır. Əksinə, fərqli regionlarda formalaşmış iqtisadi və logistika imkanları qarşılıqlı tamamlanma potensialı yaradır. Azərbaycan üçün Vyetnam Cənub-Şərqi Asiya bazarlarına çıxış baxımından mühüm tərəfdaş, Vyetnam üçün isə Azərbaycan Cənubi Qafqaz, Xəzər hövzəsi və daha geniş Avrasiyaya inteqrasiya baxımından əlverişli məkandır.

Hazırda əsas məsələ mövcud imkanları davamlı iqtisadi tərəfdaşlığa çevirmək, əldə olunmuş razılaşmaları real layihələrlə möhkəmləndirməkdir. Bu baxımdan Prezident İlham Əliyevin Vyetnama səfəri iki ölkə arasında münasibətlərin gələcək inkişafı üçün yeni imkanlar açan və strateji tərəfdaşlığın praktik mərhələsinə keçidi sürətləndirən mühüm tarixi hadisə kimi yadda qalacaq.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Tarixə söykənən dostluq və genişlənən əməkdaşlıq



Azərbaycan ilə Vyetnam arasındakı münasibətlər zəngin tarixə söykənir. Coğrafi uzaqlığa baxmayaraq, iki xalqı birləşdirən səmimi dostluq, qarşılıqlı hörmət və ortaq mübarizə tarixi bu gün özünün ən yüksək - strateji tərəfdaşlıq mərhələsinə qədəm qoyub. Noyabrın 19-da Prezident İlham Əliyevin Vyetnama rəsmi səfəri bu tarixi bağların müasir dövrün çağırışlarına uyğun olaraq yeni məzmunla zənginləşdiyini göstərən mühüm siyasi hadisə oldu. Səfər çərçivəsində keçirilən yüksəksəviyyəli görüşlər və imzalanan sənədlər Bakı ilə Hanoy arasında siyasi dialoqun intensivliyini və qarşılıqlı etimadın yüksək səviyyəsini bir daha nümayiş etdirdi.

Ardıcıl strateji kurs

İki ölkə arasındakı dostluğun təməli 1959-cu ildə Vyetnamın böyük lideri Ho Şi Minin Bakıya unudulmaz səfəri ilə qoyulub. Həmin dövrdə Azərbaycanın neft sənayesi ilə yaxından tanış olan Vyetnam liderinin səfərindən sonra bir çox azərbaycanlı mütəxəssis Vyetnamın neft-qaz sektorunun qurulmasına və inkişafına böyük töhfələr verib. 1983-cü ildə isə Ümummilli Lider Heydər Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Vyetnama səkkizgünlük səfəri və imzalanan razılaşmalar bu ölkənin iqtisadi dirçəlişinə güclü təkan olub.

Prezident İlham Əliyev Vyetnama rəsmi səfəri ərəfəsində Vyetnam Xəbər Agentliyinə müsahibəsində bu tarixi bağları xüsusi vurğulayıb: "Azərbaycan-Vyetnam münasibətlərinin təxminən yetmişillik tarixindən bəhs edərkən, hər şeydən əvvəl, bu dostluğun köklərinə qayıtmaq və onun əsasını qoymuş iki böyük lideri səmimi minnətdarlıq hissi ilə xatırlamaq istəyirəm. Sözsüz ki, başlanğıc nöqtəsi 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Minin Bakıya unudulmaz səfəri idi. 1983-cü il əsl sıçrayışla əlamətdar oldu. Həmin vaxt Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevin başçılığı ilə sovet nümayəndə heyəti Vyetnama səfər etdi".

Azərbaycan ilə Vyetnam arasındakı dostluq təkcə xoş günlərdə deyil, həm də ən çətin sınaq anlarında özünü göstərib. Azərbaycan xalqı vaxtilə Vyetnamın azadlıq mübarizəsini qətiyyətlə dəstəklədiyi kimi, Vyetnam da 2020-ci il Vətən müharibəsi zamanı ölkəmizin haqq işinə dəstək verərək güclü həmrəylik nümayiş etdirib. Hanoyda Vyetnamın Baş naziri Le Minh Hunq ilə görüşdə dövlətimizin başçısı bu dəstəyin heç vaxt unudulmayacağını xüsusi qeyd edib: "Azərbaycan xalqı sizin müstəqillik və azadlıq uğrunda mübarizənizi, xalqınızın işğal dövründə göstərdiyi qəhrəmanlığı qətiyyətlə dəstəkləyib. 2020-ci ildə ərazimizin işğaldan azad edilməsi uğrunda müharibə zamanı biz Vyetnam xalqı və Hökuməti tərəfindən eyni həmrəyliyi gördük, siz bizə güclü dəstək göstərdiniz, o cümlədən BMT Təhlükəsizlik Şurasında".

Azərbaycan 2024-cü ildə "Yaqi" fırtınasının və 2025-ci ildə baş verən dağıdıcı daşqınların fəsadlarını aradan qaldırmaq üçün Vyetnama maliyyə yardımı göstərməklə əsl dostluq nümunəsi ortaya qoyub.

Son illərdə ölkələrimiz arasında yüksəksəviyyəli qarşılıqlı səfərlər əlaqələrin dinamikasını daha da artırıb. Ötən ilin mayında Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi, Prezident To Lamın Bakıya dövlət səfəri zamanı strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın qəbul edilməsi münasibətləri keyfiyyətcə yeni müstəviyə çıxarıb. Prezident İlham Əliyevin noyabrın 19-da Vyetnama başlayan rəsmi səfəri və Hanoyda Prezident İlham Əliyev və Vyetnam Prezidenti To Lamın "Azərbaycan Respublikası Prezidentinin və Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi, Vyetnam Sosialist Respublikası Prezidentinin Birgə Bəyanatı"nı qəbul etmələri isə bu strateji kursun ardıcıllığını təsdiqləyir.

İkitərəfli əlaqələrdə yeni səhifə

Dövlətimizin rəhbərinin Prezident To Lam ilə geniş tərkibdə görüşü zamanı ölkələrimiz arasındakı əlaqələrin qarşıdakı perspektivlərindən söhbət açılıb.

"2025-ci ilin mayında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi ikitərəfli əlaqələrimizdə yeni səhifə açan tarixi mərhələdir. Hər iki ölkə qarşısında bütün səviyyələrdə və bütün sahələrdə duran mühüm vəzifə əməkdaşlığımızın məzmununu şaxələndirərək, onu konkret proqramlara, layihələrə və nailiyyətlərə çevirərək xalqlarımıza əhəmiyyətli faydalar qazandırmaqdır", - deyə Vyetnam Prezidenti To Lam vurğulayıb.

Azərbaycan ilə Vyetnam arasında iqtisadi sahədə əlaqələr də kifayət qədər uğurludur. 2025-ci ilin yekunlarına görə, iki ölkə arasında ticarət dövriyyəsi 150 milyon dolları ötüb. Lakin mövcud rəqəmlər hələ real potensialı tam əks etdirmir. Bu gerçəkliyi yuxarıda sözügedən müsahibəsində ölkəmizin rəhbəri də qeyd edib: "Ölkələrimiz ticarət dövriyyəsini əhəmiyyətli dərəcədə artırmaq və enerji, sənaye, kənd təsərrüfatı, nəqliyyat-logistika sektorlarında - bir sözlə, demək olar ki, bütün aparıcı sahələrdə genişmiqyaslı birgə təşəbbüsləri uğurla həyata keçirmək üçün kifayət qədər resurslara malikdir. Əminəm ki, planauyğun birgə iş ən qısa müddətdə əhəmiyyətli praktik nəticələr əldə etməyə imkan verəcək".

Bu istiqamətdə artıq konkret addımlar atılır. Ötən il SOCAR ilə "PetroVietnam" arasında imzalanmış Anlaşma Memorandumu neft-qaz yataqlarının kəşfiyyatı və mütəxəssis hazırlığı sahəsində yeni imkanlar açır. Bundan əlavə, Vyetnamın "ROX Group" şirkəti Azərbaycanda tikinti, infrastruktur, həmçinin günəş və külək enerjisi layihələrinə investisiya yatırmaqda maraqlıdır.

2026-cı ilin yanvar-sentyabr aylarında tranzit daşımalarının həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə təxminən 6 dəfə artaraq 8 min tonu keçib. Azərbaycanın Orta dəhliz və "Şimal-Cənub" nəqliyyat dəhlizlərindəki əlverişli mövqeyi Vyetnam yüklərinin Avropaya və əks istiqamətə daşınması üçün böyük perspektivlər vəd edir.

Azərbaycan Prezidentinin Vyetnama səfəri çərçivəsində baş tutan Hanoy görüşlərində hər iki ölkənin üzləşdiyi mina problemindən də bəhs olunub və minatəmizləmə, eləcə də müdafiə sənayesi, kibertəhlükəsizlik və turizm sahələrində tərəfdaşlığın genişləndirilməsi razılaşdırılıb.

Bakı və Hanoy arasındakı münasibətləri möhkəmləndirən əsas amillərdən biri də mədəni və humanitar əlaqələrdir. Sovet dövründə təxminən 5 min vyetnamlı gəncin Azərbaycanda təhsil alması bu gün də öz bəhrəsini verir. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Ho Şi Minin Memorial otağının açılması, Qoşulmama Hərəkatı çərçivəsində vyetnamlı gənclər üçün ayrılan təhsil qrantları, eləcə də Heydər Əliyev Fondunun Vyetnamın Ha Giang əyalətində məktəb tikintisi və Hanoy Ticarət və Turizm Kollecinə dəstəyi bu humanitar körpünün dayaqlarıdır.

Mədəni mübadilə də öz axarı ilə davam edir. Qara Qarayevin "Vyetnam süitası"ndan və rejissor Əjdər İbrahimovun Vyetnam kinosunun yaradılmasındakı xidmətlərindən başlanan ənənə bu gün Bakı və Qəbələdə keçirilən Vyetnam Günləri, şair Mai Van Phanın şeirlər toplusunun və Əjdər İbrahimovun "Vyetnamda gördüklərim" kitabının nəşri ilə davam etdirilir.

Prezident İlham Əliyevin Vyetnama rəsmi səfəri bir daha göstərdi ki, Cənub-Şərqi Asiyanın dinamik inkişaf edən ölkəsi Vyetnam ilə Cənubi Qafqazın əsas enerji və logistika mərkəzi olan Azərbaycanın güclərini birləşdirməsi həm iki xalqın rifahına, həm də geniş coğrafiyada əməkdaşlığın möhkəmlənməsinə xidmət edir.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

2027-ci ilin dövlət büdcəsi zərfi: maliyyə təhlükəsizliyindən fiskal dayanıqlığa

"Öncə hansı büdcəni deyil, hansı dövlətin büdcəsini müzakirə edirik?" sualına cavab verməliyik

2027-ci ilin dövlət büdcəsi zərfinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim edilməsi ilə parlamentdə müzakirələr başlanılmışdır.

Büdcə zərfi hər şeydən əvvəl Prezident İlham Əliyevin strateji təşəbbüslərini, sosial-iqtisadi inkişafın əsas hədəflərini, yeni dövrün çağırışlarını əks etdirir və onların reallaşdırılması üçün etibarlı maliyyə təminatı yaradır.

2027-ci il dövlət büdcəsi zərfinin əsas parametrləri

Növbəti ilin büdcə gəlirləri 39,2 mlrd., xərcləri isə 42,4 mlrd. manat proqnozlaşdırılır. Büdcə kəsirinin yuxarı həddi təxminən 3,2 mlrd. manat və ya ÜDM-in 2,2 faizi səviyyəsində nəzərdə tutulur.

İcmal büdcənin gəlirlərinin 47,6 mlrd., xərclərinin 50,4 mlrd., kəsirinin isə 2,8 mlrd. manat təşkil edəcəyi gözlənilir.

Makroiqtisadi proqnozlara əsasən 2027-ci ildə ÜDM-in 2,7 faiz, qeyri-neft sektoru üzrə isə 4,4 faizlik real artım tempi proqnozlaşdırılır. Qeyri-neft sektorunun ÜDM-də payının cari ilin sonuna gözlənilən 72,5 faizdən 2030-cu ilin sonuna 82 faizə yüksələcəyi hədəflənir.

Ortaillik inflyasiyanın 2027-ci ildə 5,3 faiz təşkil edəcəyi gözlənilir.

Büdcə təkcə iqtisadiyyatın deyil, həm də dövlət siyasətinin güzgüsüdür

Hesab edirik ki, 2027-ci ilin büdcə zərfinin qiymətləndirilməsinə yalnız bu rəqəmlərdən başlamaq kifayət deyil. Əlbəttə, gəlirlər, xərclər, kəsir, dövlət borcu, transfertlər və digər göstəricilər çox vacibdir. Lakin əgər biz yalnız rəqəmlərə fokuslansaq, bunların arxasında dayanan dövlət siyasətini və iqtisadi strategiyanı görməyə bilərik.

Digər tərəfdən də nəzərə almalıyıq ki, büdcə öz-özlüyündə məqsəd deyil, ümumi dövlət siyasətinin həyata keçirilməsi üçün mühüm vasitədir. Bu o deməkdir ki, əvvəlcə dövlətin strateji hədəfləri müəyyən olunur. Bu hədəflər iqtisadi siyasətin prioritetlərini, iqtisadi prioritetlər isə büdcə siyasətinin əsas konsepsiyasını və məzmununu formalaşdırır.

Beləliklə, büdcə zərfi dövlətin yalnız gəlirləri və xərclərini, maliyyə öhdəliklərini deyil, həm də dövlətin strateji məqsədlərini əks etdirir. Obrazlı desək, dövlət büdcəsi milli iqtisadiyyatımızla yanaşı, bütövlükdə dövlət siyasətinin də güzgüsüdür.

Dövlətin ümumi siyasətinin əsas məqsədi isə ölkəmizin suverenliyinin, təhlükəsizliyinin və milli maraqlarının qorunmasından, davamlı və dayanıqlı inkişafın təmin edilməsindən, əhalinin rifahının yüksəldilməsindən ibarətdir.

Büdcə zərfi dövlətin faktiki statusunun, beynəlxalq arenadakı mövqeyinin, strateji missiyasının və hədəflərinin, inkişaf modelinin, ən əsası isə nüfuzu və gücünün rəqəmlərdə ifadəsidir. O, dövlətimizin siyasi, iqtisadi və sosial əsaslarının qarşılıqlı əlaqəsini və bir-biri ilə necə uzlaşdığını dəyərləndirməyə imkan verən əsas maliyyə sənədidir.

Şanlı Qələbəmiz dayanıqlı iqtisadiyyat qurmaq məsuliyyətini də yaratdı

Azərbaycan tamamilə yeni tarixi mərhələyə qədəm qoyub. Bu mərhələnin təməlində Müzəffər Ali Baş Komandanın müdrik rəhbərliyi, sərkərdə məharəti, şanlı ordumuzun döyüş qabiliyyəti, qəhrəman şəhid və qazilərimizin fədakarlığı, qətiyyəti sayəsində qazanılmış möhtəşəm Qələbəmiz dayanır.

Qələbə xalqımıza böyük qürur və fəxarət hissi yaşatmaqla, Azərbaycan tarixində şanlı səhifə, şərəfli yol açmaqla bərabər, qarşımızda böyük bir məsuliyyət də yaratmış oldu. Bu məsuliyyət yalnız siyasi və təhlükəsizlik məsələləri ilə məhdudlaşmır. Qələbədən sonrakı mərhələ eyni zamanda daha dayanıqlı və rəqabətqabiliyyətli milli iqtisadiyyat qurmaq əzmi və məsuliyyəti ilə bağlıdır.

2027-ci ilin büdcə zərfi ləyaqətli dövlətin maliyyə sənədidir

2027-ci ilin əsas maliyyə sənədini xarakterizə etməzdən əvvəl "Biz hansı büdcəni deyil, ilk növbədə hansı dövlətin büdcəsini müzakirə edirik?" sualına cavab verməliyik.

Bu sualın cavabı büdcə siyasətinin yalnız maliyyə göstəriciləri ilə məhdudlaşmadığını, müstəqil dövlətimizin müəyyənləşdirdiyi daha geniş strateji məqsəd və hədəflərə xidmət etdiyini daha dolğun ifadə edəcək, büdcə zərfinin siyasi-iqtisadi mahiyyətini və məzmununu aydın şəkildə açıqlamış olacaqdır.

Bir daha qürur və fəxarət hissi ilə vurğulamaq istərdik ki, biz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş, milli maraqlarını zərrə qədər də olsa güzəştə getməyən, qürurunu ləyaqətlə qoruyan, böyük iqtisadi potensiala və perspektivlərə malik bir dövlətin əsas maliyyə sənədini təqdim və müzakirə edirik.

Azərbaycan bu gün regional proseslərə təsir göstərən, müxtəlif güc mərkəzləri ilə bərabərhüquqlu əməkdaşlıq edən, çoxtərəfli platformalarda və beynəlxalq təşəbbüslərdə fəal iştirak edən dövlətdir. Elə bu xüsusiyyətləri ilə də ölkəmiz qlobal siyasi arenada "orta güc" statusuna malik nüfuzlu dövlət olaraq tanınır və qəbul olunur.

"Orta güc" dövlətinin büdcəsi böyük deyil, strateji büdcə olmalıdır

İqtisadi müstəvidə Azərbaycan yalnız strateji enerji resurslarına malik ölkə deyil, həm də həmin resursları regional əməkdaşlığın və iqtisadi inteqrasiyanın mühüm vasitəsinə çevirən, iqtisadi diplomatiyanın imkanlarından məharətlə istifadə edə bilən, iqtisadi müstəqilliyinə önəm verən dövlətdir.

Enerji ixracı infrastrukturu, Orta dəhliz, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat bağlantıları, Xəzər üzərindən logistika imkanları, ciddi perspektivə malik "yaşıl enerji" ixracı Azərbaycanın geoiqtisadi əhəmiyyətini onun nominal iqtisadi göstəricilərindən daha yüksək səviyyəyə qaldırır.

Bütün bunlar dövlət maliyyə sistemi və büdcə siyasəti üçün bir tərəfdən xüsusi tələblər müəyyən edir, digər tərəfdən də müəyyən gözləntilər yaradır. Belə ki, "orta güc" dövlətinin büdcəsi böyük büdcə deyil, strateji büdcə olmalıdır. Belə bir büdcə siyasi və iqtisadi müstəqilliyi qorumağa, xarici şoklara qarşı maliyyə ehtiyatları yaratmağa, milli təhlükəsizliyi təmin etməyə və gələcək iqtisadi potensialın formalaşdırılmasına xidmət etməlidir.

Deməli, "orta güc" yalnız mövcud resursları xərcləyən deyil, gələcək dövr üçün siyasi və iqtisadi güc formalaşdıran dövlətdir. Buna görə də 2027-ci ilin dövlət büdcəsi zərfinə daxil olan layihələr iqtisadi potensialın genişləndirilməsinə xidmət edən infrastruktur, nəqliyyat və logistika, enerji, rəqəmsallaşma, innovasiya, kənd təsərrüfatı kimi sahələr üzrə təşviqlərin tətbiqini nəzərdə tutur.

Maliyyə təhlükəsizliyi ilə müşayiət edilən büdcə zərfi

Şanlı Qələbəmizdən sonra milli təhlükəsizlik məsələləri öz aktuallığını itirmədiyi kimi, iqtisadi və maliyyə təhlükəsizliyi də dövlət siyasətinin mühüm prioritetləri olaraq qalır. Buna görə də vaxtdan və konyukturdan asılı olmayaraq maliyyə təhlükəsizliyimiz ən yüksək səviyyədə təmin edilməlidir. Bu baxımdan "orta güc" statusuna malik olan ölkəmiz üçün valyuta rezervləri, suveren fondlar, idarə olunan dövlət borcu, konservativ fiskal siyasət sadəcə büdcə planlaşdırılması deyil, iqtisadi təhlükəsizliyin ən təsirli maliyyə alətləridir.

Biz bu yanaşmanı hökumətin borc siyasətində də aydın görə bilərik. 2026-cı



ilin oktyabrın 1-nə olan məlumatlara əsasən xarici dövlət borcu cəmi 4,5 mlrd. dollar təşkil edir ki, bu da ÜDM-in 5,6 faizi həddindədir.

Ümumi həcmi 89,4 milyard dollara çatan strateji valyuta ehtiyatlarımız makroiqtisadi sabitliklə bərabər, Azərbaycan dövlətinin milli maraqlarımıza uyğun qəbul etdiyi suveren qərarları da dəstəkləyir. Bu məbləğ cari ilin sonuna gözlənilən 138 mlrd. manatlıq və ya 81,2 mlrd. dollarlıq ÜDM-in həcmini 10 faiz, xarici borcumuzu isə təxminən 20 dəfə üstələyir.

Azərbaycanın fövqəladə yüksək strateji ehtiyat təminatı göstərir ki, nəzəri olaraq ixracdan və digər xarici mənbələrdən valyuta daxilolmaları tam dayansa belə, mövcud rezervlərimiz ölkənin hazırkı səviyyədə mal və xidmət idxalını təxminən 40 ay, başqa sözlə, 3 il 4 ay maliyyələşdirə bilər. Bu isə beynəlxalq səviyyədə müəyyən edilmiş 3 aylıq minimum meyardan 13 dəfə artıq idxal təminatı deməkdir.

Xarici likvidlik və beynəlxalq ehtiyat yetərliliyi göstəricisi olan bu rezervlər də ölkəmizin təkcə xarici iqtisadi şoklara deyil, həm də xarici təzyiqlərə qarşı dayanıqlığını gücləndirir, milli valyutanın sabitliyinə mühüm dəstək verir və dövlətin beynəlxalq maliyyə öhdəliklərini yerinə yetirmək imkanlarını artırır.

Yetərli maliyyə ehtiyatlarından məsuliyyətli fiskal siyasətə

Burada bir prinsipial məsələni də vurğulamaq istərdik. Maliyyə təhlükəsizliyi yalnız ehtiyatların həcmi ilə deyil, həmin ehtiyatların qorunmasına xidmət edən məsuliyyətli fiskal siyasətlə də təmin olunur. Qeyri-neft sektorunun büdcə gəlirlərində payının 60 faizi keçməsi, o cümlədən Neft Fondundan büdcəyə transfertlərin tədricən azaldılması, növbəti ildə cari xərclərin 90 faizinin qeyri-neft gəlirləri hesabına qarşılanması hədəfi və büdcə qaydasına ciddi riayət edilməsi bunu bir daha təsdiqləyir.

Fiskal dayanıqlıq məsuliyyətli fiskal siyasətin prinsipi, büdcə konsolidasiyası isə onun əsas alətidir. Elə isə hər iki anlayışı nəzərdən keçirək.

Fiskal dayanıqlıq dövlətin orta və uzun müddətdə öz maliyyə öhdəliklərini yerinə yetirə bilməsi, borcun və büdcə kəsirinin idarəolunan səviyyədə saxlanması, eyni zamanda iqtisadi və sosial funksiyaların maliyyələşdirilməsinin təhlükə altına düşməməsidir. Başqa sözlə, söhbət təkcə bu ilin büdcəsinin balansından deyil, dövlət maliyyəsinin uzunmüddətli sağlamlığından gedir.

Fiskal konsolidasiya isə daha konkret prosesdir. O, büdcə kəsirinin, xərclərin və borclanma ehtiyacının nəzarətdə saxlanılması, neft gəlirlərindən və transfertlərdən asılılığın azaldılması, gəlir bazasının möhkəmləndirilməsi, xərclərin optimallaşdırılması və beləliklə, dövlət maliyyəsinin daha möhkəm mövqeyə keçirilməsidir. Deməli, konsolidasiya fiskal dayanıqlığın təmin edilməsinin əsas alətlərindən biridir.

Dövlət büdcəsi iqtisadi fəaliyyətin nəticəsidir

Təbii ki, dövlət büdcəsi iqtisadi fəaliyyətin nəticəsində formalaşır. Bizim müzakirə etdiyimiz növbəti ilin büdcə layihəsi, əslində, qanunla təsdiq ediləcək proqnozlar və gözləntilərdir. Bu proqnozların real xəzinəyə çevrilməsi isə milli iqtisadiyyatımızın yüksək fəallıq nümayiş etdirməsindən, iqtisadi potensialın tam reallaşdırılmasından və etibarlı gəlir bazasının yaradılmasından asılıdır.

Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi ilə başlanılmış və hazırda uğurla davam edən "yeni iqtisadi təşəbbüslər" də dövlətimizin iqtisadi dayaqlarının, maliyyə əsaslarının daha da möhkəmləndirilməsinə xidmət edir. Biz bu təşəbbüsləri və son illərdə reallaşdırılan iqtisadi transformasiyanı "yeni iqtisadiyyat quruculuğu" kimi dəyərləndirir və ifadə edir, elə bu terminologiya ilə də onun siyasi və iqtisadi leksikonumuza daxil olunmasını təklif edirik.

Qlobal geosiyasi risklər büdcə planlaşdırılmasında ehtiyatlı yanaşma tələb edir

Həmçinin 2027-ci ilin dövlət büdcəsi zərfinin, son illər həyata keçirilən fiskal siyasətin əsas xüsusiyyətlərini qeyd etmək istərdim.

Dövlət büdcəsi milli iqtisadiyyata aid maliyyə sənədi olsa da, onun formalaşmasına qlobal iqtisadi meyillər və beynəlxalq siyasi konyuktur mühüm təsir göstərir. Dünya iqtisadiyyatında artımın zəifləməsi, enerji qiymətlərinin dəyişkənliyi, geosiyasi risklər və borc öhdəlikləri üzrə faizlərin yüksəlməsi büdcə planlaşdırılmasında ehtiyatlı yanaşmanı zəruri edir.

Xüsusilə enerji bazarlarındakı vəziyyətə diqqət yetirilməlidir. 2027-ci ilin büdcə zərfində neftin bir barelinin orta illik qiyməti 65 dollar səviyyəsində götürülmüşdür. Hazırkı bazar qiymətlərinin bu göstəricidən təxminən 50 faizədək yüksək olması və davamlı dəyişməsi neftin büdcə qiymətinin artırılması ilə bağlı müəyyən gözləntilər yarada bilər.

Lakin dünya neft bazarında cari qiymətlərin yüksəlməsi dayanıqlı tələb amilləri ilə deyil, geosiyasi risklər və təklif məhdudiyyətləri ilə izah olunur. Bu baxımdan neftin orta illik proqnoz qiymətini ehtiyatlı büdcə planlaşdırması üçün əsaslı baza hesab edirik.

Müvəqqəti gəlirlərlə daimi xərcləri maliyyələşdirmək olmaz!

Digər bir məsələ əlavə neft gəlirlərinə münasibətlə bağlıdır. Bəzən bu cür fikirlər səslənir ki, neftin qiyməti yüksəkdirsə, əlavə gəlirlər niyə dərhal xərclənmir? Hesab edirik ki, bu suala fiskal dayanıqlıq prinsipi əsasında yanaşmalıyıq. Müvəqqəti gəlirlərlə daimi xərcləri maliyyələşdirmək, başqa sözlə, daimi xərc öhdəlikləri yaratmaq doğru yanaşma deyil. Çünki büdcə gəlirləri baxımından əlverişli görünən bazar konyukturu hər an dəyişə bilər.

Fiskal siyasət büdcə üçün əlverişli konyuktur şəraitində də məsuliyyətli və qənaət yönümlü olmalıdır. Dövlət maliyyə sistemində dayanıqlığın əsas sınağı böhranlı illər deyil, gəlirlərin yüksək olduğu dövrdür. Yüksək gəlir şəraitində bütün əlavə resursların xərclənməsi konyukturdan asılı olan fiskal siyasətə, bu da son nəticədə maliyyə risklərinə gətirib çıxarır. Belə ki, əlverişli konyukturda xərclər sürətlə artır, bazar şərtləri pisləşdikdə isə maliyyə imkanları daralır. Yeni büdcə siyasətinin əsas məqsədlərindən və prinsiplərindən biri məhz bu asılılığın azaldılmasıdır.

Büdcə zərfində əsaslı xərclərə 13,8 mlrd. manat, o cümlədən dövlət investisiyalarına 5,3 mlrd. manat vəsait nəzərdə tutulması fiskal dayanıqlıq üçün iqtisadi əsasların yaradılmasına xidmət edir.

(ardı var)

Azər ƏMİRASLANOV,
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri

Hasilatı artırmaq üçün laylar "canlandırılır"

Prezident İlham ƏLİYEV: "Neft və qaz hələ də ən cəlbedici investisiya sahələrindən biri kimi investisiyaların həcmi nöqteyi-nəzərindən ən böyük seqment olacaqdır"



"Azəri-Çıraq-Günəşli"dən (AÇG) hasilatın təbii azalma tempini idarə etmək və bu yataqlar blokundan maksimum neftverməyə nail olmaq məqsədilə tədbirlər davam edir. Bu tədbirlər dörd əsas istiqamət üzrə BP və SOCAR-ın əməkdaşlığı şəraitində həyata keçirilir.

Birgə səylər nəticəsində AÇG-də hasilatın illik azalma tempini 2023-cü ildəki təxminən 12 faizdən hazırda təxminən 3 faizə endirmək mümkün olub. Bu da sənaye üzrə orta göstəricidən əhəmiyyətli dərəcədə aşağıdır. Bu nəticə yetkin mərhələdə olan bu blokdan hasilatın uzunmüddətli davamlılığının təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlərin effektivliyini göstərir.

Prezident İlham Əliyev neft hasilatının sabitləşdirilməsini iqtisadi sahədə qarşıda duran vəzifələrdən biri kimi elan edib. Xüsusilə "Azəri-Çıraq-Günəşli" yataqlarında obyektiv səbəblərə görə hasilatın düşmə templərini qeyd edərək diqqəti onların sabitləşdirilməsinə yönəldib.

Hasilatı artırmağın şərtlərindən biri əməliyyat etibarlılığıdır. Hazırda AÇG təxminən 95 faiz əməliyyat səmərəliliyi və təxminən 99 faiz qurğu etibarlılığı ilə fəaliyyət göstərir. Bu göstəricilər həm BP daxilində, həm də sənaye üzrə ən yüksək göstəricilər sırasındadır.

Şərtlərdən biri də layların "canlandırılması"dır. Bunun üçün su və qazın laylara vurulması proqramları həyata keçirilir. Məsələn, 2025-ci ildə ümumilikdə 6 injektor quyusu qazılaraq istismara verilib və 2026-cı ilin sonunadək eyni sayda injektor quyusunun təhvil verilməsi nəzərdə tutulub.

Bu yaxınlarda "Mərkəzi Azəri" platformasında həyata keçirilmiş "Mərkəzi Azəri Qaz Genişləndirilməsi" (CAGE) layihəsi nəticəsində platformada qazın yenidən laylara vurulma gücü 20 faiz artırılıb ki, bu da mövcud quyulardan neftverməni maksimuma çatdırmağa kömək edir.

Layihə çərçivəsində platformadakı mövcud dörd qazvurma kompressoru əsaslı şəkildə modernləşdirilib. Bu işlər platformadakı əməliyyatların fasiləsizliyi təmin edilərək, yəni hasilatın dayandırılmasına və məşəldə əlavə qazın yandırılmasına ehtiyac olmadan yerinə yetirilib.

Layihə çərçivəsində həmçinin qazın yenidən laylara vurulması gücünün artırılmasına və əməliyyat çevikliyinin gücləndirilməsinə dəstək məqsədilə kompressorun giriş xəttindəki kollektor boru sistemində modifikasiyalar həyata keçirilib. Bu modifikasiyalar avqust ayında "Mərkəzi Azəri" platformasında aparılmış profilaktik işlər proqramı zamanı yerinə yetirilib və bunun ardınca layihə üzrə bütün qalan yekun işlər tamamlanıb.

Xatırladaq ki, hazırda AÇG-də 9 platforma - 7 hasilat platforması və 2 emal, qaz kompressiyası, suvurma və texnoloji platforma var. Bu platformalardan neft və səmt qazı Bakı yaxınlığında yerləşən, dünyanın ən böyük neft və qaz terminallarından biri olan Səngəçal terminalına nəql olunur.

AÇG-də ən son işə salınmış hasilat quyusu ACE platformasıdır. ACE texnoloji və rəqəmsal baxımdan BP-nin dünyada idarə etdiyi ən qabaqcıl platforma olaraq 2024-cü ilin aprel ayında hasilata başlayıb.

Platformanın innovativ layihələndirilməsi insan əməyi tələb edən prosesləri avtomatlaşdırmağa imkan verməklə əməliyyatların daha təhlükəsiz və səmərəli aparılmasını təmin edir.

Flora SADIQLI,
"Azərbaycan"

Bölgələrin real tələbatına uyğun inkişaf planları: 14 iqtisadi zonada təlimlərə start verildi

Noyabrın 23-dən 26-dək ev təsərrüfatlarının uçotunun elektron qaydada təşkilinə hazırlıq çərçivəsində Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, 14 iqtisadi zona üzrə yaşayış məntəqələrində qeydiyyat aparacaq şəxslər üçün təlimlərə başlanılıb.



AZƏRTAC xəbər verir ki, təlimlərə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat, Kənd Təsərrüfatı nazirliklərinin və Dövlət Statistika Komitəsinin mütəxəssisləri təlimçi qismində cəlb olunub. Təlimlərdə yerli icra hakimiyyəti orqanlarının, aidiyyəti dövlət qurumlarının nümayəndələri və ev təsərrüfatlarının uçotunu aparacaq şəxslər olmaqla, ümumilikdə, 6 mindən çox şəxs iştirak edəcək.

Təlimlərin əsas məqsədi uçotun yeni qaydalarının izah edilməsi, məlumatların tamlığının və dəqiqliyinin təmin olunması, planşetlərdən və elektron informasiya sistemindən istifadə üzrə kadr potensialının gücləndirilməsidir. Təlimlərdə qeyd olunub ki, 2027-ci ildən etibarən ev təsərrüfatlarının uçotu ilk dəfə olaraq "mygov" platformasında yaradılmış "Ev təsərrüfatları" altsistemi vasitəsilə tam elektron qaydada həyata keçiriləcəkdir. Uçot məlumatları vahid informasiya sistemində cəmləşdiriləcək, Elektron Hökumət İnformasiya Sistemi ilə inteqrasiya olunacaq. Bununla da vətəndaşlar ev təsərrüfatlarına dair məlumatları ilə "mygov" platforması üzərindən "bir pəncərə" prinsipi əsasında tanış olmaq imkanı əldə edəcəklər.

Ev təsərrüfatlarının uçotu əhalinin faktiki yaşayış şəraiti, ailə tərkibi, məşğulluğu, sosial vəziyyəti, torpaq sahələri və fərdi təsərrüfat fəaliyyəti barədə dolğun və etibarlı məlumatların əldə edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Uçot nəticəsində formalaşan məlumat bazası əhalinin real ehtiyaclarının müəyyənləşdirilməsinə, sosial müdafiə tədbirlərinin daha səmərəli təşkilinə, dövlət dəstəyinin ehtiyacı olan ailələrə ünvanlı şəkildə yönəldilməsinə və vətəndaşların rifahının yüksəldilməsinə xidmət edir.

Eyni zamanda uçot məlumatları yaşayış məntəqələrinin sosial-iqtisadi vəziyyətinin qiymətləndirilməsi, demoqrafik proseslərin öyrənilməsi, məşğulluq imkanlarının genişləndirilməsi, kənd təsərrüfatının inkişafı və regional infrastruktur layihələrinin real tələbat əsasında planlaşdırılması üçün mühüm informasiya mənbəyidir.

Uçotun "mygov" platforması üzərindən elektronlaşdırılması məlumatların keyfiyyətinin yüksəldilməsinə, dövlət informasiya sistemlərində mövcud olan məlumatlardan istifadə etməklə vətəndaşlardan eyni məlumatların təkrar tələb olunmasının azaldılmasına, uçot prosesinin daha operativ, şəffaf və səmərəli təşkilinə imkan verəcək. Bu yenilik, həmçinin dövlət xidmətlərinə əlçatanlığın artırılmasına, vətəndaşların inzibati yükünün azaldılmasına və əhalinin sosial-iqtisadi vəziyyətinə dair etibarlı informasiya bazasının formalaşdırılmasına xidmət edəcək.

Fərdi məlumatların işlənilməsi, istifadəsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun həyata keçiriləcək, onların təhlükəsizliyi və konfidensiallığı təmin olunacaq.

Milli ideologiyanın tarixi missiyası təkcə xalqın milli kimliyini qorumaqla məhdudlaşmamalı, eyni zamanda cəmiyyətin siyasi bütövlüyünü təmin etməli, dövlətçilik maraqlarını milli məqsədlər səviyyəsinə yüksəltməli və inkişafın strateji istiqamətlərini müəyyənləşdirməlidir. Azərbaycançılıq məfkurəsinin müasir Azərbaycan dövlətçiliyindəki yeri məhz bu çoxşaxəli funksiyası ilə səciyyələnir.



Müstəqil dövlətçiliyimizin təməl məfkurəsi azərbaycançılıqdır

Dövlətimizin başçısının "Azərbaycançılıq məfkurəsi bizim bütün uğurlarımızın təməlində dayanan fəlsəfədir" fikri də milli ideyanın dövlətin gücü, xalqın birliyi və ölkənin strateji inkişafı ilə üzvi bağlılığını ifadə edir. Azərbaycançılıq anlayışının mahiyyətində ilk növbədə Vətənə bağlılıq, milli mənsubiyyətlə qürur duymaq, dövlət müstəqilliyini qorumaq və ümummilli maraqları hər şeydən üstün tutmaq dayanır.

Azərbaycançılıq məfkurəsinin müstəqil dövlət quruculuğunun ideoloji təməli kimi formalaşdırılması Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərindəndir. Müstəqilliyimizin ilk illərində ölkənin üzləşdiyi siyasi böhran, daxili qarşıdurmalar, separatçılıq meyilləri və dövlətçiliyin ciddi təhlükələrlə üzləşməsi milli birliyin möhkəm ideoloji əsaslara söykənməsini zəruri edirdi. Belə mürəkkəb şəraitdə Ulu Öndər Heydər Əliyev Azərbaycan cəmiyyətini vahid amal ətrafında birləşdirən, dövlət müstəqilliyinin möhkəmləndirilməsinə xidmət edən azərbaycançılıq ideyasını dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirdi, milli kimliklə dövlətçilik düşüncəsini uzlaşdıraraq xalqımızın birliyinin ideoloji əsaslarını yaratdı. Ulu Öndərin 2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının I Qurultayında səsləndirdiyi "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır" fikri bu məfkurənin mahiyyəti idi.

Bu gün həmin ideoloji xətt Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni tarixi şəraitdə ardıcıl davam edir. Dövlətimizin başçısı Ulu Öndər Heydər Əliyevin siyasi irsini yaşatmaqla yanaşı, azərbaycançılıq məfkurəsini müasir Azərbaycanın inkişaf strategiyasının mühüm dayaqlarından birinə çevirib. Prezidentin bu məsələyə münasibəti 8 Noyabr - Zəfər Günü münasibətilə xalqa təbrikində səsləndirdiyi fikirlərdə xüsusilə aydın ifadə olunub: "Azərbaycançılıq bütün vətəndaşlarımızı birləşdirən fəlsəfədir. Azərbaycançılıq bizi irəliyə aparan məfkurədir". Prezidentin vurğuladığı kimi, ölkəmizdə bütün etnik qrupların və dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bizi birləşdirən isə vətəndaşlıq, həmrəylik və azərbaycançılıq məfkurəsidir. Dövlətimizin başçısının bu yanaşması göstərir ki, milli birlik tarixi yaddaşımızın deyil, həm də müasir dövlət quruculuğumuzun əsas şərtidir.

Prezident İlham Əliyevin azərbaycançılıq ideyasına sadiqliyi onun dünya azərbaycanlıları ilə bağlı siyasətində də özünü göstərir. Dövlətimizin başçısı xaricdə yaşayan soydaşlarımızın ölkəmizlə əlaqələrinin möhkəmlənməsinə, diaspor təşkilatlarının fəaliyyətinin gücləndirilməsinə, milli maraqlarımızın beynəlxalq müstəvidə müdafiəsinə xüsusi əhəmiyyət verir. "Mən hər bir azərbaycanlının Prezidentiyəm" prinsipinin ifadə etdiyi siyasi yanaşma da bu baxımdan diqqətəlayiqdir. Azərbaycan haradа yaşamasından asılı olmayaraq, hər bir soydaşının mənəvi Vətənidir. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın milli kimliyini qoruması, dilimizə və mədəniyyətimizə sahib çıxması, tarixi Vətənlə əlaqələrini möhkəmləndirməsi ümummilli həmrəyliyin mühüm göstəricisidir.

Azərbaycançılıq məfkurəsinin real birləşdirici gücü 2020-ci ildə Vətən müharibəsi zamanı bütün aydınlığı ilə üzə çıxdı. 44 günlük müharibə xalqımızın milli iradəsinin, dövlətə sədaqətinin və Vətən sevgisinin möhtəşəm təntənəsi oldu. Həmin günlər ölkə daxilində yaşayan milyonlarla insan kimi dünyanın müxtəlif ölkələrindəki soydaşlarımız da vahid amal ətrafında birləşdilər, Azərbaycanın haqq səsini müdafiə etdilər, informasiya mübarizəsinə qoşuldular, ölkəmizə qarşı aparılan qərəzli kampaniyalara etirazlarını bildirdilər. Coğrafi məsafələr, fərqli həyat şəraiti və sosial mühit bu həmrəyliyə mane ola bilmədi. Hər kəsin düşüncəsində və fəaliyyətində bir məqsəd vardı - Azərbaycanın ərazi bütövlüyünün bərpası və tarixi ədalətin təmin olunması.

Müharibə dövründə xalqımızın "dəmir yumruq" ətrafında sıx birləşməsi azərbaycançılığın təkcə ideoloji anlayış deyil, həm də milli gücə çevrilmiş canlı məfkurə olduğunu nümayiş etdirdi. Təbii ki, tarixi Zəfərin əsasını Müzəffər Ali Baş Komandanın qətiyyətli rəhbərliyi, rəşadətli ordumuzun qəhrəmanlığı və xalqımızın sarsılmaz iradəsi təşkil edirdi. Bütün bu qüvvələri vahid məqsəd ətrafında səfərbər edən, xalqımızın mübarizə əzmini daha da gücləndirən mənəvi dayaqlardan biri də məhz azərbaycançılıq məfkurəsi idi. 44 günlük Vətən müharibəsi sübut etdi ki, milli birlik, dövlətə inam və ortaq amal ətrafında səfərbərlik xalqın ən böyük güc mənbəyidir.

Zəfərdən sonra Azərbaycanın qarşısında yeni tarixi vəzifələr dayanır. İşğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq işləri, "Böyük qayıdış" proqramı, iqtisadi potensialımızın artırılması, beynəlxalq mövqelərimizin möhkəmləndirilməsi və müasir dövlət quruculuğunun davam etdirilməsi vahid milli məqsəd ətrafında birliyin qorunmasını tələb edir.

Bu gün azərbaycançılıq həm də quruculuq, məsuliyyət, milli maraqlara sədaqət və gələcək nəsillər qarşısında mənəvi borc deməkdir. Ana dilimizi qorumaq, tariximizi öyrənmək, mədəni irsimizə sahib çıxmaq, dövlət rəmzlərimizə ehtiram göstərmək bu məfkurənin gündəlik həyatımızdakı təzahürləridir.

Prezident İlham Əliyevin səsləndirdiyi "Azərbaycançılıq məfkurəsi bizim bütün uğurlarımızın təməlində dayanan fəlsəfədir" fikrinin mahiyyəti də məhz bu tarixi vəhdətdə üzə çıxır. Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi ilə müstəqil dövlətimizin ideoloji təməlinə çevrilən azərbaycançılıq Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni dövrün çağırışlarına uyğun zənginləşərək milli inkişafımızın istiqamətverici qüvvəsi kimi çıxış edir. Azərbaycançılıq məfkurəsi bizi tariximizə bağlayır, bu günümüzlə birləşdirir, sabahımıza inamla aparır.

Elşən QƏNİYEV,
"Azərbaycan"

● Ötən həftənin iqtisadi icmalı

Sənaye, innovasiya və investisiya gündəmində yeniliklər

Həftənin ilk günü Azərbaycanda sənaye müəssisələrinin texnoloji inkişafı, rəqəmsallaşma və " yaşıl transformasiya" istiqamətində əməkdaşlığın genişləndirilməsi diqqət mərkəzində olub. İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) və Türkiyənin "MEXT Texnologiya Mərkəzi"nin təşkilatçılığı ilə "Digital Impact 2026" tədbiri keçirilib. Tədbirdə texnoloji və "yaşıl transformasiya"nın müəssisələrin məhsuldarlığına və rəqabət qabiliyyətinə təsiri, eləcə də süni intellekt texnologiyalarının sənayedə tətbiqi müzakirə edilib.

Tədbir çərçivəsində Türkiyənin sənaye müəssisələrinin rəqəmsal və "yaşıl transformasiyası" üzrə təcrübəsi təqdim edilib, SOCAR Karbamid zavodu, "Azerfloat", "Veysəloğlu" və "Azərsun Holdinq" şirkətləri öz transformasiya təcrübələrini bölüşüblər.

❖ ❖ ❖

Noyabrın 17-də Milli Məclisdə dövlət büdcəsi, sosial fondların büdcələri və sosial göstəricilərlə bağlı qanun layihələri birinci oxunuşda qəbul olunub. 2027-ci ildə əmək pensiyalarının orta aylıq məbləğinin 640 manat olacağı proqnozlaşdırılır. Məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müxtəlif müavinətlərin maliyyələşdirilməsi üçün isə 281 milyon manat vəsait nəzərdə tutulub.

Bundan başqa, gələn il üçün yaşayış minimumunun ölkə üzrə 314 manat, əmək qabiliyyətli əhali üçün 334 manat, pensiyaçılar üçün 258 manat, uşaqlar üçün 274 manat müəyyən edilməsi təklif olunub. Dövlət büdcəsində əməkhaqqı və sosial ödənişlərin artırılmasını nəzərdə tutan növbəti - 6-cı sosial islahat paketi üçün də maliyyə təminatı yaradılıb.

Azərbaycanın nüfuzlu beynəlxalq texnologiya sammiti olan "Web Summit 2026" tədbirində iştirakı ötən həftənin diqqətçəkən hadisələrindəndir. Ölkəmiz Portuqaliyanın Lissabon şəhərində keçirilən sammitdə ilk dəfə milli pavilyonla iştirak edib.

Pavilyonda "AzInTelecom", "Azercosmos", "Polygraf AI", "Simbrella", "R.I.S.K. Company" və digər yerli şirkətlər süni intellekt, maliyyə texnologiyaları, kibertəhlükəsizlik, bulud xidmətləri, peyk texnologiyaları və innovativ yenilikləri beynəlxalq auditoriyaya təqdim ediblər.

Sammit çərçivəsində Azərbaycanın texnologiya şirkətlərinin xarici bazarlara çıxışı, investisiyaların cəlb edilməsi, beynəlxalq tərəfdaşlıqların qurulması və xarici şirkətlərin yerli texnoparklara cəlb olunması müzakirəyə çıxarılıb. Görüşlərdə ölkənin yeni texnopark və vençur qanunvericiliyinin startaplar üçün açdığı perspektivlər qeyd olunub.

❖ ❖ ❖

Beynəlxalq təcrübə mübadiləsi çərçivəsində Azərbaycan və Qazaxıstan arasında aqrar sahədə əməkdaşlıq məsələləri ötən həftənin gündəmində yer alıb. Hər iki ölkə arasında aqrar sahədə bilik və təcrübə mübadiləsi aparılıb. Bu çərçivədə Kənd Təsərrüfatı Nazirliyində Qazaxıstanın müxtəlif dövlət qurumlarında çalışan 19 dövlət qulluqçusu qəbul edilib. Görüşdə Azərbaycanda aqrar sektorun inkişafı, 2026-2030-cu illər üçün dövlət proqramının hədəfləri, kənd təsərrüfatının rəqəmsallaşdırılması, Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin (EKTİS) tətbiqi və aqrar startaplara dəstək mexanizmləri barədə məlumat verilib.

Tədbirdə Azərbaycan və Qazaxıstan arasında aqrar idarəetmə, dövlət siyasəti və innovativ texnologiyaların tətbiqi üzrə təcrübə mübadiləsi aparılıb.

❖ ❖ ❖

Ötən həftə sənaye parklarına investisiya qoyuluşu və yeni istehsal layihələrinin həyata keçirilməsi ilə bağlı daha bir qərar qəbul edilib. "Vertus Engineering CO" MMC-yə Ağdam Sənaye Parkının rezidenti statusu verilib. Şirkət parkın ərazisində 22 milyon manat investisiya dəyəri olan layihə çərçivəsində müxtəlif növ lift və eskalatorların, yanğına davamlı qapıların və məişət avadanlıqlarının istehsalını təşkil edəcək.

Qeyd edək ki, Ağdam Sənaye Parkının rezidentləri 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergisindən, istehsal avadanlıqlarının idxalı isə ƏDV və gömrük rüsumlarından azaddır.

❖ ❖ ❖

Həftə ərzində Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişləndirilməsi istiqamətində yeni təşkilati təşəbbüs həyata keçirilib. Azərbaycan ilə Afrika ölkələri arasında ticarət, investisiya və sosial əlaqələrin inkişafını hədəfləyən "Azərbaycan-Afrika İqtisadi və Sosial Əlaqələr Assosiasiyası" İctimai Birliyi təsis edilib. Assosiasiyanın sədri Rəna Qəfərova seçilib.

Yeni qurum Azərbaycan sahibkarlarının Afrika bazarlarına çıxışını təşviq etməyi, biznes-forumları və işgüzar missiyaları həyata keçirməyi, eləcə də qarşılıqlı investisiya imkanlarını genişləndirməyi hədəfləyir. Assosiasiya 2023-cü ildən fəaliyyət göstərən "Africa-Azerbaijan Cooperation" (AFAZ) platformasının bazasında formalaşıb. Platforma indiyədək Afrika ölkələrində biznes-forumların keçirilməsi, Azərbaycan şirkətlərinin beynəlxalq sərgilərdə iştirakı və xarici nümayəndə heyətlərinin Azərbaycana səfərlərinin təşkili istiqamətində fəaliyyət göstərib.

❖ ❖ ❖

Həftənin son günlərində regionlarda sahibkarlığın və yerli istehsalın təşviqinə yönəlmiş tədbir Gəncədə təşkil olunub. Şəhərdə ilk dəfə keçirilən "Regional Expo Gəncə 2026" sərgisində 112 müəssisə, məhsul və xidmətlər təqdim olunub.

İki gün davam edən sərgidə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi istehsal etdiyi avtomobillər, traktorlar və kənd təsərrüfatı texnikaları ilə iştirak edib. Nümayiş olunan məhsullar arasında 100 faiz yerli istehsal olan bunker hissəli kommunal avtomobil, maye daşıyan iritonnajlı maşınlar, kommunal təyinatlı traktorlar və qoşqular yer alıb.

Sərginin əsas məqsədi regionlarda sahibkarlığın inkişafına, yerli məhsulların tanıdılmasına və biznes əlaqələrinin genişləndirilməsinə dəstək göstərməkdir.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

Ermənistan tarixi sınaq qarşısındadır

Yekun sazişin imzalanması üçün yeni konstitusiya layihəsinin qəbul edilməsi vacibdir, əks halda sülh gündəliyi dalana dirənəcək

Ermənistanda ölkənin siyasi gündəmini kökündən dəyişən və regional münasibətlərdə yeni dövrün əsasını qoyan konstitusiya islahatları rəsmi müstəviyə keçib. Baş nazir Nikol Paşinyan sosial şəbəkə hesabında yeni yaradılmış xüsusi veb-sayt vasitəsilə ölkənin yeni konstitusiya layihəsini ictimaiyyətə təqdim edib və bu mühüm hadisə ilə bağlı xalqa müraciət ünvanlayıb.



Rəsmi İrəvanın bu addımı təkcə daxili qanunvericilik islahatı deyil, eyni zamanda Azərbaycanla yekun sülh müqaviləsinin imzalanması yolundakı əsas hüquqi maneənin aradan qaldırılması baxımından həlledici dönüş nöqtəsi kimi qiymətləndirilir. Bu ali sənədin dərc olunması regionda yeni siyasi reallıqların formalaşdığını və Ermənistanın köhnə ideoloji buxovlardan xilas olmaq niyyətini açıq şəkildə nümayiş etdirir. Hökumət yeni qanunvericiliyin qəbulunu dövlətçilik əsaslarının möhkəmləndirilməsi və sənədin həqiqətən xalqın iradəsinin ifadəsinə çevrilməsi ilə izah edir. Bu yanaşmaya görə, dövlət hakimiyyətinin yeganə mənbəyi xalq olmalı, vətəndaşlar idarəçiliyə nəzarət imkanına malik olmalıdırlar. Bununla yanaşı, yeni konstitusiya konsepsiyası Ermənistanda milli kimliyin inkişafında köklü dəyişikliyi də hədəfləyir.

Layihədə diqqətçəkən mühüm və tarixi məqam Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarının yer aldığı 1990-cı il Müstəqillik Bəyannaməsinə istinadın yeni konstitusiya mətnindən tamamilə çıxarılmasıdır. Məlum olduğu kimi, rəsmi Bakı yekun sülh sazişinin imzalanması üçün məhz bu revanşist müddəanın Ermənistan konstitusiyasından çıxarılmasını əsas şərt kimi irəli sürmüşdü. İrəvanın bu tələbi nəzərə alaraq yeni mətni ərazi iddialarından təmizləməsi regionda uzunmüddətli sabitliyin təmin edilməsi istiqamətində atılmış praqmatik addımdır.

Nikol Paşinyan xalqa müraciətində mövcud konstitusiyanın legitimlik böhranına toxunaraq, indiyədək keçirilmiş referendumların cəmiyyət tərəfindən qəbul edilmədiyini açıq şəkildə etiraf edib. Hökumət başçısı vətəndaşla dövlət arasındakı hüquqi uçurumu aradan qaldırmağın vacibliyini vurğulayaraq bildirib: "Yeni konstitusiyanın qəbulu ilə vətəndaşla ölkədə formalaşmış hüquq qaydası arasında üzvi yeni əlaqə yaratmağımız lazımdır". Mövcud qanunların xalqın real iradəsinə söykənmədiyini qeyd edən baş nazir sözlərinə belə davam edib: "Amma vətəndaşla ölkədə formalaşmış hüquqi qaydalar arasında üzvi əlaqə mövcud deyil. Bunun səbəbi isə əvvəlki bütün konstitusiyaların ictimaiyyətin geniş şəkildə qəbul etdiyi formada, vətəndaşların azad iradə ifadəsi ilə qəbul edilməməsidir. Bu referendumların nəticələri saxtalaşdırılıb".

Bu etiraf Ermənistanda köhnə siyasi sistemin qeyri-legitimliyinin rəsmi səviyyədə təsdiqi olmaqla yanaşı, yeni konstitusiyanın şəffaf və ümumxalq səsverməsi yolu ilə qəbulunun nə dərəcədə zəruri olduğunu ortaya qoyur.

Müraciətin əsas siyasi xəttini yeni konstitusiyanın qəbulundan dərhal sonra Azərbaycanla sülh sazişinin imzalanması və ratifikasiya edilməsi vədi təşkil edir. Paşinyan sülhün artıq əlçatan olduğunu və Ermənistanın xarici siyasət fəlsəfəsinin kökündən dəyişdiyini bəyan edərək deyib: "Yeni konstitusiya layihəsinin 8-ci maddəsində Ermənistan Respublikasının xarici siyasətinin məqsədinin sülhün təmin edilməsi olduğu təsbit edilir. Bu, tarixi əhəmiyyət daşıyan müddəadır. Bununla, bəli, 1990-cı il avqustun 23-də qəbul edilmiş Müstəqillik Bəyannaməsinin məntiqindən, yəni münaqişə məntiqindən imtina edilir". Cəmiyyətdə yarana biləcək manipulyasiyaların qarşısını almağa çalışan hökumət başçısı bu addımın kənar təzyiqlərlə deyil, məhz Ermənistanın öz dövlətçilik maraqları naminə atıldığını xüsusi qeyd edib. Bu fikirlər Ermənistanın onilliklər boyu xarici güclərin əlində alət və ya "forpost" kimi istifadə olunması siyasətindən imtina edərək, qonşularla dinc yanaşı yaşayan dövlət qurmaq niyyətindən xəbər verir.

Bununla belə, yekun sülhə aparan bu tarixi prosesin reallaşması həm Ermənistan cəmiyyətinin, həm də siyasi qüvvələrin referendumda "hə" deməsindən bilavasitə asılıdır. Xalqın yeni konstitusiyaya dəstək verməsi təkcə hüquqi islahat deyil, həm də müharibə və təcrid siyasətinin birdəfəlik rədd edilməsi anlamına gəlir. Prosesin parlament mərhələsində isə müxalifətin konstruktiv mövqe tutması həyati əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, Paşinyan sülhə gedən yolda yeganə əngəl kimi məhz parlament müxalifətini görür və cəmiyyətin bu maneəni aşacağına əminliyini ifadə edərək bildirir: "Sülh prosesini yekunlaşdırmaq yolunda irəliləyirik. Bu yolda kiçik maneə var - parlament müxalifəti. Heç bir şübhəm yoxdur ki, Ermənistan xalqı bu maneəni dəf edəcək".

Baş nazir müxalifəti siyasi məsuliyyəti bölüşməyə və referendumun keçirilməsi üçün parlamentdə çatışmayan səsləri təmin etməyə çağıraraq, siyasi karyerasını bu prosesin girovuna çevirən təklif irəli sürüb: "Əgər xalq yeni konstitusiyaya qarşı səs versə, yəni arqumentlərim ictimaiyyətimizi inandırmasa, referendumun nəticələrinin rəsmi elanından sonra bir həftə ərzində istefa verəcəyəm". Paşinyan həmçinin rəsmi şəkildə bəyan edib ki, yeni konstitusiya qəbul edilərsə, baş nazir vəzifəsinə namizədliyini irəli sürməyəcək. Bu bəyanat Ermənistan müxalifətini siyasi seçim qarşısında qoyur. Əgər müxalifət həqiqətən Paşinyanın hakimiyyətdən getməsini istəyirsə, yeganə yol referendumun keçirilməsinə razılıq verməkdir ki, bu da istənilən nəticə ilə ölkəni yeni siyasi reallığa aparacaq.

Konstitusiya islahatları və sülh gündəliyi ilə paralel şəkildə regionda iqtisadi və nəqliyyat inteqrasiyasını nəzərdə tutan konkret praktik addımların atılması da prosesin ciddiliyini artırır. Ermənistan hökumətinin TRIPP layihəsi ilə bağlı beşillik Fəaliyyət Planını təsdiqləməsi və layihənin icrasına start verməsi regional arxitekturanın kağız üzərindən reallığa keçdiyini göstərir. Artıq hökumət tərəfindən TRIPP layihəsi çərçivəsində ilkin hazırlıq işləri üçün vəsait ayrılıb. ABŞ-nin nüfuzlu AECOM mühəndislik və konsaltinq şirkəti isə dəmir yolu əlaqəsinin texniki-iqtisadi əsaslandırılması üzrə ilkin tədqiqatın nəticələrini Ermənistan baş nazirinin müavini Mqer Qriqoryana təqdim edib. ABŞ-nin bu prosesdə texniki və siyasi səviyyədə fəal iştirakı layihənin beynəlxalq zəmanət altında icra olunduğunu və regional nəqliyyat dəhlizlərinin açılmasının geridönməz xarakter aldığını təsdiqləyir.

Proseslərin təhlili göstərir ki, Ermənistan hazırda öz tarixinin həlledici yolayrıcındadır. Yeni konstitusiya layihəsinin dərc edilməsi, Müstəqillik Bəyannaməsinin münaqişə məntiqindən imtina olunması və TRIPP kimi irimiqyaslı regional kommunikasiya layihələrinin icrasına başlanılması Cənubi Qafqazda davamlı sülh və iqtisadi tərəqqi üçün real zəmin yaradır. İndi əsas söz Ermənistan cəmiyyətinin və siyasi elitasınındır. Referendumda veriləcək "hə" cavabı bütövlükdə regionun taleyini müəyyən edəcək və Cənubi Qafqazı qarşıdurma meydanından əməkdaşlıq və sülh mərkəzinə çevirəcək.

İsmayıl QOCAYEV,
"Azərbaycan"

"Yoldaş" rəqəmsal mütaliə dostu...

Azərbaycanda həyata keçirdiyi sosial layihələrini öz əsas əməliyyatlarının ayrılmaz tərkib hissəsi sayan əməliyyatçı BP şirkəti bu qəbildən olan daha bir təşəbbüsünü başa çatdırıb. Bu, oxu mədəniyyətinin təşviqinə və mütaliə imkanlarının artırılmasına yönəlmiş sosial sərmayə layihəsidir.

Layihə çərçivəsində "Yoldaş" innovativ rəqəmsal mütaliə platforması yaradılıb. Platforma insanlara yolda olarkən və ya gözləmə müddətində qısa hekayə və məqalələri rahat və ödənişsiz şəkildə oxumağa imkan verir və gün ərzindəki boş vaxtları mütaliə fürsətinə çevirir.

Platformaya mobil tətbiq yükləməyə və ya qeydiyyatdan keçməyə ehtiyac olmadan xüsusi hazırlanmış QR kodlar vasitəsilə birbaşa daxil olmaq mümkündür. Kodu oxutduqdan sonra istifadəçilər mütaliə üçün ayırmaq istədikləri vaxtı qeyd edib həmin müddət ərzində oxuya biləcəkləri qısa məzmunlu materiallar arasından seçim edə bilərlər.

Yeni istifadəyə verilmiş platformada hazırda Azərbaycan ədəbiyyatı nümunələri və xarici müəlliflərin Azərbaycan dilinə tərcümə edilmiş əsərləri də daxil olmaqla təxminən 200 qısa hekayə və məqalə yer alır. Platforma eyni vaxtda çox sayda istifadəçiyə xidmət göstərmək üçün tam sınaqdan keçirilib.

Platformanın ilkin mərhələdə Bakı Metropolitenində, gələcəkdə isə ölkə ərazisində avtobus, taksi və qatarlarda, eləcə də klinikalarda, banklarda, xidmət mərkəzlərində və insanların sıx toplaşdığı digər ictimai məkanlarda istifadəyə verilməsi nəzərdə tutulur.

BP-nin Xəzər, Mərkəzi Asiya və Türkiyə regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "Azərbaycanın zəngin ədəbi irsi və dərin mütaliə ənənələri var. Bu layihə də gündəlik həyatımızda ədəbiyyatı hər kəs üçün daha əlçatan etməklə həmin ənənəni yaşatmağa və davam etdirməyə töhfə verir… Gün ərzində hamımızın yolda olarkən, yaxud nəyisə gözləyərkən bir neçə dəqiqə boş vaxtımızın olduğu məqamlar olur. "Yoldaş" platforması da məhz bu anları mütaliəyə ayırmağa imkan yaradır. Ümid edirik ki, bu platforma daha çox insanı, xüsusilə də gəncləri yeni müəlliflər və əsərlərlə tanış olmağa təşviq edəcək və onların ədəbiyyata marağını daha da gücləndirəcək".

Layihənin ümumi dəyəri rəqəmsal platformanın hazırlanması, məzmunun seçilməsi, redaktə və korrektə işləri, eləcə də xarici əsərlərin tərcüməsi daxil olmaqla 86 min 350 manatdır.

"Azərbaycanda biz ən çox töhfə verə biləcəyimizə inandığımız sahələrə yönəltməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək vermək öhdəliyi götürmüşük", - deyə BP aldığımız xəbərdə bir daha vurğulayır.

Xatırladaq ki, BP şirkəti Azərbaycanda 34 ildir neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin əməliyyatçısıdır. Bu layihələrin icrasını təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirir. Şirkət bu vaxtadək öz tərəfdaşları ilə birlikdə ölkədə icraçısı olduğu layihələrə 89 milyard dollardan çox sərmayə qoyub.

BP-nin ölkəmizdə həyata keçirdiyi geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səyləri insanlara əhəmiyyətli faydalar gətirib. Şirkətin sosial sərmayələri yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəlib.

Fəaliyyətə başladığı vaxtdan indiyədək BP özü və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkədəki sosial sərmayə layihələrinə ümumilikdə 115 milyon dollardan çox vəsait xərcləyib.

Flora SADIQLI,
"Azərbaycan"



Vətən deyəndə...



● Vətən üçün doğulanlar

20 yaşı bir neçə ay idi tamam olmuşdu...

Yaşadığımız həyatda elə insanlar da var ki, ömürləri qısa olsa da, xeyirxah əməlləri, igidlik və qəhrəmanlıqları ilə xalqının yaddaşında pozulmaz izlər qoyaraq əbədiyyətə qovuşur, göstərdikləri cəsarətləri ilə özlərindən sonrakı nəsillərə örnək olur, vətəni, torpağı qorumağın, xalqı insanlara sevdirməyin nümunəsini yaradırlar. Torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş Kərimov Ceyhun Allahverdi oğlu da belə cəsur oğullardan idi.



O, 14 sentyabr 1973-cü ildə Ağdamda dünyaya göz açıb. 7 yaşına çatanda valideynlərinin əlindən tutaraq sevinə-sevinə şəhərdəki 6 nömrəli məktəbə gedib, dərslərindən yüksək qiymətlər alaraq atası Allahverdini, anası Rəxşəndəni sevindirib. Beləcə, xoşbəxtliklə dolu günlər, həftələr, aylar, illər bir-birinin ardınca düzülərək keçib. Hiss olunmadan keçən bu illər ərzində Ceyhun yavaş-yavaş böyüyüb, böyüdükcə həyatı daha dərindən anlayıb. Hələ kiçik yaşlarından mühəndis olmaq istəyib. Arzusuna qovuşmaq üçün orta təhsilini başa vurduqdan sonra indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə üz tutub, tələbə adı qazanıb. Universitetdə biliklərə yiyələndikcə oxumağa həvəsi daha da artıb. Özünü gələcəkdə savadlı, bacarıqlı mühəndis kimi görüb. Amma erməni işğalçılarının Qarabağa hücumu bu arzunun üstündən xətt çəkib. Qarabağda müharibə getdiyi bir vaxtda o, Bakıda rahat yaşamağı, arın-arxayın oturub təhsil almağı özünə sıxışdırmayıb. Buna görə də 3-cü kursda təhsilini yarımçıq qoyaraq cəbhəyə yollanıb.

Ceyhunun Qarabağa döyüşə getdiyini görən böyük qardaşı Hilal da ona qoşulur. Beləcə, Ceyhun və Hilal qol-qola verərək könüllü olaraq döyüşlərə atılırlar. Ceyhunun döyüş yolu daha çox Ağdamın kəndlərindən başlayır. O, Abdal-Gülablı, Sırxavənd, Qazançı, Əmrallar, Mərzili kəndləri, həmçinin başı buludlara söykənən Fərrux dağı uğrunda gedən döyüşlərdə iştirak edir.

Vətəni canından da çox sevən Ceyhun Kərimov cəsur döyüşçü olmaqla bərabər, həm də nümunəvi əsgər kimi silahdaşlarına dayaq duran, onları qələbəyə ruhlandıran bacarıqlı kəşfiyyatçı idi. Qorxmaz döyüşçü düşmənin mövqelərini nəzarətdə saxlayır, işğalçıların bütün hərəkətlərini diqqətlə izləyir, qələbəyə xidmət edən zəruri məlumatları vaxtlı-vaxtında komandanlığa çatdırırdı. Çox keçmirdi ki, onun verdiyi kəşfiyyat məlumatları əsasında işğalçıların döyüş maşınları və canlı qüvvəsi məhv edilirdi.

Gərgin keçən əməliyyatların birində - düşmən Mərzili kəndini ələ keçirməyə çalışanda Ceyhun Kərimov 12 hərbçi ilə çiyin-çiyinə verərək kömək gələnə qədər 4 saat ərzində bu yaşayış məntəqəsini işğalçılardan qorumuşdu. Ağır yaralanmış komandirini xilas edərkən özü də düşmən gülləsinə tuş gəlmişdi.

1993-cü il yanvarın sonları idi. Erməni işğalçılarının Ağdam istiqamətindəki hücumları daha da güclənmişdi. Düşmən rayonun kəndlərini işğal edə-edə irəliləyirdi. Yurdumuzun keşiyində dayanan oğullar isə bütün qüvvələrini səfərbər edərək işğalçıların hücumlarının qarşısını almağa, yurdumuzu müdafiə etməyə çalışırdılar. Bir dəqiqə də olsun silahlar susmur, atəş səsləri kəsilmirdi. Düşmənin qarşısı bir istiqamətdə alınanda, başqa səmtdən hücuma keçirdi. Gündən-günə vəziyyət gərginləşirdi.

1993-cü il yanvarın 24-də Qaraqaya uğrunda ağır döyüşlər gedirdi. İşğalçılar addım-addım irəliləməyə can atırdılar. Döyüşçülərimiz mövqelərində möhkəmlənərək onlara ciddi müqavimət göstərirdilər. Ceyhun həmişəki kimi ön sıralarda idi. Döyüşlərin qızğın çağında işğalçılar onların mövqeyini minaatanlardan atəşə tutdular. Mərmilərdən biri Ceyhunun yaxınlığına düşdü. O, cəld hərəkətlə yerə uzanıb qəlpələrdən yayınmağa çalışdı. Amma mümkün olmadı, qəlpələr onu haqladı. 20 yaşlı əsgər Ceyhun Kərimov şəhid oldu. Ertəsi gün - yanvarın 25-də yaxınlarının, doğmalarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Ağdamdakı Şəhidlər xiyabanında torpağa tapşırıldı.

Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olan oğullar heç vaxt unudulmur, həmişə ehtiramla xatırlanır, adları əbədiləşdirilir. Şəhid Ceyhun Kərimovun da adı əbədiləşdirilib. Bir vaxtlar oxuduğu Ağdam şəhər 6 nömrəli orta məktəb indi onun adını daşıyır.

Qardaşı şəhid olandan sonra Hilal Kərimov silahını yerə qoymadı, döyüş yolunu davam etdirdi. Təəssüflər olsun ki, 1996-cı ildə o da baş verən qəza nəticəsində dünyasını dəyişdi. İki şəhid anası Rəxşəndə xanım deyir ki, torpaqlarımızın azadlığı uğrunda döyüşmüş övladları ilə fəxr edir, qürur duyur: "Şükürlər olsun ki, bu gün Qarabağ, Ağdam azaddır. Uzun illərdən sonra Ceyhunumun məzarını ziyarət etdim, ürəyim rahatlandı. İndi bütün şəhidlərimizin ruhu şaddır".

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"

● Ölməzliyə qovuşanlar

Son nəfəsədək Vətən uğrunda...

Hərbçi olmaq uşaqlıq arzusu idi. İstəyirdi ki, böyüyüb tankçı olsun, qəhrəmanlıq göstərsin, Vətən torpaqlarını düşməndən azad etsin.



Elçin Süleymanov 1991-ci il noyabrın 29-da Füzulinin Böyük Bəhmənli kəndində dünyaya göz açıb. Elçin ağlı kəsəndən Şərqi Zəngəzuru, Qarabağı yağıların işğalında görmüşdü, Vətən torpaqlarının nisgili, həsrəti ilə böyümüşdü.

Birinci Qarabağ müharibəsi Elçin Süleymanovun elindən, ata ocağından yan keçməmişdi. Elçin kiçik yaşlarından böyüklərin Qarabağ müharibəsi barədə söhbətlərini dinləmişdi. Bilirdi ki, doğma kəndi uğrunda da qızğın döyüşlər getmişdi. Erməni silahlıları tərəfindən ələ keçirilən kənd 1993-1994-cü illərdə işğal altında olub. Böyük Bəhmənli kəndinə də divan tutan işğalçılar tərəfindən 80-dən artıq ev, xəstəxana və məktəb binası dağıdılıb, yandırılıb. Böyük Bəhmənli 52 şəhid verib. Onlardan 25 nəfəri mülki, 27 nəfəri hərbçi olub.

1993-cü ilin dekabrında Böyük Bəhmənli kəndi uğrunda gedən şiddətli müdafiə döyüşlərində düşmən tankı ilə əlbəyaxa döyüşə atılan Daxili Qoşunların 5 əsgəri mövqelərindən geri çəkilməyib. Onlar son nəfəslərinədək vuruşublar.

Həmyaşıdları kimi Elçinin də uşaqlıq nağılları, dastanları, əfsanələri o dövrün qəhrəmanları olub. Odur ki, Elçin Süleymanov hərbçi sənətini seçmək, tankçı olmaq arzusuna düşəndə Azərbaycan xalqının o igid övladlarını özünə nümunə hesab edib.

Böyük Bəhmənlidəki Allahyar Əliyev adına 2 nömrəli tam orta ümumtəhsil məktəbində təhsil alan Elçin müddətli həqiqi hərbi xidmətə yollanıb və qəti qərarını verib: bundan sonra da Azərbaycan Ordusunun sıralarında xidmət edəcək. Uşaqlıq arzusuna çatan Elçin Süleymanov peşəkar tankçı olub.

O, 2016-cı ilin aprelində baş verən döyüşlərdə iştirak edib. Üç gün davam edən döyüşlərdə Azərbaycan Ordusu işğalçı Ermənistan silahlı qüvvələrinə ağır zərbələr endirib. Əsgər və zabitlərimiz Azərbaycanın bir sıra ərazilərini, strateji yüksəkliklərini düşmən işğalından azad ediblər. Həmin döyüşlərdə igidlik göstərən hərbçilərimizdən biri də Elçin Süleymanov olub. O, Aprel döyüşlərində göstərdiyi şücaətə görə, Müdafiə Nazirliyi tərəfindən fəxri fərmanla təltif edilib.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Elçin Süleymanov da silahdaşları ilə birlikdə döyüş meydanına yollanıb. Müharibənin ilk günündən Ermənistan silahlı qüvvələrinin alınmaz hesab edilən sədlərin yarılmasında böyük şücaət, fədakarlıq göstərib. Elçin Süleymanov Cəbrayıl və Füzuli uğrunda gedən qızğın döyüşlərdə tankçı kimi iştirak edib. Bu da onun və döyüş yoldaşlarının üzərinə böyük məsuliyyət qoyub.

Döyüşlərin birində onların tankı vurulsa da, dayanmayıblar. Heyət üzvləri cəsarətlə irəliləyiblər. Düşmənin növbəti atəşi nəticəsində tank yararsız hala düşüb. Elçin yaralanmış döyüş yoldaşlarını xilas edib.

Vətən torpaqlarının azadlığı uğrunda qəhrəmanlıq nümayiş etdirən Elçin Süleymanov böyük Zəfərin yaxın olduğuna bütün varlığı ilə inanırdı. Ona görə qardaşı ilə sonuncu telefon söhbətində demişdi: "Qələbə bizimlədir, hər şey yaxşı olacaq. Artıq Vətən həsrətinə son qoyulacaq".

Elçin Süleymanov sentyabrın 30-da ağır döyüşlərin birində şəhid oldu. Ölümündən sonra igid döyüşçü "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

● Tarix yazan oğullar

Nişanlısına aldığı qızıl güllər solmamış döyüşlərə yollandı

Könüllü olaraq İkinci Qarabağ müharibəsində erməni işğalçılarına qarşı döyüşmək üçün yola düşəndə Muradın 24 yaşı var idi. Binə ticarət mərkəzində uşaq geyimləri mağazasında işləyirdi. Yenicə nişanlanmışdı, toy tədarükü görürdü. Bir sözlə, ürəyi arzu və istəklərlə aşıbdaşırdı.



Gələcək həyat yoldaşı olacaq qızı da elə ilk dəfə işlədiyi mağazada görmüşdü. Murad qarabuğdayı, uzunsaçlı, üz-gözündən həya yağan Nəzrini görəndə ürəyinə qarşı çıxa bilmədi. Deyəsən, vurulmuşdu. Sonra bacısının vasitəsilə qızla tanış oldu, söhbət etdilər, könül verib könül aldılar.

Günlərin birində Muradın anası Mehriban xanım, bacısı İlahə Nəzrinin ailəsi ilə tanış olmaq üçün onların qapısını döydülər. Tanış olarkən öyrənmişdilər ki, ailələrin sosial durumu bir-birinə çox bənzəyir. Murad kiçik yaşlarından atasız böyümüşdü, Nəzrin də atasını çox erkən itirmişdi. Eyni tale yaşamışdılar, ikisi də ata həsrəti ilə böyümüşdü.

Qarşılıqlı razılaşmadan sonra Muradgil el adəti ilə Nəzringilə elçi getmişdilər. Qızın ağbirçəklərindən, ağsaqqallarından "hə" cavabı aldıqdan sonra - 2020-ci il avqustu 20-də nişan mərasimi keçirilmişdi. Həmin gün hər iki gəncin valideynlərinin də, sevib-sevilənlərin də üzü gülürdü. Nişan günü Murad Nəzrinə 101 ədəd qızılgül almışdı.

Beləcə, ailələr böyük sevinc içində toy tədarükü görməyə başladılar. Amma İkinci Qarabağ müharibəsi bir çoxları kimi Muradın da planlarını pozdu. Toy təxirə salındı. Doğma yurda düşmən hücumunun başladığı bir vaxtda toy eləməyi Murad özünə sığışdırmadı.

Muradın anası Mehriban Qurbanova Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Səbail rayon idarəsində işləyirdi. Murad da döyüşə getmək istəyi ilə həmin idarəyə müraciət etdi. Onun döyüşə getməklə bağlı müraciətinə hörmətlə yanaşdılar. Mehriban xanım nigarançılıq içində öz əli ilə oğlunu cəbhəyə - Qarabağa yola saldı. Murad istəyinə 2020-ci il sentyabrın 29-da çatdı. Həmin gün sevincini yaşadığı nişan mərasimindən 39 gün keçirdi. Onun nişanlısı Nəzrinə aldığı qızılgüllər hələ heç solmamışdı.

Əvvəlcə döyüşmək üçün Muradgili Füzuli istiqamətində gedən gərgin döyüşlərə göndərdilər. Zəfər ovqatı ilə silaha sarılan M.Qurbanov daim ön sıralarda vuruşur, düşmən mövqelərini atəşə tururdu. Dəqiq atəşlə işğalçıların canlı qüvvəsini, zirehli texnikasını məhv edir, irəliləmələrinin qarşısını alırdı. Bir neçə gündən sonra Muradı və döyüş yoldaşlarını Cəbrayıl istiqamətində gedən döyüşlərə cəlb etdilər.

Murad Qurbanov əsgər kimi Tərtər istiqamətində yerləşən hərbi hissədə xidmət etmişdi. Tovuz döyüşləri zamanı şəhid olmuş Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş polkovnik İlqar Mirzəyevin tabeliyində olmuşdu. 2016-cı ildə dörd gün davam edən Aprel döyüşlərində vuruşmuşdu.





Oktyabrın 7-də Muradın döyüşdüyü bölüyü Xocavəndə göndərdilər. Həmin günlər bu istiqamətdə də ağır döyüşlər gedirdi. Ordumuzun hücumları qarşısında dayana bilməyib geri çəkilən düşmən bacardıqca müqavimət göstərir, itirdikləri mövqeləri geri qaytarmağa çalışırdılar. Azərbaycan Ordusunun zabit və əsgərləri isə düşmənə sarsıdıcı zərbələr vururdu, mövqelərindən qovub çıxarırdılar.

Oktyabrın 8-də əsgər Murad Qurbanov Hadrut qəsəbəsinin azadlığı uğrunda vuruşurdu. Həmin günlər ordumuzun bölmələri düşməni geri sıxışdıra-sıxışdıra addım-addım torpaqlarımızı azad edirdi. Başı nə qədər döyüşlərə qarışsa da, Murad arada evə zəng vurub hal-əhval tutur, anasına, bacısına sağ-salamat olduğunu deyir, onları nigaran qoymurdu.

Oktyabrın 10-dan sonra Muradın zənglərinin arası kəsilir. Ayın 12-də isə doğmaları onun Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olduğunu eşidirlər. Oktyabrın 13-də Murad doğmalarının, yaxınlarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Səbail rayon Badamdar qəsəbəsindəki Şəhidlər xiyabanında torpağa tapşırılır.

Şəhid Murad Qurbanov qısa, amma mənalı, şərəfli bir ömür yaşayıb. O, 23 mart 1996-cı ildə Salyanda dünyaya göz açıb. Amma ailə sonradan Bakıya köçüb. Murad orta təhsilini başa vurduqdan sonra Bakı Maliyyə-İqtisad Kollecinə qəbul olub. 2015-ci ildə ordu sıralarına yollanıb. Qismətinə cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət etmək düşüb. Sonrasını isə bilirik.

İkinci Qarabağ müharibəsində göstərdiyi igidliyə görə əsgər Murad Qurbanov "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

V.MƏHƏRRƏMOV,
"Azərbaycan"

Mehmandarov - cümhuriyyət ordusunun qurucusu



Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Azərbaycanın hərb tarixində silinməz iz qoymuş görkəmli sərkərdə, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarovun 170 illiyi münasibətilə elektron məlumat bazası hazırlanaraq istifadəçilərə təqdim edilib.

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, elektron məlumat bazası görkəmli hərbi xadimin zəngin həyat yolunu, hərbi fəaliyyətini, Azərbaycan dövlətçiliyinin və milli ordu quruculuğunun inkişafındakı müstəsna xidmətlərini geniş oxucu auditoriyasına çatdırmaq, onun tarixi irsini təbliğ etmək və gələcək nəsillərə tanıtmaq məqsədilə hazırlanıb.

Elektron məlumat bazasında Səməd bəy Mehmandarovun həyat və fəaliyyətini əks etdirən materiallarla yanaşı, onun hərbi xidmət illərini əhatə edən xronologiya, rəsmi sənədlər, təltiflər, görkəmli şəxsiyyətlərin onun haqqında söylədikləri dəyərli fikirlər, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun quruculuğundakı rolu haqqında məlumatlar təqdim olunub.

Məlumat bazasında generalın həyat və fəaliyyətinə həsr olunmuş kitab və məqalələr, rus dilində materiallar, xatirəsinin əbədiləşdirilməsi ilə bağlı məlumatlar, sənədli filmlər, video və fotoqalereya, həmçinin virtual sərgi oxucuların istifadəsinə verilib. Bundan əlavə, kitabxana əməkdaşları tərəfindən hazırlanan məlumat bazasında "Mehmandarov - cümhuriyyət ordusunun qurucusu", "Azərbaycanın ilk ordu generalı: Səməd Bəy Mehmandarov" və digər məqalələrin tam mətni də təqdim olunub.

Bu materiallar vasitəsilə istifadəçilər görkəmli sərkərdənin həyat yolunu müxtəlif mənbələr əsasında daha ətraflı öyrənmək imkanı əldə edəcəklər.

REGİONLAR

Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir

Balıqçılıq və sitrusçuluğun inkişafı üçün əlavə imkanlar açılıb

Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, Prezident Administrasiyasının ərazi sektor müdiri Dəyanət Abdullayev, Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi İzzət Talıbov, rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Etibar Abbasov və Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Habil Manafov "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində rayonda görülən işlərlə yerində tanış olublar.



Bu məqsədlə onlar öncə "Astara FİSH" MMC-yə baş çəkiblər. MMC tərəfindən ümumi sahəsi 198 kvadratmetr olan 22 balıqartırma hovuzu tikilib, 3 min 146 ədəd 100-110 qramlıq nərə cinsli balıq körpələri alınıb. İştirakçıların olduqları "Beluga Astara" MMC tərəfindən isə ümumi sahəsi 1100 kvadratmetr olmaqla 18 balıqartırma hovuzu tikilib.

Onlar həmçinin "İMANNA" MMC tərəfindən əkinə hazırlıq vəziyyətinə gətirilmiş 50 hektar yeni intensiv sitrus meyvə bağına baş çəkiblər. Bağın 23 hektarına 15 min naringi tingi əkilib, qalan sahənin əkilməsi üçün isə tinglər sifariş verilib.

Fermer və sahibkarlarla görüş zamanı RİH-in başçısı Qəzənfər Ağayev deyib: "Rayonda kənd təsərrüfatının inkişaf etdirilməsi üçün əsas prioritetlər müəyyən edilmişdir. Müasir texnologiyalardan və innovativ üsullardan istifadə etməklə istehsal və emal imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmək mümkündür. Bu hədəflərə çatmaq üçün fermer və sahibkarlara hər bir dəstək göstərilir".

Prezident Administrasiyasının sektor müdiri Dəyanət Abdullayev görüşlərdə Prezident İlham Əliyevin ölkədə kənd təsərrüfatının inkişafı üçün qarşıya qoyduğu vəzifələri bir daha xatırladaraq dövlət proqramının əhəmiyyəti barədə ətraflı məlumat verib.

Fermer və sahibkarlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirib, dövlət proqramında nəzərdə tutulan tədbirlərin uğurla reallaşdırılması və bu sahənin daha da inkişafı üçün bütün imkanlarını səfərbər edəcəklərinə söz veriblər.

Seyran CAVADOV,
"Azərbaycan"

Göygöldə dövlət proqramının icrası ilə əlaqədar monitorinq keçirilib

Prezidentin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın yerlərdə icra vəziyyətinin qiymətləndirilməsi məqsədilə Göygöl rayonunda növbəti monitorinq keçirilmişdir.



Rayon icra hakimiyyətinin başçısı Vüqar Novruzov, Prezident Administrasiyasının ərazi sektor müdiri Adil Vəliyev və Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki Aqrar Tədarük və Təchizat ASC idarə heyətinin üzvü Elşən Məmmədovun iştirakı ilə keçirilən tədbirin əsas məqsədi adıçəkilən dövlət proqramından irəli gələn vəzifələrin icra səviyyəsini yoxlamaq, rayonun aqrar potensialından səmərəli istifadə imkanlarını araşdırmaq, müasir və intensiv kənd təsərrüfatı texnologiyalarının tətbiqi vəziyyəti ilə tanış olmaq və istehsal göstəricilərini yerində təhlil etmək olmuşdur.

İntensiv bağçılıq və tingçilik təsərrüfatlarının monitorinqi zamanı təsərrüfat rəhbərləri və sahə mütəxəssisləri ilə geniş fikir mübadiləsi aparılmış, rayonun aqrar sektorunun davamlı inkişafının təmin edilməsi, məhsuldarlığın və istehsal həcminin artırılması, eləcə də yerli əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün aidiyyəti qurumların məsul şəxslərinə tapşırıq və tövsiyələr verilmişdir.

Sabir ƏLİYEV,
"Azərbaycan"

Salyanda da prioritet fəaliyyət sahəsi aqrar sektorun inkişafının sürətləndirilməsidir

"Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində Salyanda görülən işlərlə yerində tanışlıq olub.

RİH başçısı Rüstəm Xəlilov, Prezident Administrasiyası Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Vəfadar Bağırov, Kənd Təsərrüfatı Nazirliyi Balıqçılıq və Akvakultura Mərkəzinin direktoru Ceyhun Əliyev rayonun iri fermer - "Şirvan Poultry Kompany", "İlkin-N" və "SN KFT"-MMC-lərin təsərrüfatlarına baş çəkərək onların fəaliyyəti, istehsal prosesləri, tətbiq edilən texnologiyalar, mövcud infrastruktur və inkişaf perspektivləri ilə maraqlanıblar. Baxış zamanı istehsalın artırılması, emal imkanlarının genişləndirilməsi, müasir texnologiyaların tətbiqi, istehsal proseslərinin təkmilləşdirilməsi və mövcud resurslardan səmərəli istifadə istiqamətində görülən işlər nəzərdən keçirilib, müəssisələrin fəaliyyəti ilə bağlı fikir və təcrübə mübadiləsi aparılıb.

Baxışdan sonra rayon icra hakimiyyətinin inzibati binasında dövlət proqramının icrası ilə bağlı yaradılmış qərargah üzvlərinin iştirakı ilə görüş keçirilib. Çıxış edən RİH-in başçısı Rüstəm Xəlilov ölkəmizdə kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması, aqrar sektorun rəqabət qabiliyyətinin artırılması və regionların iqtisadi potensialının reallaşdırılması istiqamətində həyata keçirilən dövlət siyasətinin mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Qeyd edib ki, Salyanın kənd təsərrüfatı sahəsində zəngin potensialı mövcuddur və bu imkanlardan məqsədyönlü istifadə olunması rayonun iqtisadi inkişafına, əhalinin məşğulluğunun artırılmasına və yerli istehsalın genişləndirilməsinə mühüm töhfə verə bilər. O, aqrar sahədə innovativ yanaşmaların tətbiqinin, müasir texnologiyalardan istifadənin genişləndirilməsinin, fermer və sahibkarların dövlət dəstəyi mexanizmlərindən səmərəli yararlanmasının, habelə istehsal və emal proseslərinin müasir tələblərə uyğun təşkilinin vacibliyini diqqətə çatdırıb.

Prezident Administrasiyasının sektor müdiri Vəfadar Bağırov isə çıxışında dövlət proqramının məqsəd və əsas istiqamətləri barədə məlumat verib. O, aqrar sahədə müasir texnologiyaların və innovasiyaların tətbiqinin genişləndirilməsinin, kənd təsərrüfatı məhsullarının istehsal həcminin və məhsuldarlığının artırılmasının, su və torpaq ehtiyatlarından səmərəli istifadənin, fermerlərin bilik və bacarıqlarının inkişaf etdirilməsinin, həmçinin istehsal və emal sahələrinin müasir standartlara uyğun təkmilləşdirilməsinin proqramın icrasında mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Görüş çərçivəsində dövlət proqramının icrası ilə bağlı qarşıda duran vəzifələr, rayonun aqrar sektorunda mövcud vəziyyət, inkişaf imkanları, fermer və sahibkarların qarşılaşdıqları çətinliklər, eləcə də kənd təsərrüfatı sahəsində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər ətrafında geniş müzakirələr aparılıb. Fermer və sahibkarların müraciətləri, təklifləri və onları narahat edən məsələlər dinlənilib, səsləndirilən problemlərlə bağlı aidiyyəti qurumların nümayəndələri tərəfindən izahatlar verilib, məsələlərin həlli istiqamətində müvafiq tapşırıqlar müəyyənləşdirilib.



Görüşün sonunda fermer və sahibkarlar kənd təsərrüfatının inkişafına göstərilən dövlət dəstəyini, aqrar sahədə həyata keçirilən təşviq və inkişaf tədbirlərini yüksək qiymətləndirərək yaradılmış imkanlardan səmərəli istifadə etməklə istehsalın genişləndirilməsi, məhsuldarlığın artırılması, yeni texnologiyaların tətbiqi və dövlət proqramında müəyyən edilmiş məqsəd və hədəflərin reallaşdırılması istiqamətində səylərini davam etdirəcəklərini bildiriblər.

S.QUBADOĞLU,
"Azərbaycan"

Lerikdə yeni dövlət proqramının qəbulundan sonra kənd təsərrüfatı üzrə görülən işlərlə tanışlıq olub

Rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasovun, Prezident Administrasiyasının sektor müdiri Dəyanət Abdullayevin, Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi İzzət Talıbovun, Lerik Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Cahani Nüsrətzadənin və rayon Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Rafət Həmidovun iştirakı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrası istiqamətində görülən işlərə baxış keçirilib.

Baxış iştirakçıları Piran kəndində fəaliyyət göstərən quşçuluq müəssisələrinin, Bilnə kəndində balıqçılıq və heyvandarlıq təsərrüfatlarının, Hiveri kəndində intensiv meyvə bağının, Tatoni kəndində çiyələk təsərrüfatının, Brkandul və Nüvədi kəndlərində yaradılan xırdabuynuzlu heyvandarlıq təsərrüfatlarının fəaliyyəti ilə tanış olublar. Tanışlıq zamanı təsərrüfatların mövcud vəziyyəti, istehsal potensialı, əldə olunan nəticələr və gələcək inkişaf perspektivləri barədə məlumat verilib. Aqrar sahədə müasir texnologiyaların və innovativ istehsal üsullarının tətbiqi, məhsuldarlığın artırılması, istehsal və emal imkanlarının genişləndirilməsi, fermerlərin fəaliyyətinin stimullaşdırılması və rayonun kənd təsərrüfatı potensialından səmərəli istifadə məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, dövlət proqramının icrasına başlanıldığı qısa müddət ərzində Lerikdə müxtəlif istiqamətlər üzrə yeni təsərrüfatların yaradılması, mövcud istehsal sahələrinin genişləndirilməsi və kənd təsərrüfatı məhsullarının istehsalına marağın artırılması istiqamətində mühüm addımlar atılıb. Bu sahədə həyata keçirilən tədbirlər müsbət qiymətləndirilib, fermer və sahibkarlara fəaliyyətlərinin genişləndirilməsi, istehsalın səmərəliliyinin artırılması və dövlət proqramının yaratdığı imkanlardan maksimum yararlanmaqla bağlı müvafiq tövsiyələr verilib.

Görüşlər zamanı fermer və sahibkarların aqrar sahədə qarşılaşdıqları çətinliklər və onların aradan qaldırılması yolları da müzakirə edilib. Mövcud problemlərin həlli, təsərrüfatların inkişafına dəstək göstərilməsi və fəaliyyətlərinin genişləndirilməsi məqsədilə aidiyyəti qurumlar qarşısında müvafiq məsələlərin qaldırılacağı bildirilib.

"Azərbaycan"

Kənd təsərrüfatının inkişafında elmin rolu

Gəncədə keçirilən konfrans bu mövzuya həsr olunmuşdur

Gəncədə Azərbaycan Dövlət Aqrar Universitetinin təşkilatçılığı ilə "Regional Expo Gəncə 2026" çərçivəsində "Gələcəyin kənd təsərrüfatı 2026: elm, innovasiya və dayanıqlılıq" mövzusunda respublika elmi-praktik konfrans keçirilmişdir.



Konfransı giriş sözü ilə ADAU-nun rektoru Zəfər Qurbanov açaraq aqrar sektorun gələcək inkişafında elmi tədqiqatların, innovasiyaların, rəqəmsal texnologiyaların və dayanıqlı istehsal modellərinin əhəmiyyətindən danışmış və konfransa 350-dən çox elmi məruzənin təqdim edildiyini bildirmişdir.

Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov çıxışında Gəncənin ölkənin elm, təhsil və iqtisadi inkişafındakı mövqeyindən söhbət açaraq, bu kimi tədbirlərin aqrar sahədə yeni təşəbbüslərin təşviqi, regionların inkişafı və elmi əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğulamışdır.

Milli Məclisin deputatları Naqif Həmzəyev və Müşfiq Cəfərov isə çıxışlarında aqrar sektorun ölkənin iqtisadi potensialının gücləndirilməsi, regionların sosial-iqtisadi inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunmasındakı rolundan danışmışlar. Onlar kənd təsərrüfatında innovasiyaların və müasir texnologiyaların tətbiqinin, eləcə də aqrar sahə üzrə dövlət siyasətinin prioritetlərinin həyata keçirilməsinin vacibliyini qeyd etmişlər.

TECHERA şirkətinin təsisçisi Tariyel Dövlətov da çıxışında aqrar sektorda rəqəmsal texnologiyalardan bəhs etmiş və universitetlərlə özəl sektor arasında əməkdaşlığın genişləndirilməsinin, elmi tədqiqatların praktikaya tətbiqinin və tələbələrin innovativ layihələrə cəlb olunmasının əhəmiyyətindən danışmışdır.

Sonra UNEC-in Zaqatala filialının direktoru Raqif Qasımov, Elm və Təhsil Nazirliyi Coğrafiya İnstitutunun direktoru Zaur İmrani, Kənd Təsərrüfatı Nazirliyi Aqrar Tədqiqatlar Mərkəzinin direktor müavini Namiq Şalbuzov və Naxçıvan Dövlət Universitetinin kafedra müdiri Bəhruz Bayramov çıxış edərək aqrar sahənin inkişafında iqtisadi təhlillərin, elmi tədqiqatların və bioloji yanaşmaların əhəmiyyətindən söhbət açmışlar.

Konfrans öz işini bölmə iclaslarında davam etdirmişdir.

"Azərbaycan"

Goranboyda pambıq istehsalı məhsuldarlıq hesabına artır

Goranboyda kənd təsərrüfatının strateji sahələrindən olan pambıqçılığın inkişafı, o cümlədən əkin sahələrinin genişləndirilməsi, məhsuldarlığın artırılması və müasir aqrotexniki üsulların tətbiqi istiqamətində müxtəlif tədbirlər həyata keçirilir. Nəticədə hər il rayonda bu sahə üzrə uğurlu göstəricilərə nail olunur.

Xatırladaq ki, keçən il rayonda 1983,3 hektardan 6029,61 ton məhsul tədarük edilmiş, orta məhsuldarlıq 30,4 sentner təşkil etmişdir. Cari il isə bu sahədə fəaliyyət göstərən təsərrüfatlar və fermerlər ümumilikdə 1492,6 hektar sahədə pambıq əkini aparmışlar. Əkin sahələrinin 615,6 hektarı "Azərpambıq", 426,5 hektarı "Prime Cotton", 304 hektarı "EDEN Aqro", 146,5 hektarı "Goran-Cotton" MMC-lərin payına düşür. Bundan əlavə, Quşçular kənd sakinləri Şəhriyar Həmidov 49 və Etibar Həmidov 21, Balakürd kənd sakini Səyavuş Abbasov 17, Boluslu kənd sakini Fərrux Hüseynov 23, Goranboy şəhər sakini Müşfiq Mustafayev 20, Sarov kənd sakini Elmdar Məmmədov 50 hektarda pambıq əkmişlər.

Cari mövsüm pambıqçılıqda müasir suvarma sistemlərinin tətbiqinə xüsusi diqqət yetirilmişdir. Belə ki, rayon üzrə əkin sahələrinin 304 hektarı müasir suvarma sistemləri ilə təchiz edilmişdir. Bunun da sayəsində su ehtiyatlarından səmərəli istifadə olunmaqla əkin sahələrinin su təminatı yaxşılaşmışdır ki, nəticədə məhsuldarlığı artırmaq mümkün olmuşdur. Son məlumata görə, 1181 hektardan 4231 ton pambıq toplanmışdır ki, bu da orta hesabla 35,8 sentner məhsuldarlıq deməkdir.

Rayonda qabaqcıl pambıqçılar çoxdur. Onlardan biri də fermer Şəhriyar Həmidovdur. O, başçılıq etdiyi təsərrüfatda məhsuldarlığı 55 sentnerə, ümumi məhsul istehsalını isə 412,5 tona çatdırmağı qarşısına məqsəd qoymuşdur.

S.YUNİSOĞLU,
"Azərbaycan"

Qubada "Şəhərsalma və Memarlıq İli" çərçivəsində tarixçi alimlər bir araya gəliblər

Qubada Soyqırımı Memorial Kompleksində "Şəhərsalma və Memarlıq İli" çərçivəsində "Şimal-şərqi Azərbaycanda erkən şəhər mədəniyyəti: yeni tapıntılar kontekstində" mövzusunda elmi seminar keçirilib.

AMEA Arxeologiya və Antropologiya İnstitutu, Milli Azərbaycan Tarixi Muzeyi, Çıraqqala-Şabran Dövlət Tarix-Mədəniyyət Qoruğu və Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialının birgə təşkilatçılığı ilə keçirilən seminarda Soyqırımı Memorial Kompleksinin direktoru Rəxşəndə Bayramova çıxış edərək bildirib ki, şimal-şərqi Azərbaycanın zəngin tarixi-mədəni irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından elmi seminarların, birgə arxeoloji tədqiqatların mühüm rolu var: "Bölgədə aparılan arxeoloji qazıntıların ölkəmizin qədim şəhər mədəniyyətinin tarixinin daha dərindən öyrənilməsinə imkan yaradıb. Bu gün Quba müasirliyin və qədimliyin qovuşduğu məkandır. Keçmişin qorunması, yeniliyin tarixi köklərə söykənməsi rayonumuzun memarlıq xəritəsidir".

Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialının Humanitar və təbiət elmləri fakültəsinin dekan müavini və İctimai elmlər kafedrasının baş müəllimi Mürvət Əliyev tarixi-mədəni irsin tədqiqi və təbliğində elmi müəssisələrlə ali təhsil ocaqları arasında əməkdaşlığın əhəmiyyətindən, tələbələrin bu prosesə cəlb olunmasının vacibliyindən danışıblar.

Çıraqqala-Şabran Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Günel Pirquliyeva isə çıxışında bölgənin zəngin arxeoloji irsinin qorunması, tarixi abidələrin tədqiqi və təbliği istiqamətində görülən işlərdən bəhs edərək bu sahədə birgə elmi fəaliyyətin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, bölgənin arxeoloji araşdırmalarında qarşılıqlı əlaqələr tariximizin öyrənilməsində mühüm rola malikdir.

AMEA Arxeologiya və Antropologiya İnstitutunun Şabran Arxeoloji Ekspedisiyasının rəhbəri, tarix üzrə fəlsəfə doktoru, dosent Səfər Aşurov məruzə ilə çıxış edərək Şabran ərazisində aparılan son arxeoloji tədqiqatların nəticələri, yeni aşkar edilmiş yaşayış məskənləri, müdafiə istehkamları və maddi-mədəniyyət nümunələri haqqında məlumat verib. O, yeni tapıntıların bölgədə erkən şəhər mədəniyyətinin inkişaf mərhələlərini daha dəqiq müəyyənləşdirməyə imkan verdiyini diqqətə çatdırıb.

Azərbaycan Tarixi Muzeyinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Laçın Mustafayev "Şimal-şərqi Azərbaycanın erkən şəhər mərkəzlərində aşkar edilmiş maddi-mədəniyyət nümunələri" mövzusunda çıxış edib. O, muzeyin fondlarında qorunan arxeoloji tapıntılar, onların elmi dövriyyəyə cəlb olunması və erkən şəhər mədəniyyətinin formalaşmasında oynadığı rol barədə ətraflı məlumat verib.

Seminarda aparılan elmi-tədqiqat işləri, tarixi abidələrin qorunması və bərpası istiqamətində görülən tədbirlər, həmçinin erkən şəhər mədəniyyətinin öyrənilməsində gənc tədqiqatçıların və tələbələrin rolu müzakirə olunub.

Sonda mövzu ətrafında elmi müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Akif ƏLİYEV,
"Azərbaycan"





Mədəniyyət





● İncəsənət xadimləri

Gördü, sevdi, seçdi

Xalq rəssamı Oqtay Şıxəliyevin yaradıcılıq uğurunu bu sözlərlə ifadə etmək kifayətdir

Azərbaycan təsviri sənətinin tanınmış nümayəndəsi, görkəmli fırça ustası və pedaqoq, Xalq rəssamı Oqtay Şıxəliyevin 95 yaşı tamam olur. Bu münasibətlə noyabrın 11-də Azərbaycan Milli İncəsənət Muzeyində rəssamın keçdiyi yaradıcılıq yolunu əks etdirən "Oqtay Şıxəliyevin mozaik dünyası. Mozaika. Rəngkarlıq. Keramika" adlı sərgi açılmışdır. Sərginin açılış mərasimində tanınmış incəsənət və ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Azərbaycanın ilk peşəkar monumentalçı rəssamlarından olan Oqtay Şıxəliyev 1931-ci ilin sentyabrında Bakıda dünyaya göz açıb. Abşeronun yüzilliklər boyu formalaşmış el adətləri, qədim yaşayış evləri, qumsal təbiəti, qızılı Günəşi, ecazkar Xəzər mənzərəsi, xəfif və sərt dəniz küləyi Oqtayın gələcəkdə peşə seçiminə az təsir göstərməyib. Gələcəkdə rəssam olmağı qarşısına məqsəd qoyan gənc 1947-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumuna qəbul olunur. Burada Azərbaycanın istedadlı rəssamları - Lətif Feyzullayev, Qafar Seyfullayev və Bağır Maratlıdan xüsusi həvəslə sənətin özəlliklərini öyrənməyə çalışır.

1952-ci ildə rəssamlıq məktəbini fərqlənmə diplomu ilə bitirən O.Şıxəliyevin sənətə olan sonsuz məhəbbəti onu Sankt-Peterburqa gətirib. O, 1952-ci ildə V.Muxina adına Ali Bədii Sənaye məktəbinə daxil olub. Burada tanınmış istedadlı rəssamlardan sənətin təcrübi və bədii-texniki incəliklərinə yiyələnib. 1958-ci ildə məktəbi bitirən O.Şıxəliyev doğma Azərbaycana qayıdıb. Vətəndə istedadlı və enerjili gənc rəssamı doğma diyarımızın müxtəlif guşələrində ictimai binaların bədii tərtibatı gözləyirdi. Onu da qeyd edək ki, O.Şıxəliyev hələ Sankt-Peterburqda təhsil aldığı illərdən müxtəlif sərgilərdə uğurla iştirak edirdi. Rəssam 1957-ci ildə Gənclərin Ümumittifaq Sərgi Festivalında dekorativ sənət üzrə birinci mükafata layiq görülmüşdür. Oqtay Şıxəliyev 1960-cı ildə Rəssamlar İttifaqına üzv qəbul olunub. Onun əhatəli bədii və pedaqoji yaradıcılıq fəaliyyəti yüksək qiymətləndirilib. Əməkdar rəssam (1982) və Xalq rəssamı (2002) fəxri adlarına layiq görülüb, Prezident təqaüdçüsü olub.

Rəssam həm monumental rəngkarlıq, həm dekorativ tətbiqi sənət (keramika), eləcə də dəzgah rəngkarlığı sahələrində bir-birindən maraqlı əsərlər qalereyası yaradıb. Rəssam bir çox xarici ölkələrdə - Meksika, Almaniya, Kanada və başqa yerlərdə yaradıcılıq ezamiyyətlərində olub.

O.Şıxəliyev bədii yaradıcılıqla yanaşı, pedaqoji fəaliyyət də göstərib. Rəssam Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında çalışıb.

O.Şıxəliyev 1960-cı illərdən başlayaraq, bir çox ictimai binaların - idman saraylarının, məktəblərin, zavodların, metrostansiyaların, parkların bədii tərtibatını hazırlayıb və onların insanlarda bədii estetik zövq aşılaması və ətraf mühitlə daha üzvü surətdə səslənməsi üçün bədii kompozisiyalar yaradıb. Rəssam yaradıcılığında milli və müasir monumental rəssamlıq ənənələrinin sintezini peşəkarlıqla əlaqələndirib.

O.Şıxəliyevin yaradıcılığının uzun dövrünün sovetlər dönəminə təsadüf etməsi və həmin dövrün bədii-estetik prinsiplərini özündə əks etdirməsi reallıqdır. Buna baxmayaraq, rəssam həmişə yaradıcılığında milli ənənələrdən yüksək ustalıqla istifadə etmişdir. Bu cəhətləri istər mövzu, istərsə də bədii işlənilmə xüsusiyyətlərində, əsərlərin süjet, kolorit və bədii şərhində müşahidə etmək olar. Buna nümunə kimi O.Şıxəliyevin "Qarabağ" mehmanxanasının bədii tərtibatında xalqımızın etnoqrafik elementlərindən qaynaqlanaraq tamaşaçıda xüsusi bədii zövq yaradan formalardan istifadə etməsini, onun rəng həllində isə daha çox isti rənglərə üstünlük verməsini göstərə bilərik. Rəssamın monumental yaradıcılıq nümunələrinə gəldikdə isə, Bakıda yerləşən 18 saylı məktəbi, Bakı Dövlət Sirki, rəssamın Hacıbala Rəcəbovla birgə fəaliyyətləri nəticəsində Bakı Məişət Kondisionerləri Zavodu, "Azərbaycan" nəşriyyatının binası, Bakıda "Uşaq dünyası" universal mağazası, "Novbahar" restoranı və digərlərini qeyd etmək mümkündür.

18 saylı məktəbin fasadında yerləşən qalaktikadan bəhs edən "Ulduzlara doğru" mozaik pannosu olduqca diqqətçəkəndir. Rəssam kompozisiya quruluşunda, rəng həllində, mövzu seçimində, eləcə də pannonun ətraf mühitlə əlaqəli şəkildə səsləşməsində bədii yaradıcılıq imkanlarından və rəssam təxəyyülündən son dərəcə məharətlə bəhrələnə bilmişdir. İrəliyə doğru uzanmış qoşa əllərin



içərisində fəzanın ənginliklərini fəth etmək istəyən gənc oğlan və qız əllərində kosmik cihaz tutmuş vəziyyətdə təsvir edilib. Burada rəssam dünyanın sirlərindən agah olmağın yeganə doğru yolunun elmdən, bilikdən, təhsildən başladığını bədii biçimdə tamaşaçısına çatdıra bilib.

O.Şəxəliyevin yaradıcılığının digər bir nümunəsi Ulu Öndər Heydər Əliyevin adını daşıyan İdman və Konsert Kompleksidir. Rəssam bu kompleksdə işlərin tərtibatında daha çox milli adət-ənənələrimizə, folklor nümunələrinə istinad edərək sonda tamaşaçının zövqünü oxşayan sənət inciləri yaratmışdır.

O.Şıxəliyevin tematik tablolarına misal olaraq "Çənlər" (1969), "Kürün ram edilməsi" (1970), "Ancaq sülh" (1970), "Sallaqxana" (1970), "Mənim buketim" (1971), "Kapella" (1980), "Muğam" (1982) və s. əsərlərini göstərmək olar.

Rəssam "Kürün ram edilməsi" əsərində Kür çayı üzərində inşa edilən su-elektrik stansiyasının tikintisini fırçasının qüdrəti ilə bədiiləşdirib. Avtomaşınların sular üzərində hərəkət etdiyi məqamı rəssam ustalıqla təsvir edə bilib. Əsər üçün baxış nöqtəsinin seçilməsi və kolorit həlli tamaşaçının marağına səbəb ola biləcək bədii cəhətlərdəndir.

O.Şixəliyevin maraqlı portretləri sırasında "Mənim qaracam" (1970), "Tarzən Bəhram Mansurov" (1972), "Rəssam Rasim Babayev" (1975), "SSRİ Xalq Artisti Mirzəağa Əliyev" (1974), "Nigar" (1975), "Rəssamın ailəsi" (1976) və s. əsərləri qeyd etmək olar. "Qobustan daşları" (1966), "Sumqayıt boruları" (1970), "Meksika həyəti" (1982), "Aydın səma" (1974) tabloları isə rəssamın mənzərə janrında yaratdığı əsərlərdir. O.Şıxəliyev mənzərə əsərlərində təbiət görüntülərinə yaradıcı yanaşmaqla tamaşaçıya bədii zövq aşılayıb.

Rəssamın Azərbaycan təsviri sənət aləminə bəxş etdiyi özünəməxsus yaradıcılıq nümunələrinin neçə-neçə gənc istedadlı rəssamın yetişməsinə bundan sonra da təkan verəcəyi və hər zaman yaratdıqlarının tamaşaçı auditoriyasının marağına səbəb olacağı şübhəsizdir.







Əsəd QULİYEV,
Azərbaycan Milli İncəsənət Muzeyinin şöbə müdiri, Rəssamlar İttifaqının üzvü, sənətşünas

● Yaddaş

Tarixi keçmişdən soraq verən memarlıq abidəsi

Zəngin və bənzərsiz təbiəti ilə gələnləri və görənləri heyran qoyan bölgələrimizdən biri də Qubadır. Hər il dünyanın müxtəlif ölkələrindən bu gözəl diyara minlərlə turist axışıb gəlir. Onlar bu yerləri gəzdikdən sonra Qubadan xoş təəssüratlarla, yenidən bu yerlərə qayıtmaq arzusu ilə ayrılırlar.

Rayonda turistlərin, qonaqların böyük maraqla baxdığı tarixi abidələrdən biri də XIX əsrə aid nadir memarlıq incisi olan hündür günbəzli hamamdır. Memarlıq abidəsi kimi qorunan hamamda bərpa işləri aparılan zaman tikilinin ilkin görkəmi və quruluşu olduğu kimi saxlanılaraq müasir dövrdə istifadəyə yararlı vəziyyətə gətirilib.

Əldə olan məlumatlara əsasən, fransız yazıçısı Aleksandr Düma Qafqaza səfəri zamanı bu hamamdan istifadə edib. Mədəniyyət tariximizin qiymətli bir parçası kimi qorunan bu abidə təəssüflər olsun ki, qanlı erməni soyqırımının da şahidi olub. Yerli sakinlərin dediklərinə görə, 1918-ci ildə Qubada törətdikləri soyqırımı zamanı ermənilər rayon sakinlərini bu hamamın buxarında boğaraq öldürüblər. Sonra isə cansız cəsədlərini çalaya atıblar.

Hamam 1985-ci ilə qədər təyinatı üzrə istifadə edilib. Sonra kanalizasiya sistemi işləmədiyinə görə fəaliyyəti dayandırılıb.

Quba şəhərinin mərkəzində yerləşən Şərq memarlığının ən orijinal nümunəsi olan günbəzli hamam ümumi bir zaldan, bəylər üçün nəzərdə tutulmuş 4, istirahət və çay içmək üçün planlaşdırılan daha 3 otaqdan ibarətdir. Birmərtəbəli olan hamam 1 qapılı, 6 pəncərəlidir. Qırmızı kərpicdən tikildiyinə görə bəzən yerli camaat ona "qırmızı hamam" da deyirlər.

Müxtəlif ölçülü iki tağdan ibarət hamamın istilik sistemi elə qurulub ki, o, yalnız odunla işləyir. Günbəzlərinin hündürlüyü 9 metr olan hamamın qızdırılmasında istifadə edilən soba həm də döşəməni isidir. Hamamı tikən bacarıqlı ustalar sobadan hamamın döşəməsi boyu istiliyə davamlı kərpicdən kanallar çəkiblər. Buna görə də sobadan çıxan istilik həmin kanallar vasitəsilə döşəməni qızdırır. Həmin sistem hamamın daim eyni temperaturda qalmasını təmin edib.

1986-1987-ci illərdə günbəzli hamamda təmir və bərpa işləri aparılıb. Abidənin tarixi görkəmi saxlanmaqla 2 günbəz və 9 hücrədən ibarət olan qədim tikilinin fasadı tamamilə yenilənib. Bərpa prosesində həmçinin abidənin dam örtüyü dəyişdirilib. Hamam binasının bərpası zamanı onun tikildiyi dövrün memarlıq ənənələrindən istifadə edilib. Bərpa prosesində hamamın iç divarlarındakı müxtəlif naxış və ornamentlər də qorunub saxlanılıb. Bununla da sanki abidəyə ikinci həyat verilib.

2017-2018-ci illərdə hündür günbəz hamamı yenidən bərpa olunub. Bərpa işləri ABŞ-nin Azərbaycandakı səfirliyi, Mədəniyyət Nazirliyi və nazirliyin yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin dəstəyi ilə həyata keçirilib. 2018-ci il martın 26-da yenidən bərpa olunmuş hamamın açılışı olub. Bu gün hamam Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tarixi abidə kimi qorunur. Bunun üçün tarixi abidənin ətrafında UNESCO tərəfindən məhəccərlər də inşa olunub. Bu da abidənin toxunulmazlığını daha etibarlı edib.

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"



Xalq şairi Səməd Vurğunun xatirəsi qardaş Türkiyədə anılıb

Türkiyənin Bodrum və Didim şəhərlərində Azərbaycanın dahi şairi Səməd Vurğunun anadan olmasının 120 illik yubileyinə həsr olunmuş I Beynəlxalq Muğla Şeir Festivalı keçirilib.



AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Festivalda Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Şimali Kipr və Kərküklən olan mədəniyyət xadimləri iştirak ediblər. Proqram çərçivəsində şeir-musiqi məclisləri və tarixi məkanlara ekskursiyalar təşkil olunub, fərqlənən iştirakçılara diplom və xatirə medalları verilib.

Festival çərçivəsində TRT kanalının nümayəndəsi, tanınmış aparıcı Arzu Yılmaz Dağdemir və jurnalist, ictimai fəal, şair Cahit Günayın Səməd Vurğunun həyat və yaradıcılığına həsr etdikləri "Səməd Vurğun-120. Ayrılarmı könül candan..." adlı qısametrajlı film də nümayiş etdirilib.

● Gəzməli, görməli yerlərimiz

Qışdır, soyuqdur deyib istirahətinizi yaya saxlamayın

Günlər bir-birini əvəz etdikcə macəralarla dolu qış fəsli yaxınlaşır. Çoxları bu fəslin ləzzətini evdə divanda uzanıb televizoru izləməklə keçirmək istəmir. Ölkəmizdə yaradılmış qış turizminin geniş imkanlarından yararlanaraq istirahət etməyi düşünür, soyuq qış günlərini həm şən, həm də insana sağlamlıq gətirən istirahətlə keçirməyə üstünlük verir.

Dünyanın bir çox ölkələrində qaynar turizm mövsümü kimi yay fəsli qəbul olunsa da, müşahidələr göstərir ki, qış aylarında istirahətə yollanmaq istəyənlərin də sayı kifayət qədərdir. Dünya Turizm Təşkilatının yaydığı statistik məlumatlarda qeyd edilir ki, hər il səyahət etmək istəyənlərin təxminən 30-35 faizi istirahət vaxtını qış aylarına salır. Yayılan məlumatlarda o da bildirilir ki, İsveçrə, Skandinaviya ölkələri, Çexiya, ABŞ, Kanada qış turizminin inkişaf etdiyi ölkələrdəndir.

Dünyanın başqa ölkələrində olduğu kimi, ötən illər ərzində Azərbaycanda da müasir standartlara cavab verən qış turizm infrastruktur və kompleksləri yaradılmışdır. Buna görə də qış aylarında ölkəmizə üz tutan turistlərin sayı ildən-ilə artır. Azərbaycanda qış turizmindən bəhs edərkən təbiidir ki, yada ilk olaraq Qəbələ "Tufandağ" və Qusar "Şahdağ" Qış-Yay Turizm kompleksləri və Şahbuzun "Ağbulaq İstirahət Mərkəzi" düşür. Qış aylarında bu kompleks və mərkəzlərə üz tutan turistlər burada rahat dincəlir və istirahət edirlər. Peşəkar xizəkçilər üçün "Şahdağ" Qış-Yay Turizm Kompleksi daha cəlbedicidir. Çünki "Şahdağ" mükəmməl yaradılmış qış istirahət zonasıdır. Hava şəraiti ilə əlaqədar burada süni qar yağdıran qurğular işə salınır. Bu qurğular Qusarçaydan götürdüyü suyu qara çevirib əraziyə püskürür və qısa müddət ərzində kompleksin ərazisi qar örtüyünə bürünür. Püskürülən süni qar üçzolaqlı yolda xizəklə sürüşməyə şərait yaradır. Xizək sürməyə maraq göstərməyən turistlər də unudulmayıb. Onlar üçün də cürbəcür əyləncələr nəzərdə tutulub. Həmin turistlərə motorlu xizək, asma kanat, snoubord, dağ yolları ilə turlar, velosiped gəzintisi, trottinet, yamac paraşütçülüyü təklif edilir. Bu əyləncələr turistlərin ürəyincə olur. Onlar burada vaxtlarını şən keçirir, necə deyərlər, qış fəslinin dadını çıxarırlar.



Görənləri elə ilk dəqiqədən bənzərsiz gözəlliyi ilə heyran edən Qəbələ rayonundakı "Tufandağ" Dağ-Xizək Kompleksi də maraqlı qış gəzintilərinin məkanlarından biridir. Bura yalnız yerli deyil, xaricdən ölkəmizə gəlmiş turistlərin də ən sevimli istirahət məkanıdır. Kompleksdə buz üstündə xizək sürməkdən tutmuş qar maşınları ilə adrenalin dolu istirahət etmək üçün şərait yaradılıb. Xüsusi olaraq kilometrlərlə uzanan yamaclarda snoubordinq və xizəklə sürüşmək buraya üz tutan turistlərə böyük zövq verir. Xizək sürməyi bacarmayanları öyrətmək üçün istirahət kompleksində xizəksürmə məktəbi də fəaliyyət göstərir.

Bənzərsiz təbiəti, eləcə də tarixi memarlıq və təbiət abidələri ilə gələn qonaqları özünə cəlb edən bölgələrimizdən biri də Qubadır. Qış turizmi, dağ-xizək xidmətlərinə tələbatın artması, eləcə də təmiz havası və Bakıya yaxınlığı Qubanını ölkənin əsas istirahət zonalarından birinə çevirib. İstər qış, istərsə də yay aylarında bölgəyə gələn turistləri qəbul etmək üçün son illər Qubada istirahət və mehmanxanaların sayı artıb. Hərtərəfli şəraiti olan bu mərkəzlər turistlərin yalnız yay deyil, qış istirahətini də təmin edir.

Ölkəmizin başqa bölgələrində olduğu kimi, turistlər qış fəslində bir tərəfdən dağlar, digər tərəfdən isə Xəzər dənizi ilə əhatə olunmuş Lənkəranа da böyük maraq göstərirlər. Bu da səbəbsiz deyil. Çünki Lənkəranda qış turizmi üçün hər cür şərait yaradılıb. Qış fəslində dağlıq əraziləгə yağan qarın hündürlüyü bəzi yerlərdə bir metrdən də yuxarı olur. Qış istirahətini maraqlı keçirməyə çalışan turistlər təbiətin yaratdığı gözəlliyə tamaşa etməkdən böyük zövq alırlar. Lənkərana gələn turistlər həm də zəngin folklorumuzla, mətbəximizlə, tarixi abidələrimizlə də yaxından tanış olurlar.

Yay ayları ilə bərabər, qış fəslində də turist axını müşahidə olunan bölgələrdən biri də Şamaxıdır. Turistlər rayonun Pirqulu qəsəbəsinə daha çox üz tuturlar. Qəsəbənin təmiz havası, təbiətin bənzərsiz mənzərələri, tarixi keçmişimizdən soraq verən qədim abidələr turistlərin diqqətini daha çox özünə çəkir. Rayon ərazisində fəaliyyət göstərən hotellər qış mövsümündə bölgəyə gələn turistlər üçün olduqca maraqlı, yaddaqalan əyləncələr təqdim edir.

Bu gün qarşıda dayanan ən mühüm vəzifələrdən biri də işğaldan azad edilmiş ərazilərdə də qış turizm mərkəzlərinin yaradılmasıdır. Mütəxəssislərin fikrincə, qış turizmi üçün ən əlverişli ərazi Kəlbəcər rayonudur. Çünki burada xizək marşrutları, kanat xətləri yaratmaq üçün əlverişli coğrafi şərait var. Bircə qalır, bu şəraitdən istifadə edib qış turizmini təşkil etmək. Kəlbəcərlə yanaşı, Laçında, Şuşada, Hadrutda, Xankəndidə, Suqovuşanda da qış turizmi üçün əlverişli şərait var.

Son illər Azərbaycanda həyata keçirilən sosial-iqtisadi layihələr, dövlət proqramları ölkəmizdə turizmin də inkişafını sürətləndirir. Dövlət başçısının sərəncamları ilə reallaşan proqramlar, layihələr bu sahənin inkişafına böyük təkan verir, qarşısında yeni perspektivlər açır.

V.MƏHƏRRƏMOV,
"Azərbaycan"

Prokurorluq orqanlarında qulluğa qəbulla bağlı müsabiqənin yazılı imtahan mərhələsi keçirilib

Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ardıcıl surətdə həyata keçirilən dövlət gənclər siyasəti gənclərin cəmiyyətdə layiqli mövqe tutmasını və dövlət idarəetmə sistemində fəal təmsil olunmasını təmin edir.

Sözügedən dövlət siyasətinin prokurorluq orqanlarında müvəffəqiyyətlə icrası, habelə gənc hüquqşünasların müsabiqə əsasında qulluğa qəbulu mexanizminin tətbiqi nəticəsində prokurorluğun kadr potensialı yüksəkixtisaslı peşəkar mütəxəssislər hesabına tamamilə yenidən formalaşdırılıb.

2002-ci ildən başlayaraq müsabiqə yolu ilə qulluğa qəbul edilmiş ali hüquq təhsilli mütəxəssislər hazırda prokurorluğun kadr korpusunun 97 faizini təşkil etməklə, onların böyük əksəriyyəti yuxarı təsnifat vəzifələrə irəli çəkilmiş və hazırda bir hissəsi rəhbər vəzifələrdə çalışır.

Noyabrın 23-də prokurorluq orqanlarında qulluğa qəbul olunmaq arzusunda olan şəxslər üçün vakant ştat vahidləri üzrə elan edilmiş növbəti - 28-ci müsabiqənin yazılı imtahan mərhələsi keçirilib.

Baş Prokurorluğun Müsabiqə Komissiyası tərəfindən imtahanın tam aşkarlıq şəraitində, şəffaf və obyektiv prosedurlar əsasında keçirilməsi üçün bütün zəruri tədbirlərin görülməsi təmin edilmişdir. İmtahanı müvafiq qurumların, o cümlədən qeyri-hökumət təşkilatlarının nümayəndələri müşahidə edib.

Hazırkı müsabiqənin yazılı imtahan mərhələsində iştirak etmiş 133 namizəd (o cümlədən 47 qadın) Bakı Dövlət Universitetinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik



Akademiyasının, Naxçıvan Dövlət Universitetinin, Milli Aviasiya Akademiyasının və xarici ali təhsil müəssisələrinin məzunlarıdır.

Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"na müvafiq olaraq yazılı imtahan işləri "ikiqat yoxlama" üsulu ilə Baş Prokurorluğun Müsabiqə Komissiyası və dəvət olunmuş müstəqil ekspertlər tərəfindən yoxlanıldıqdan sonra yekun nəticələr media vasitəsi ilə ictimailəşdiriləcək, eyni zamanda bu barədə Baş Prokurorluğun rəsmi internet səhifəsində (www.genprosecutor.gov.az) və sosial şəbəkə hesablarında məlumat yerləşdiriləcəkdir.

Əlavə suallarla bağlı 361-00-80, 437-28-56, 361-00-77, 361-00-78, 361-00-79 nömrəli telefonlar vasitəsilə müraciət etmək olar.

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

"Azərpoçt" MMC	*(012) 598-49-55, (051) 225-02-13*
"Azərmətbuatyayımı" ASC	*(012) 441-19-91, (050) 322-33-17*
"Qaya" firması	*(012) 566-77-80, (050) 214-40-53*
"Region Press" MMC	*(055) 316-79-01, (050) 316-79-01*
"Səma-M" MMC	*(012) 594-09-59*
"Ziya" LTD	*(012) 497-76-96, (050) 306-77-22*
"Pressinform" MMC	*(012) 598-49-52, (070) 340-01-00*
"City press" MMC	*(055) 819-09-26*

1 illik -156 (yüz əlli altı) **manat**
6 aylıq - 78 (yetmiş səkkiz) **manat**
3 aylıq - 39 (otuz doqquz) **manat**
1 aylıq - 13 (on üç) **manat**


AZƏRBAYCAN
Vyetnam Azərbaycanla ənənəvi dostluq əlaqələrinə böyük önəm verir
Prezident İlham Əliyev Vyetnamda rəsmi səfərdədir
Prezidentin sosial media hesablarında Vyetnama səfəri ilə bağlı daha bir videoçarx paylaşılıb
Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi
Neftverməni artırmaq üçün innovativ yanaşmalar və yeni texnologiyalardan istifadə olunur
Ermənistanın cavab verməli olduğu insan taleləri
Azərbaycan daha bir beynəlxalq qiymətləndirmədə öz cəb

Hörmətli oxucular!

Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

Sağlam yaşa

Antibiotiklərdən düzgün istifadə sağlam həyatın təminatıdır

Müasir tibbin ən böyük nailiyyətlərindən biri hesab olunan antibiotiklər milyonlarla insanın həyatını xilas edib, vaxtilə ölümcül sayılan bir çox bakterial infeksiyanın müalicəsini mümkün edib. Lakin bu gün bəşəriyyət həmin mühüm tibbi nailiyyətin təsir gücünü itirmək təhlükəsi ilə üz-üzədir. Antibiotiklərdən nəzarətsiz, əsassız və yanlış istifadə nəticəsində bakteriyaların bu dərmanlara qarşı davamlılığı artır.

Artıq bəzi infeksiyaların müalicəsi əvvəlkindən daha çətin, uzunmüddətli və baha başa gəlir. Dünya Səhiyyə Təşkilatı antimikrob rezistentliyi qlobal ictimai sağlamlıq üçün ən ciddi təhdidlərdən biri kimi qiymətləndirir. Mütəxəssislər xəbərdarlıq edirlər ki, lazımi tədbirlər görülməzsə, gələcəkdə adi bakterial infeksiyalar belə insan həyatı üçün ciddi təhlükəyə çevrilə bilər.

Hər il noyabrın 18-24-də dünyada Dünya Antimikrob Rezistentlik barədə Maarifləndirmə Həftəsi qeyd olunur. Əvvəllər Dünya Antibiotiklərdən Düzgün İstifadə Həftəsi kimi tanınan bu təşəbbüsün əsas məqsədi antibiotiklərdən və digər antimikrob preparatlardan məsuliyyətli istifadəni təşviq etmək, dərmanlara davamlı infeksiyaların yayılmasının qarşısını almaq və əhalinin məlumatlılığını artırmaqdır. Həftə çərçivəsində səhiyyə işçilərinə, əczaçılara, dövlət qurumlarına və vətəndaşlara müraciət edilərək antimikrob rezistentliklə mübarizənin hər kəsin məsuliyyəti olduğu xatırladılır.

Antibiotiklərin əsas xüsusiyyəti onların bakteriyaların yaratdığı infeksiyalara qarşı təsir göstərməsidir. Bu preparatlar bakteriyaları məhv edir və ya onların çoxalmasını dayandırır. Lakin cəmiyyətdə antibiotiklərin istənilən infeksion xəstəliyin müalicəsində faydalı olması barədə yanlış təsəvvür mövcuddur. Xüsusilə payız-qış mövsümündə soyuqdəymə, qrip, burun axması, öskürək və boğaz ağrısı zamanı həkim məsləhəti olmadan antibiotik qəbul edən insanların sayı az deyil. Halbuki bu xəstəliklərin böyük hissəsi viruslar tərəfindən törədilir. Antibiotiklər isə viruslara qarşı təsirsizdir. Onların virus infeksiyalarında əsassız istifadəsi sağalma prosesini sürətləndirmir, əksinə, əlavə sağlamlıq problemlərinin yaranmasına səbəb olur.

Antibiotiklərin kəşfi tibbdə əsl dönüş nöqtəsi olub. 1928-ci ildə Aleksandr Fleminqin penisilini kəşf etməsi sonradan bakterial infeksiyaların müalicəsində yeni dövrün başlanmasına şərait yaradıb. Antibiotiklərin geniş istifadəyə verilməsi pnevmoniya, menenqit, sepsis və digər ağır bakterial xəstəliklərdən ölüm hallarının azalmasında mühüm rol oynayıb. Cərrahi əməliyyatların, orqan transplantasiyasının, onkoloji müalicələrin və vaxtından əvvəl doğulmuş körpələrə göstərilən tibbi yardımın təhlükəsizliyi də müəyyən dərəcədə effektiv antibiotiklərin mövcudluğundan asılıdır. Bu səbəbdən antibiotiklərə qarşı davamlılığın artması yalnız infeksion xəstəliklərin müalicəsini deyil, bütövlükdə



müasir səhiyyə sisteminin imkanlarını təhlükə altına alır.

Antibiotiklərə qarşı davamlılıq bakteriyaların zamanla dəyişərək əvvəllər onları məhv edən dərmanların təsirindən qorunmaq qabiliyyəti qazanmasıdır. Bu proses təbiətdə də baş verə bilər, lakin antibiotiklərin həddindən artıq və düzgün olmayan istifadəsi onun sürətlənməsinə şərait yaradır. Məsələn, insan antibiotiki ehtiyac olmadığı halda qəbul etdikdə həmin dərmana həssas bakteriyalar məhv ola, davamlı bakteriyalar isə sağ qalaraq çoxala bilər. Nəticədə gələcəkdə yaranan bakterial infeksiyanın müalicəsində əvvəllər effektiv olan preparat kifayət qədər təsir göstərməyə bilər. Burada vacib məqam odur ki, antibiotikə qarşı davamlılıq insan orqanizmində deyil, bakteriyalarda formalaşır. Həmin davamlı bakteriyalar insanlar arasında yayıla və başqalarının müalicəsini də çətinləşdirə bilər.

Problemin miqyasını beynəlxalq elmi araşdırmalar da təsdiqləyir. 2024-cü ildə "The Lancet" jurnalında dərc olunmuş genişmiqyaslı tədqiqata əsasən, 2021-ci ildə dünyada təxminən 1,14 milyon ölüm birbaşa bakterial antimikrob rezistentliklə əlaqələndirilib. Həmin il 4,71 milyon ölüm hadisəsində isə bu problemin müəyyən rolu olduğu hesablanıb. Tədqiqatçıların proqnozlarına görə, mövcud tendensiyalar davam edərsə, 2050-ci ildə bakterial antimikrob rezistentliklə birbaşa əlaqəli illik ölüm hallarının sayı 1,91 milyona çata bilər. Bu rəqəmlər antibiotiklərdən düzgün istifadənin yalnız fərdi sağlamlıq məsələsi olmadığını, həm də qlobal miqyasda həyati əhəmiyyət daşıdığını göstərir.

Antibiotiklərdən düzgün istifadənin ən mühüm şərti onların yalnız tibbi göstəriş əsasında qəbul edilməsidir. Xəstəliyin bakterial və ya virus mənşəli olduğunu müəyyənləşdirmək üçün bəzən həkim müayinəsi ilə yanaşı, laborator analizlərə də ehtiyac yaranır. Bəzi hallarda bakterial infeksiyanın törədicisini və onun hansı antibiotikə həssas olduğunu müəyyən etmək məqsədilə mikrobioloji müayinələr aparılır. Bu yanaşma daha məqsədyönlü müalicə seçməyə, lazımsız dərman istifadəsini azaltmağa və rezistentliyin inkişaf riskini məhdudlaşdırmağa kömək edir. Hərarətin yüksəlməsi və ya boğazda ağrının olması isə özlüyündə antibiotik qəbuluna əsas vermir.

Dərmanın dozası, qəbul müddəti və istifadə qaydası da müalicənin effektivliyində mühüm rol oynayır. Antibiotiki həkimin təyin etdiyi dozadan az və ya çox qəbul etmək, qəbul vaxtlarını özbaşına dəyişmək, yaxud müalicəni həkimlə məsləhətləşmədən dayandırmaq düzgün deyil. Eyni zamanda antibiotik müalicəsinin hər zaman uzunmüddətli olması barədə təsəvvür də yanlışdır. Müxtəlif infeksiyalar üçün elmi sübutlara əsaslanan fərqli müalicə müddətləri mövcuddur. Bəzi xəstəliklərdə qısa kurslar kifayət edir. Buna görə əsas prinsip dərmanı nə qədər çox qəbul etmək deyil, konkret infeksiya üçün müəyyənləşdirilmiş düzgün müalicə sxeminə əməl etməkdir.

Əhali arasında geniş yayılmış təhlükəli vərdişlərdən biri də əvvəlki xəstəlikdən qalan antibiotikləri sonradan yenidən istifadə etməkdir. Bəzən insanlar oxşar əlamətləri olan xəstəliklərin eyni dərmanla müalicə ediləcəyini düşünürlər. Halbuki eyni simptomlar müxtəlif səbəblərdən yarana bilər. Bir insana təyin olunmuş antibiotik digər şəxs üçün uyğun olmaya bilər. Xüsusilə uşaqlarda, hamilələrdə, yaşlılarda, böyrək və qaraciyər xəstəlikləri olan insanlarda dərman seçimi xüsusi diqqət tələb edir. Antibiotiklərin allergik reaksiyalar, ürəkbulanma, ishal və digər əlavə təsirlər yaratması da mümkündür. Bəzi preparatlar bağırsaq mikrobiotasının tarazlığını pozaraq müəyyən infeksiyaların inkişaf riskini artıra bilər.

Antibiotiklərdən düzgün istifadə məsələsi heyvandarlıq, kənd təsərrüfatı və ətraf mühitlə də sıx bağlıdır. Heyvanlarda antimikrob preparatların əsassız tətbiqi davamlı bakteriyaların yaranmasına və yayılmasına şərait yarada bilər. Belə mikroorqanizmlər qida məhsulları, su və ətraf mühit vasitəsilə insanlara keçə bilər. Buna görə də Dünya Səhiyyə Təşkilatı insan, heyvan və ətraf mühit sağlamlığının qarşılıqlı əlaqəsini nəzərdə tutan "Vahid sağlamlıq" yanaşmasını dəstəkləyir. 2026-cı ilin 18-24 noyabr tarixlərində keçirilən maarifləndirmə həftəsinin əsas mövzusu da "Vahid sağlamlıq, vahid fəaliyyət: Antimikrob rezistentliyin qarşısını indi alaq!" çağırışıdır. Bu təşəbbüs müxtəlif sahələrin birgə fəaliyyətinin vacibliyini ön plana çıxarır.

Mütəxəssislər hesab edirlər ki, antibiotiklərə qarşı davamlılığın qarşısını almağın ən səmərəli yollarından biri infeksiyaların yayılmasını azaltmaqdır. Bunun üçün şəxsi gigiyena qaydalarına riayət etmək, əlləri mütəmadi yumaq, təhlükəsiz içməli sudan istifadə etmək, qidaları düzgün hazırlamaq və tövsiyə olunan peyvəndləri vaxtında etdirmək mühüm əhəmiyyət daşıyır. Peyvəndlər müəyyən bakterial və virus infeksiyalarının qarşısını almaqla antibiotiklərə ehtiyacı da azalda bilər. Eyni zamanda insanların antibiotikləri ehtiyat üçün qəbul etməsi və ya hər xəstəlik zamanı daha güclü dərman tələb etməsi kimi yanlış yanaşmaların dəyişdirilməsi vacibdir. Antibiotiklərin gələcək nəsillər üçün effektivliyini qorumaq bu gün verilən qərarlardan asılıdır. Hər bir insan bilməlidir ki, antibiotik adi ağrıkəsici və ya hərarətsalıcı vasitə deyil. Onun istifadəsi konkret tibbi göstərişə əsaslanmalıdır. Bu gün məsuliyyətlə istifadə etdiyimiz hər bir antibiotik sabah başqa bir insanın həyatını xilas etmək imkanını qoruyub saxlaya bilər.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

San-Fransiskoda süni intellekt sahəsində sürətli inkişaf yaşanır

Pandemiya dövründə sakinlərinin bir hissəsini itirən və məsafədən iş rejimi səbəbindən mərkəzi hissəsi zəifləyən ABŞ-nin San-Fransisko şəhəri hazırda süni intellekt sektorunun hesabına yenidən canlanır.



BBC-nin məlumatına görə, "OpenAI" və keçən həftə NyuYorkun "Nasdaq" birjasında səhmlərini satışa çıxaran "Anthropic" kimi nəhəng şirkətlərin, eləcə də minlərlə süni intellekt startapının burada yerləşməsi şəhərin iqtisadiyyatını hərəkətə gətirib. Bu canlanma ev kirayələrinin artmasında, boş ofislərin azalmasında və digər xidmət sahələrinin böyüməsində özünü göstərir.

Bununla belə, sektorda mümkün enişlə bağlı narahatlıqlar da artır. Ötən ay Beynəlxalq Valyuta Fondu süni intellekt səhmlərinin ucuzlaşması və investisiyaların azalması riski barədə xəbərdarlıq edib. Həmçinin "Nvidia" şirkətinin keçmiş rəhbəri Censen Huanq ətrafındakı qalmaqal da bazarlarda müəyyən dalğalanmalara səbəb olub. Şəhərdə çalışan süni intellekt mütəxəssisləri arasında fikir ayrılığı yaranıb.

2023-2025-ci illərdə ABŞ-də süni intellekt sahəsinə yatırılan riskli sərmayələrin 60 faizi San-Fransisko şirkətlərinin payına düşüb. Buna görə də mümkün böhran Silikon Vadisindən daha çox bu şəhərə təsir edə bilər. Lakin iqtisadçılar indiki vəziyyətin əvvəlki texnologiya böhranları qədər ağır nəticələrə yol açmayacağını düşünürlər. Bunun əsas səbəbi məşğulluq amilidir. Süni intellekt şirkətləri böyük vəsait cəlb etsələr də, əvvəlki dövrlərlə müqayisədə daha az işçi çalışdırırlar. Xərclərin böyük hissəsi şəhərdən kənarda yerləşən məlumat mərkəzlərinə və hesablama gücünə yönəldilir. Bu səbəbdən mümkün ixtisarların şəhərə təsiri məhdud qala bilər.

Kaliforniya Universitetinin professoru Enriko Moretti isə əsas zərbənin xidmət sektoruna, yəni restoranlara, pərakəndə satışa və fərdi xidmət sahələrinə dəyəcəyini bildirib. Eyni zamanda ofislərin yenidən boşalması və kirayə qiymətlərinin düşməsi ehtimal olunur. Şəhərin baş iqtisadçısı Ted Eqanın sözlərinə görə, San-Fransiskonun iqtisadi dirçəlişi, sadəcə, süni intellektdən asılı deyil. Səhiyyə və turizm sahələrindəki sabit artım texnologiya sektorundakı mümkün geriləməni yumşaltmağa kömək edəcək. İqtisadçılar şəhər rəhbərliyinə texnologiyadan kənar sahələri dəstəkləməyi və maliyyə ehtiyatları yaratmağı tövsiyə edirlər.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

İdman

Xüsusi Olimpiya Avropa Badminton Turnirində ən çox medalı Azərbaycan təmsilçiləri qazanıblar

Bakıda keçirilən Xüsusi Olimpiya Avropa Badminton Turniri başa çatıb. AZƏRTAC xəbər verir ki, 18 ölkədən idmançıların qatıldığı turnirdə 7 kateqoriya üzrə 24 divizionda mübarizə gedib. Ümumi medal sayına görə Azərbaycan təmsilçiləri birinci yeri tutublar.

İdmançılarımız 10 divizionda çıxış edərək 2 qızıl, 3 gümüş və 5 bürünc medal olmaqla, ümumilikdə 10 mükafat qazanıblar.



Qadınlar arasında qoşa yarışda Aybəniz Xasməmmədova və Adilə Rəsulova bürünc medal əldə edib-



lər. Birləşmiş qoşa yarışda Nigar Kərimova və Həcər Nuriyeva I divizionda qızıl medala layiq görüldülər. Kişilər arasında birləşmiş qoşa yarışda Yusif Bağırov və Ülvi Hüseynov I divizionda gümüş medal qazanıblar. Qoşa yarışda Əli Əsədov və Rafiq Həsənzadə III divizionda bürünc medala sahib olublar. Maksim Maliqin və Ülvi Musayev isə dördüncü yeri tutublar.

Qadınlar arasında fərdi yarışda Aybəniz Xasməmmədova IV divizionda qızıl, Adilə Rəsulova isə gümüş medal qazanıb. Nigar Kərimova II divizionda dördüncü olub.

Kişilərin fərdi yarışında Yusif Bağırov VII, Rafiq Həsənzadə VIII divizionda bürünc medala layiq görülüblər. Əli Əsədov X divizionda gümüş, Ülvi Musayev isə həmin divizionda bürünc medal əldə edib. Maksim Maliqin IX divizionda dördüncü yeri tutub.

Azərbaycan millisinin futbolçusu Almaniya klubunun heyətində qol vurub

Karyerasını Almaniyanın "Ştaaken" klubunun U-19 komandasında davam etdirən 17 yaşadək futbolçulardan ibarət millisinin üzvü Zeyd Nəsirulla növbəti uğurlu çıxışı ilə diqqət mərkəzinə düşüb.

AZƏRTAC xəbər verir ki, o, bu həftə Almaniyanın Regional Liqasında "Tennis Borussiya Berlin" ilə keçirilən qarşılaşmada fərqlənməyi bacarıb.

Müdafiəçi qarşılaşmanın 55-ci dəqiqəsində rəqib qapısına yol taparaq hesabı 1:1 edib.

Gərgin mübarizə şəraitində keçən görüş "Tennis Borussia Berlin"in 2:1 hesablı qələbəsi ilə başa çatıb.

ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadəyə əzizi

RAİSƏ QULUZADƏNİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Şəmkir Rayon Statistika İdarəsinin rəisi

ŞİKAR HƏSƏNOVUN

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman və informasiya şöbəsi	- 539-63-82, 432-37-68
Baş redaktor müavinləri	- 538-86-86, 538-35-55	Humanitar siyasət şöbəsi	- 538-56-60, 434-55-58
Məsul katib	- 539-43-23,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Məsul katib müavinləri	- 539-44-91,	Kompüter mərkəzi	- 538-20-87,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Mühasibatlıq	- 539-59-33
İqtisadiyyat şöbəsi	- 538-42-32		

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3292
Sifariş 1541

Qiyməti 60 qəpik